RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 253 (9998) 29 noyabr 2025-ci il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Özəl sektor ölkə iqtisadiyyatının əsas gücünə çevrilir

## "Scandens Pharmaceutical Industries Ltd" MMC və AZWOOL mineral daş yunu zavodu yalnız bir həftədə açılan özəl müəssisələrdir

**Azərbaycanda sahibkarlığın inkişafı ölkə iqtisadiyyatının modernləşməsi və rəqabət qabiliyyətinin artırılması baxımından strateji əhəmiyyət daşıyır. Həyata keçirilən islahatlar, təkmilləşən vergi sistemi, "bir pəncərə" və elektron xidmətlərin genişləndirilməsi, eləcə də Sahibkarlığın İnkişafı Fondunun (SİF) güzəştli kreditləri biznes mühitinin dinamik münbitləşməsinə şərait yaradır.**

Kiçik və orta sahibkarlığın dəstəklənməsi məşğulluğun artırılmasına, regional inkişafın sürətlənməsinə və innovativ biznes modellərinin formalaşmasına da təkan verir. Baxmayaraq ki, hələ də maliyyə resurslarına çıxışın çətinliyi, infrastruktur problemləri və bəzi sahələrdə rəqabətin yetərincə formalaşmaması kimi maneələr mövcuddur, amma müsbət irəliləyişləri danmaq olmaz. Sahibkarlığın gələcək inkişaf perspektivləri üçün rəqəmsallaşmanın genişlənməsi, startap ekosisteminin güclənməsi və innovasiyaların tətbiqi ilə bağlı yeni imkanların açılması bunun təsdiqidir. Azərbaycanda sahibkarlığın inkişafına dövlət səviyyəsində verilən dəstəyin də rolunu diqqətdən qaçırmaq olmaz.

Prezident İlham Əliyev dəfələrlə vurğulayıb ki, güclü sahibkarlıq subyektinin formalaşdırılması ölkənin iqtisadi inkişaf strategiyasının əsas dayaqlarından biridir. Dövlət başçısının sahibkarlığın dəstəklənməsi ilə bağlı səsləndirdiyi fikirlər, qəbul etdiyi qərarlar və həyata keçirilən proqramlar bir daha göstərir ki, biznes mühitinin yaxşılaşdırılması, investisiya imkanlarının genişləndirilməsi və qeyri-neft sektorunun dayanıqlı inkişafı Azərbaycan siyasətinin prioritet istiqamətlərindəndir. Prezident səviyyəsində sahibkarlığın inkişafına verilən dəstək həm dövlət qurumlarının fəaliyyətində, həm də sahibkarlar üçün yaradılan geniş imkanlarda öz əksini tapır və bu sahənin davamlı inkişafına stimul verir. Qeyri-neft sektorunun şaxələndirilməsi və davamlı inkişafı istiqamətində aparılan tədbirlər nəticəsində ölkədə yeni istehsal sahələri yaradılır və bu sahələr yalnız iqtisadiyyatın müxtəlifliyini təmin etmir, eyni zamanda ölkənin iqtisadi inkişafında sahibkarlığın rolunu artırır.

7

# İlham Əliyev Si Cinpinə başsağlığı verib

## Çin Xalq Respublikasının Sədri zati-aliləri cənab Si Cinpinə



Hörmətli cənab Sədr!

Honkonqda yerləşən yaşayış kompleksində baş vermiş güclü yanğın nəticəsində çox sayda insanın həlak olması xəbəri bizi olduqca sarsıtdı.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, dost Çin xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, xəsarət alanlara şəfa diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 noyabr 2025-ci il*

# Azərbaycan Albaniya ilə əlaqələrə böyük əhəmiyyət verir

## Albaniya Respublikasının Prezidenti zati-aliləri cənab Bayram Beqaya

Hörmətli cənab Prezident!

Albaniya Respublikasının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Biz Azərbaycan ilə Albaniya arasında əlaqələrə böyük əhəmiyyət veririk. Sağlam təməllər üzərində qurulmuş dövlətlərarası münasibətlərimizin yüksələn xətt üzrə inkişaf etməsi, əməkdaşlığımızın əhatə dairəsinin genişlənməsi bizi sevindirir.

Görüşlərimizin və səfərlərimizin intensivliyi Azərbaycan-Albaniya dostluğunun səviyyəsindən, qarşılıqlı əlaqələrimizin dinamikasından xəbər verir. Cari ilin mayında "Avropa Siyasi Birliyi"nin 6-cı Zirvə toplantısında iştirak etmək üçün Tiranaya səfərimi ən xoş təəssüratlarla xatırlayıram.

Əminəm ki, xalqlarımızın iradəsinə uyğun olaraq Azərbaycan ilə Albaniya arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi, bir sıra sahələrdə qarşılıqlı maraq doğuran



əməkdaşlığın daha da dərinləşdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Albaniya xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 noyabr 2025-ci il*

# İlham Əliyevin qlobal təşəbbüsləri

## Bu, Azərbaycanın xarici diplomatiyasının daha da güclənməsi üçün möhkəm təməl yaradıb

İlham Əliyevin diplomatik təşəbbüsləri regional və qlobal səviyyədə strateji tərəfdaşlıqların qurulması baxımından da mühüm əhəmiyyət daşıyır. Sözü imzası qədər keçərli olan İlham Əliyevin ən mühüm diplomatik uğurlarından biri Azərbaycanı Cənubi Qafqazın lider dövləti kimi möhkəmləndirməsidir.

Azərbaycanın xarici siyasətinin əsasını həmçinin güclü iqtisadi diplomatiya təşkil edir. Prezident İlham Əliyevin dövründə ölkəmiz dünya enerji bazarında əsas oyunçulardan birinə çevrilib. Xüsusilə "Cənub Qaz Dəhlizi" kimi böyük enerji layihəsinin həyata keçirilməsi Azərbaycanın Avropaya enerji ixracını artırıb, ölkəmizin iqtisadiyyatına müsbət təsir göstərib. Qlobal layihələr Azərbaycanın həm regionda, həm də dünyada enerji təhlükəsizliyinə töhfə verməsini təmin edib.

Azərbaycana rəhbərlik etdiyi 22 ildə İlham Əliyev elə bir dövlət yaradıb ki, özünün də söylədiyi kimi, mövcudluğu tarixində ölkəmiz heç zaman indiki kimi qüdrətli, güvənli, istiqrarlı olmayıb.

7

# Azərbaycan ilə Timor-Leste arasında münasibətlər yeni vüsət alır

## Timor-Leste Demokratik Respublikasının Prezidenti zati-aliləri cənab Coze Ramuş-Hortaya

Hörmətli cənab Prezident!

Timor-Leste Demokratik Respublikasının müstəqilliyinin elan edilməsinin 50-ci ildönümü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı ürəkdən təbrik edir, ən səmimi arzularımı çatdırıram.

Azərbaycan ilə Timor-Leste arasında münasibətlərin yeni vüsət alması bizi sevindirir. Biz sağlam təməllər üzərində qurulmuş, qarşılıqlı hörmətə əsaslanan dövlətlərarası əlaqələrimizin inkişafına və əməkdaşlığımızın yeni məzmunla zənginləşməsinə böyük əhəmiyyət veririk.

İnanıram ki, Azərbaycan ilə Timor-Leste arasında dostluq münasibətlərinin möhkəmlənməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.



Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost xalqınıza daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 noyabr 2025-ci il*

# Yeni siyasi konfiqurasiya: Gələcəyə baxış

Ölkədə siyasi partiyalarla münasibətlər sistemli və institusional əsaslarla qurulmağa başladı. Əsas məram məhz Prezidentin tövsiyəsinin reallaşması - iqtidar-müxalifət qarşıdurmasının yerinə dövlət və partiyalar arasında etimada əsaslanan dialoq platformasını yaratmaq idi. Və buna da nail olundu!

Prezident İlham Əliyevin bu fikirləri mövcud siyasi konfiqurasiyanın formalaşmasına gedilən yolun izahı baxımından olduqca əhəmiyyətlidir: "Biz buna nail olduq, qısa müddət ərzində. Yenə də, sadəcə olaraq, baxdıq ki, hansı fundamental ziddiyyətlər var, harada biz, necə deyərlər, bir-birimizlə razılığa gələ bilmirik. Belə qərara gəldik, belə təklif etdik ki, ümummilli məsələlərdə heç bir fərqli fikir ola bilməz. Ümumi məsələlər Qarabağ məsələsidir. Ümumi məsələlər siyasi partiyaların fəaliyyətidir, demokratiyanın inkişafıdır, iqtisadi azadlıqların bərqərar olmasıdır, ölkəmizin güclənməsidir. Bu gün bu siyasi dialoq aparılır. Mən bunu çox təqdir edirəm. Hesab edirəm ki, ölkəmizin gələcək siyasi sisteminin təkmilləşməsi üçün bunun böyük əhəmiyyəti var".

Prezidentin qeyd etdiyi vacib məqam - siyasi sistemin təkmilləşməsi prosesi ötən müddətdə real nəticələr verib. Milli Məclisdə parlament sədrinin müavini, komitə sədri və müavin vəzfələrində təmsil olunan müxalifət partiyaları yerli özünüidarəetmə orqanlarında - bələdiyyələrdə də geniş nümayəndəlik imkanı qazanıblar.

Yaranmış əlverişli siyasi mühitin nəticəsi olaraq, siyasi sistemdə ardıcıl keyfiyyət dəyişikliyi müşahidə olunur, ənənəvi partiyalarla yanaşı, yeni siyasi qüvvələr meydana çıxır, müasir təfəkkürlü siyasətçilər yetişir. Yeni siyasi aktorlara cəmiyyətdə özlərini realizə etmək üçün geniş imkanlar yaradılır. Siyasi proseslərin iştirakçıları yeni platformalarda, əsasən sosial şəbəkələrdə, sosial mediada fəallıq göstərir, gənc siyasətçilər, ictimai fəallar cəmiyyətdə ictimai maraq yaradırlar.

6

# Xankəndi bu gün həm də akademik şəhərdir...

20 sentyabr 2024-cü ildə Xankəndinin azad edilməsinin bir ilində isə bu tarixi şəhərimizdə Qarabağ Universitetinin Prezident İlham Əliyev tərəfindən açılışı həyata keçirilib. Dövlət Suverenliyi Gününü qürurla qeyd etdiyimiz həmin tarixdə universitetin fəaliyyətə başlaması həm də azad Qarabağ və Şərqi Zəngəzura elmimizin qayıdışı kimi rəmzi məna daşıyırdı. Minlərlə tələbənin böyük fəxr hissi ilə seçdiyi bu təhsil ocağının açılışını edən, yataqxanasında tə-



ləbələr üçün yaradılan şəraitlə tanış olan, universitetin müəllim və tələbə heyəti ilə görüşən Prezident İlham Əliyev bildirmişdi ki, Qarabağ Universitetinin yaradılması tarixi hadisədir: "...Bu gün Qarabağda, azad Qarabağda olmaq, sizi görmək, yataqxanada, o balkonda tələbələrin gülər üzlərini görmək, doğrudan da, böyük xoşbəxtlikdir. Bəlkə də bundan böyük xoşbəxtlik ola bilməz".

8

# "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 113-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 14-cü bəndlərini rəhbər tutaraq, "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 113-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Ailə Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 126 (Cild I); 2024, № 5 (I kitab), maddə 484, № 6 (I kitab), maddə 637, № 7, maddələr 763, 765, 769, 772; 2025, № 2, maddə 98, № 4 (I kitab), maddə 322, № 6, maddə 523) 51.7-ci maddəsinə "(qurum)" sözündən sonra ", habelə qəyyumluq və himayəçilik orqanı" sözləri əlavə edilsin.

**Maddə 2.** Azərbaycan Respublikası Mülki Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 493, № 7, maddə 744, № 12 (I kitab), maddə 1281; 2025, № 1, maddə 17, № 3, maddə 216, № 4 (I kitab), maddələr 315, 318, № 6, maddələr 523, 524, 536, № 7, maddələr 610, 626, № 8, maddələr 738, 741, 743, 744) 35.1-ci maddəsinin üçüncü cümləsindən "valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş" sözləri çıxarılsın.

**Maddə 3.** "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 477 (Cild I); 2024, № 5 (I kitab), maddə 501, № 12 (II kitab), maddə 1336; 2025, № 4 (I kitab), maddələr 310, 322, № 6, maddə 523) 7-ci maddəsinin altıncı hissəsində "olan" sözü "olmuş" sözü ilə, "özəlləşdirilmə" sözü "özəlləşdirmə" sözü ilə əvəz edilsin.

**Maddə 4.** "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 681 (Cild I); 2024, № 1, maddə 3; 2025, № 2, maddə 98, № 6, maddə 523) 9.0-cı maddəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 9.0.4-cü maddədə "müvafiq" sözü "aidiyyəti" sözü ilə əvəz edilsin;

4.2.9.0.5-ci maddədə "cəzaçəkmə müəssisəsindən, açıq və ya" sözləri"tərbiyə müəssisələrindən, açıq və" sözləri ilə əvəz edilsin;

4.3. 9.0.8-ci maddəyə "intizam" sözündən əvvəl "bu maddədə nəzərdə tutulmayan digər" sözləri əlavə edilsin.

**Maddə 5.** "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 7, maddə 710 (Cild I); 2025, № 6, maddə 523) 5.2-ci maddəsində "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının qorunması" sözləri "Uşaq hüquqlarının müdafiəsi" sözləri ilə əvəz edilsin.

**Maddə 6.** "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 6, maddə 481 (Cild I); 2024, № 6 (I kitab), maddə 631) 11.5-ci maddəsinin ikinci cümləsində və 12.0.2-ci maddəsində "müvafiq icra hakimiyyəti" sözləri "qəyyumluq və himayəçilik" sözləri ilə əvəz edilsin.

**Maddə 7.** "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 597 (Cild I); 2024, № 1, maddə 14; 2025, № 1, maddə 1, № 5, maddə 438) 26-cı maddəsində aşağıdakı dəyişikliklər edilsin:

7.1. 26.3-cü maddədə "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun)" sözləri "qəyyumluq və himayəçilik orqanının" sözləri ilə əvəz edilsin;

7.2. 26.4-cü və 26.5-ci maddələrdə "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)" sözləri "qəyyumluq və himayəçilik orqanına" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 oktyabr 2025-ci il*

# "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 113-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 10 oktyabr tarixli 265-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 113-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 10 oktyabr tarixli 265-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 11.5-ci maddəsinin ikinci cümləsində və 12.0.2-ci maddəsində "qəyyumluq və himayəçilik orqanı" dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, digər hallarda isə uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar nəzərdə tutulur;

1.2. "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanununun 26.3-26.5-ci maddələrində "qəyyumluq və himayəçilik orqanı" dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, digər hallarda isə uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 113-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 10 oktyabr tarixli 265-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 297 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 164 (Cild I); 2024, № 6 (I kitab), maddə 655, № 7, maddə 812, № 8, maddə 956; 2025, № 6, maddə 542) 2.15-ci bəndində ", yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar və yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları" sözləri "və uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar" sözləri ilə əvəz edilsin.

4. "Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 609 (Cild I); 2024, № 7, maddə 790; 2025, № 6, maddə 542, № 8, maddə 746) 3.2-1-ci bəndində "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir" sözləri "himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, digər hallarda isə uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar həyata keçirirlər" sözləri ilə əvəz edilsin.

5. "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 20 aprel tarixli 414 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 4, maddə 283 (Cild I) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.2. həmin Qanunun 11.5-ci maddəsinin ikinci cümləsində və 12.0.2-ci maddəsində "qəyyumluq və himayəçilik orqanı" dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, digər hallarda isə uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar nəzərdə tutulur;";

5.2. 1.3-cü bənd ləğv edilsin.

6. "Mediasiya haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1555-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 aprel tarixli 607 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 607 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

6.1. 2.1-ci bənddə "26.3-26.6-cı" sözləri "26.6-cı" sözləri ilə əvəz edilsin;

6.2. 2.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"2.3. həmin Qanunun 26.3-26.5-ci maddələrində "qəyyumluq və himayəçilik orqanı" dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, digər hallarda isə uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar nəzərdə tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 noyabr 2025-ci il*

# "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 113-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 113-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 14 iyun tarixli 493 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 89 (Cild I); 2025, № 6, maddə 542) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.5-ci bənddə "Yetkinlik yaşına çatmayanların işləri və" sözləri "uşaq" sözü ilə əvəz edilsin;

1.2. aşağıdakı məzmunda 2.5-1-ci bənd əlavə edilsin:

"2.5-1. həmin Qanunun 5-ci maddəsinin altıncı hissəsinin üçüncü cümləsində "qəyyumluq və himayə orqanı" və yeddinci hissəsində "qəyyumluq və himayə orqanları" dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, digər hallarda isə uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar nəzərdə tutulur;".

2. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 11, maddə 666 (Cild I); 2024, № 3, maddə 260, № 7, maddə 815, № 8, maddələr 937, 947, № 10, maddə 1138; 2025, № 6, maddə 542; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 6 noyabr tarixli 520 nömrəli Fərmanı) 2.20-1-ci bəndi 2.20-2-ci bənd hesab olunsun və aşağıdakı məzmunda 2.20-1-ci bənd əlavə edilsin:

"2.20-1. həmin Qanunun 27-ci maddəsinin IV hissəsinin "Qeyd"inin ikinci cümləsində "qəyyumluq və himayəçilik orqanı" və üçüncü cümləsində "qəyyumluq və himayəçilik orqanları" dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, digər hallarda isə uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar nəzərdə tutulur;".

3. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli 188 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 498 (Cild I); 2024, № 6 (I kitab), maddə 667, № 12 (II kitab), maddə 1362; 2025, № 4 (I kitab), maddə 326, № 6, maddə 542) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.4-1-ci bənddə "yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları" sözləri "uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar" sözləri ilə əvəz edilsin;

3.2. 2.7-ci bənddə "dördüncü, beşinci və yeddinci" sözləri "beşinci, altıncı və səkkizinci" sözləri ilə, "Yetkinlik yaşına çatmayanların işləri və" sözləri "uşaq" sözü ilə əvəz edilsin.

4. "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610 (Cild I); 2024, № 1, maddələr 24, 33, № 4, maddə 387, № 8, maddə 945; 2025, № 4 (I kitab), maddə 340, № 6, maddə 561, № 7, maddə 633) 2-ci hissəsinin on ikinci-iyirmi beşinci abzasları müvafiq olaraq on üçüncü-iyirmi altıncı abzaslar hesab olunsun və aşağıdakı məzmunda on ikinci abzas əlavə edilsin:

"həmin Məcəllənin 123-2.1.6-cı maddəsində "qəyyumluq və himayəçilik orqanı" dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, digər hallarda isə uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar nəzərdə tutulur;".

5. "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 388 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 611 (Cild I); 2024, № 8, maddə 943) 3.19-cu bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.20-ci bənd əlavə edilsin:

"3.20. həmin Məcəllənin 92.2-ci maddəsində "qəyyumluq və himayəçilik orqanları" dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, digər hallarda isə uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar nəzərdə tutulur.".

6. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 13 noyabr tarixli 419 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 11, maddə 795 (Cild I); 2025, № 1, maddə 53) ilə təsdiq edilmiş "Qaçqın" statusu verilməsi haqqında vəsatətə baxılması Qaydası"nın 1-ci hissəsinin ikinci abzasının ikinci cümləsi üçüncü cümlə hesab olunsun və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Qəyyumluq və himayə orqanlarının funksiyalarını himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, digər hallarda isə uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar həyata keçirirlər.".

7. "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 4 avqust tarixli 272 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 704 (Cild I) 2.10-cu bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.11-ci bənd əlavə edilsin:

"2.11. həmin Qanunun 14.2-ci maddəsinin ikinci cümləsində, 16.2-ci maddəsinin birinci və ikinci cümlələrində, 16.3-cü maddəsinin üçüncü cümləsində "qəyyumluq və himayə orqanı" dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, digər hallarda isə uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar nəzərdə tutulur.".

8. "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 274 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 706 (Cild I); 2024, № 6 (I kitab), maddə 667; 2025, № 6, maddə 542) 2.3-cü bəndində "yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanları" sözləri "uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar" sözləri ilə əvəz edilsin.

9. "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 3 iyul tarixli 606 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 7, maddə 713 (Cild I); 2025, № 6, maddə 542) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

9.1. 2.4-cü bənddə "maddəsində" sözü "maddəsinin birinci cümləsində" sözləri ilə əvəz edilsin;

9.2. aşağıdakı məzmunda 2.6-1-ci bənd əlavə edilsin:

"2.6-1. həmin Qanunun 10.1-ci maddəsinin üçüncü cümləsində "qəyyumluq və himayə orqanı" və 10.1-1-ci maddəsində "qəyyumluq və himayə orqanları" dedikdə himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, digər hallarda isə uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar nəzərdə tutulur;".

10. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 5, maddə 419 (Cild I); 2024, № 1, maddə 21, № 4, maddə 393, № 6 (I kitab), maddə 667, № 12 (II kitab), maddə 1370; 2025, № 4 (I kitab), maddə 345) ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

10.1. 1.3-cü bənddə "yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar və yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə" sözləri "uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar və qəyyumluq və himayəçilik" sözləri ilə əvəz edilsin;

10.2. 2-ci hissə üzrə:

10.2.1. 2.5-ci bəndin birinci abzasına "Azərbaycan" sözündən əvvəl "Bu Qaydanın 2.8-ci bəndi nəzərə alınmaqla," sözləri əlavə edilsin;

10.2.2. 2.7-ci bənd üzrə:

10.2.2.1. birinci abzasda "Yetkinlik" sözü "Bu Qaydanın 2.8-ci bəndi nəzərə alınmaqla, habelə yetkinlik" sözləri ilə, "yetkinlik yaşına çatmayanların işləri və" sözləri "uşaq" sözü ilə əvəz edilsin;

10.2.2.2. 2.7.3-cü və 2.7.4-cü yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"2.7.3. təhsil müəssisələrində, habelə mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq, yetkinlik yaşına çatmayanların işlədikləri müəssisələrdə, təşkilatlarda və idarələrdə onlar arasında tərbiyə işinin təşkilinin monitorinqini aparır;

2.7.4. internatlarda, uşaq evlərində, açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələrində, tərbiyə müəssisələrində, qəbul-bölüşdürmə məntəqələrində saxlanılan yetkinlik yaşına çatmayanların şəxsiyyətini təsdiq edən sənədləri əldə etmək mümkün olmadıqda, həmin sənədlərin əldə edilməsi məqsədilə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə müraciət edir;";

10.2.2.3. 2.7.5-ci yarımbənd ləğv edilsin;

10.2.2.4. 2.7.7-ci yarımbənddə "müvafiq" sözü "aidiyyəti" sözü ilə əvəz edilsin;

10.2.2.5. 2.7.8-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.7.8. tərbiyə müəssisələrindən, açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələrindən buraxılmış yetkinlik yaşına çatmayanlar üçün əmək və məişət şəraitinin yaradılmasında onlara yardım göstərir, dövlət yardımına ehtiyacı olan yetkinlik yaşına çatmayanları müəyyən edir və onlara yardım göstərir, yetkinlik yaşına çatmayanların sosial reabilitasiyası üzrə normativ hüquqi aktlarda nəzərdə tutulmuş digər funksiyaları həyata keçirir;";

10.2.2.6. 2.7.11-ci yarımbəndə "Məcəlləsinə" sözündən sonra "və Azərbaycan Respublikasının 2002-ci il 31 may tarixli 336-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamə"yə" sözləri, "inzibati tənbeh" sözlərindən sonra "və bu Qaydanın 2.7-ci bəndində nəzərdə tutulmayan digər intizam təsir" sözləri əlavə edilsin;

10.2.2.7. 2.7.16-cı yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.7.16. yetkinlik yaşına çatmayanların tərbiyəsi, təhsili və əmək qabiliyyətli şəxslərə məşğulluq imkanlarının yaradılması ilə əlaqədar, həmçinin yetkinlik yaşına çatmayanların pozulmuş hüquqlarının bərpası məqsədilə müvafiq dövlət orqanlarına, mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq müəssisələrə, idarələrə və təşkilatlara müraciət edir.";

10.2.3. 2.8-ci bəndin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"2.8. Qəyyumluq və himayəçilik orqanları qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar:";

10.3. 4.1-ci bəndin birinci abzasında "Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə Komissiya" sözləri "uşaq hüquqlarının müdafiəsi üzrə komissiya" sözləri ilə əvəz edilsin.

11. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024, № 4, maddə 381, № 6 (I kitab), maddə 649, № 7, maddələr 812, 814, 815, № 12 (I kitab), maddə 1294, (II kitab), maddə 1367; 2025,№ 2, maddə 127,№ 3, maddə 232, № 4 (I kitab), maddə 325, № 5, maddə 463, № 6, maddələr 541, 561, № 8, maddələr 756, 763, № 9, maddə 820; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 8 oktyabr tarixli 501 nömrəli və 6 noyabr tarixli 520 nömrəli fərmanları)ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

11.1. 1-ci hissədə "yetkinlik yaşına çatmayanlarla" sözləri "uşaqlarla" sözü ilə əvəz edilsin;

11.2. 57.2.3-cü yarımbənddə, 58-2.2-ci və 59.4-cü bəndlərdə "yetkinlik yaşına çatmayanların işləri və" sözləri "uşaq" sözü ilə əvəz edilsin;

11.3. 62-ci hissədə "yetkinlik yaşına çatmayanlarla" sözləri "uşaqlarla" sözü ilə əvəz edilsin.

12. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 2 iyun tarixli 2073 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 723 (Cild I); 2024, № 5 (I kitab), maddə 529; 2025, № 4 (I kitab), maddə 345) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası"nda aşağıdakı dəyişikliklər edilsin:

12.1. 2-ci hissənin ikinci abzasında "Yetkinlik yaşına çatmayanların işləri və" sözləri "Uşaq" sözü ilə əvəz edilsin;

12.2. 4.1.2-ci yarımbənddə "yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaların və yerli icra hakimiyyətlərinin" sözləri "uşaq hüquqlarının müdafiəsi üzrə komissiyaların və" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 noyabr 2025-ci il*

# Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251 (Cild I); 2024, № 1, maddələr 8, 18, № 3, maddə 250, № 7, maddə 772, № 11, maddə 1189, № 12 (II kitab), maddələr 1330, 1350; 2025, № 1, maddə 1, № 2, maddələr 98, 99, № 3, maddələr 217, 221, № 4 (I kitab), maddə 322, № 5, maddə 434, № 6, maddə 538, № 7, maddələr 607, 626) aşağıdakı dəyişikliklər edilsin:

1. 73-2.2-ci maddədə ", 197, 198" rəqəmləri "-199" rəqəmləri ilə, ", 211, 212" rəqəmləri "-212" rəqəmləri ilə əvəz edilsin.

2. 193-1.1-ci maddənin sanksiyasında "dörd min manatdan səkkiz min manatadək miqdarda" sözləri "cinayətin predmetinin dəyərinin əlli faizindən yetmiş faizinədək miqdarında" sözləri ilə əvəz edilsin.

3. 199-cu maddə üzrə:

3.1. adı və 199.1-ci maddənin dispozisiyası aşağıdakı redaksiyada verilsin:

**"Maddə 199. Rəqabəti məhdudlaşdırma**

199.1. Rəqabət qanunvericiliyinin pozulması, yəni qanunla yol verilən hallar istisna olmaqla rəqabəti məhdudlaşdıran üfüqi və şaquli sazişlərin bağlanması, bu cür uyğunlaşdırılmış hərəkətlərin edilməsi və ya hökmran mövqedən sui-istifadə etmə, bu əməllər xeyli miqdarda ziyan vurmaqla və ya xeyli miqdarda gəlir əldə etməklə törədildikdə -";

3.2. 199.2.4-cü maddədə hər iki halda "xeyli" sözü "külli" sözü ilə əvəz edilsin;

3.3. 199.3.3-cü maddəyə hər iki halda "külli" sözündən əvvəl "xüsusilə" sözü əlavə edilsin;

3.4. "Qeyd" hissəsinin 1-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"1. Bu Məcəllənin 199.1-ci maddəsində "xeyli miqdar" dedikdə iki yüz min manatdan yuxarı, lakin beş yüz min manatdan artıq olmayan məbləğ, 199.2.4-cü maddəsində "külli miqdar" dedikdə beş yüz min manatdan yuxarı, lakin bir milyon manatdan artıq olmayan məbləğ, 199.3.3-cü maddəsində isə "xüsusilə külli miqdar" dedikdə bir milyon manatdan yuxarı olan məbləğ başa düşülür.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31oktyabr 2025-ci il*

# "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 31 oktyabr tarixli 283-VIIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 31 oktyabr tarixli 283-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610 (Cild I); 2024, № 1, maddələr 24, 33, № 4, maddə 387, № 8, maddə 945; 2025, № 4 (I kitab), maddə 340, № 6, maddə 561, № 7, maddə 633) 4-cü hissəsində "İnhisarçılıq hərəkətləri və rəqabəti" sözləri "Rəqabəti" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 31 oktyabr tarixli 283-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 noyabr 2025-ci il*

# "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 7, maddə 599 (Cild I); 2024, № 8, maddə 932) aşağıdakı dəyişikliklər edilsin:

1. 6.3-cü və 6.5-ci maddələr aşağıdakı redaksiyada verilsin:

"6.3. Ümumi istifadədə olan sərnişin avtomobil nəqliyyatına, habelə müntəzəm sərnişin daşımalarını yerinə yetirən avtomobil nəqliyyatı üçün dayanacaq məntəqələrinə dair ümumi tələblər avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması qaydaları ilə müəyyən olunur. Müntəzəm sərnişin daşımalarını yerinə yetirən avtomobil nəqliyyatı üçün dayanacaq məntəqələri yerlərinin müəyyən edilməsi, onların quraşdırılması, idarə edilməsi və saxlanılması müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təmin edilir.";

"6.5. Avtomobil nəqliyyatının infrastruktur obyektlərinin (dayanacaq məntəqələri istisna olmaqla) yerləşdirilməsi, yaxud təyinatı avtomobil nəqliyyatının digər infrastruktur obyektinə dəyişdirilməklə yenidən qurulması sərnişin və yük axınının həcminə, həmçinin nəqliyyat xidmətləri istehlakçılarının tələbatına uyğun olaraq, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəyi nəzərə alınmaqla Azərbaycan Respublikasının şəhərsalma və tikinti qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada həyata keçirilir.".

2. 21-1.3.2-ci maddədə "dayanacaqlarda" sözü "dayanacaq məntəqələrində" sözləri ilə əvəz edilsin.

3. 40.6-cı maddəyə "qaiməsi" sözündən sonra "və ya elektron əmtəə-nəqliyyat qaiməsi" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 oktyabr 2025-ci il*

# "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 31 oktyabr tarixli 280-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 31 oktyabr tarixli 280-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 6.3-cü maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 6.3-cü maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Şuşa şəhərinin ərazisində Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 31 oktyabr tarixli 280-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 4 iyul tarixli 792 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 7, maddə 610 (Cild I); 2024, № 8, maddə 947) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənddə ", 6.5-ci maddələrində" sözləri "maddələrində, 6.3-cü maddəsinin ikinci cümləsində, 6.5-ci maddəsində" sözləri ilə əvəz edilsin;

3.2. 2.2-1-ci bəndə "Qanunun" sözündən sonra "6.3-cü maddəsinin ikinci cümləsində və" sözləri, "dedikdə" sözündən sonra "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində" sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 542 (Cild I); 2024, № 4, maddə 379, № 5 (I kitab), maddə 529; 2025, № 5, maddə 459, № 8, maddə 763) ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3.9.1-ci yarımbəndə "ərazidə" sözündən sonra "müntəzəm sərnişindaşımalarını yerinə yetirən avtomobil nəqliyyatı üçün dayanacaq məntəqələri istisna olmaqla," sözləri əlavə edilsin;

4.2. 4.9.2-ci yarımbənddən ", həmçinin sərnişin nəqliyyatı vasitələri üçün dayanacaqların yerləşdirilməsi sxemlərini təsdiq etmək və nəzarəti həyata keçirmək" sözləri çıxarılsın.

5. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 sentyabr tarixli 1842 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1031 (Cild I); 2024, № 8, maddə 948, № 11, maddə 1199;2025, № 3, maddə 227, № 9, maddə 820; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 14 noyabr tarixli 526 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin Nizamnaməsi"nin 3.1.22-ci və 3.1.25-1-ci yarımbəndləri aşağıdakı redaksiyada verilsin:

"3.1.22. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikası Qanununun 6.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla, dayanacaq məntəqələri istisna olmaqla, avtomobil nəqliyyatının infrastruktur obyektlərinin (Şuşa şəhərinin ərazisi istisna olmaqla) yerləşdirilməsinə, yaxud təyinatı avtomobil nəqliyyatının digər infrastruktur obyektinə dəyişdirilməklə yenidən qurulmasına dair rəy vermək;";

"3.1.25-1. Şuşa şəhərinin ərazisi istisna olmaqla, müntəzəm sərnişindaşımalarını yerinə yetirən avtomobil nəqliyyatı üçün dayanacaq məntəqələri yerlərinin müəyyən edilməsini, onların quraşdırılmasını, idarə olunmasını və saxlanılmasını təmin etmək;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 28 noyabr 2025-ci il*

# Baş nazir Əli Əsədov İordaniyanın sənaye, ticarət və təchizat naziri ilə görüşüb

**Azərbaycanın Baş naziri Əli Əsədov noyabrın 28-də İordaniya Haşimilər Krallığının sənaye, ticarət və təchizat naziri, iki ölkə arasında Ticarət, İqtisadi və Texniki Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın həmsədri Yarub Qudah ilə görüşüb.**



Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan-İordaniya dövlətlərarası münasibətlərinin dostluq və əməkdaşlıq prinsipləri əsasında inkişaf etdiyi vurğulanıb.

Azərbaycan Prezidenti İlham Əliyev və İordaniyanın Kralı II Abdullah ibn Al Hüseyn arasında yaranmış səmimi münasibətlərin bu inkişafı şərtləndirən əsas amil olduğu bildirilib.

Görüşdə iki ölkə arasında müxtəlif istiqamətlərdə, o cümlədən ticarət-iqtisadi, investisiya, humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın daha da genişləndirilməsi perspektivləri müzakirə olunub.

Görüşdə maliyyə naziri Sahil Babayev iştirak edib.

# Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının Katibliyinin məlumatı

Noyabrın 28-də Azərbaycan Respublikasının Qəbələ şəhərində Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi ilə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın 12-ci görüşü keçirilib.



Məmnunluqla qeyd olunub ki, komissiyaların 12-ci görüşü tərəflərdən birinin ərazisində - Azərbaycanın Qəbələ şəhərində keçirilir.

Görüş zamanı tərəflər 2025-ci il yanvarın 16-da keçirilmiş 11-ci görüşün yekunları üzrə əldə olunmuş, delimitasiyası üzrə kompleks işlərin dövlət sərhədinin şimal sahəsindən başlayaraq Azərbaycan Respublikasının, Ermənistan Respublikasının və Gürcüstanın sərhədlərinin qovuşma nöqtəsi ərazisindən cənub istiqamətində, şimaldan cənuba, Azərbaycan Respublikasının və Ermənistan Respublikasının İran İslam Respublikası ilə sərhədinə qədər başlanması barədə razılaşmanı qeyd ediblər.

Tərəflər delimitasiya tədbirləri ilə bağlı təşkilati və texniki məsələlər üzrə ətraflı fikir mübadiləsi aparıblar.

Həmçinin delimitasiya işlərinin həyata keçirilməsi qaydasına dair müvafiq təlimat layihələri müzakirə olunub. Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryan qarşılıqlı maraq doğuran məsələlər üzrə ayrıca fikir mübadiləsi aparıblar.

Tərəflər növbəti görüşün tarixini iş qaydasında, Ermənistan Respublikasının şəhərlərindən birində müəyyən etmək barədə razılığa gəliblər.

# Ceyhun Bayramov Tailandın Kral Prajadhipok İnstitutunun baş katibi ilə əməkdaşlıq perspektivlərini müzakirə edib

Noyabrın 28-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Tailand Parlamentinin nəzdində fəaliyyət göstərən Kral Prajadhipok İnstitutunun baş katibi İssara Sereevatthanavut ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan ilə Tailand arasında dostluq və əməkdaşlıq münasibətlərinin genişləndirilməsi, o cümlədən parlament diplomatiyası, beyin mərkəzləri arasında əlaqələr və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Ceyhun Bayramov Azərbaycanın beynəlxalq platformalarda fəal roluna diqqət çəkərək ölkəmizin Qoşulmama Hərəkatına, COP29-a və Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə (CICA) sədrliyi, irəli sürülən təşəbbüslərin qlobal əməkdaşlığa verdiyi töhfə barədə məlumat verib. Növbəti il ölkəmizdə keçiriləcək Ümumdünya Şəhərsalma Forumu (WUF13), BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyası (UNESCAP) və CICA samitləri barədə məlumat verərək bu tədbirlərin regiondaxili və beynəlxalq dialoqa əlavə dəyər qatacağını bildirib.

Görüşdə həmçinin Kral İnstitutunun Azərbaycan beyin mərkəzləri ilə təmasları və bu çərçivədə aparılan əməkdaşlıq perspektivləri, eləcə də iki ölkə arasında Xarici İşlər nazirlikləri arasında qarşıdan gələn məsləhətləşmələrin təşkili məsələləri müzakirə olunub.

Tərəflər Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi və Gənclər Təşkilatının fəaliyyəti, həmçinin Azərbaycan Milli Məclisinin ASEAN Parlamentlərarası Assambleyasında müşahidəçi statusu çərçivəsində qarşılıqlı parlament əməkdaşlığının genişlənməsinin əhəmiyyətini qeyd ediblər.

Eyni zamanda Azərbaycan tərəfindən həyata keçirilən təqaüd proqramları, təhsil mübadiləsi imkanları, turizm sahəsində əməkdaşlıq və qarşılıqlı yüksəksəviyyəli səfərlərin təşkili məsələləri görüşün diqqət mərkəzində olub.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və çoxtərəfli məsələlər nəzərdən keçirilib.

# MSK-nın nümayəndə heyəti Qırğız Respublikasında parlament seçkilərini müşahidə edəcək

**Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahovun rəhbərlik etdiyi nümayəndə heyəti Qırğız Respublikasına səfər edib.**



AZƏRTAC xəbər verir ki, Qırğız Mərkəzi Seçki Komissiyasının sədri Tınçtık Şaynazarovun dəvətinə əsasən reallaşdırılan səfərin başlıca məqsədi noyabrın 30-da bu ölkədə keçiriləcək növbədənkənar parlament seçkilərini beynəlxalq müşahidəçi qismində izləməkdir. MSK təmsilçilərinin səsvermə gününədək növbədənkənar parlament seçkilərinə ümumi hazırlıq prosesləri ilə tanış olacağı və habelə seçki günü paytaxtdakı məntəqələrdə səsvermə prosedurlarının müşahidəsi nəzərdə tutulur.

MSK nümayəndə heyəti noyabrın 28-də Bişkekdə keçiriləcək Türk Dövlətləri Təşkilatına üzv ölkələrin ali seçki qurumlarının Məşvərət Platformasının ikinci iclasında da iştirak edəcək. Tədbirdə seçki idarəçiliyi sahəsində institusional əməkdaşlığın inkişafı və əlaqələrin daha da genişləndirilməsi imkanları müzakirə olunacaq.

Səfər çərçivəsində MSK sədrinin qırğız həmkarı ilə yanaşı, Türk Dövlətləri Təşkilatına üzv olan ölkələrin seçki idarəetmə orqanlarının və seçkilərin müşahidəsinə qatılan beynəlxalq təşkilatların rəhbərləri, eləcə də digər rəsmi şəxslərlə görüşlər keçirməsi, qurumlararası əlaqələrin daha da dərinləşdirilməsi perspektivləri, seçkilərlə bağlı müxtəlif sahələrdə yeni əməkdaşlıq imkanları və qarşılıqlı maraq doğuran məsələlər ətrafında müzakirələrin aparılması da nəzərdə tutulur.

Qeyd etmək lazımdır ki, MSK-nın nümayəndələri Qırğız Respublikasında növbədənkənar parlament seçkilərində Türk Dövlətləri Parlament Assambleyası, Türk Dövlətləri Təşkilatı, ATƏT/DTİHB və Müstəqil Dövlətlər Birliyinin beynəlxalq müşahidə missiyalarının tərkibində də təmsil olunurlar.

## "Minatəmizləyənlərə standart əməliyyat prosedurlarına dair təlimlərin keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 346** **Bakı şəhəri, 27 noyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Minatəmizləmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2024-cü il 13 dekabr tarixli 90-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 3 fevral tarixli 316 nömrəli Fərmanının 2.4.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Minatəmizləyənlərə standart əməliyyat prosedurlarına dair təlimlərin keçirilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## "Uyğunluğun qiymətləndirilməsi sxemlərinin (modullarının) ümumi siyahısı və həmin sxemlərin (modulların) ətraflı müddəalarını ehtiva edən uyğunluğun qiymətləndirilməsi prosedurları"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 349** **Bakı şəhəri, 27 noyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2019-cu il 30 sentyabr tarixli 1669-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 noyabr tarixli 863 nömrəli Fərmanının 2.3-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Uyğunluğun qiymətləndirilməsi sxemlərinin (modullarının) ümumi siyahısı və həmin sxemlərin (modulların) ətraflı müddəalarını ehtiva edən uyğunluğun qiymətləndirilməsi prosedurları" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 17 iyul tarixli 217 nömrəli Qərarı ilə təsdiq edilmiş "Uyğunluq sertifikatının və uyğunluq bəyannaməsinin forması, hazırlanması və təqdim edilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 348** **Bakı şəhəri, 27 noyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin 8-ci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 17 iyul tarixli 217 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, №7, maddə 879 (Cild I); 2024, № 5 (II kitab), maddə 611) ilə təsdiq edilmiş "Uyğunluq sertifikatının və uyğunluq bəyannaməsinin forması, hazırlanması və təqdim edilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci hissə üzrə:

1.1. 1.2.12-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"1.2.12. **seriyalı istehsal olunan mallar** - vahid texnoloji prosesdən istifadə etməklə eyni sənədlərə uyğun istehsal olunan və mal vahidlərinin və ya vaxtaşırı təkrarlanan mal partiyalarının ardıcıl seriyası şəklində dövriyyəyə buraxılan mallar;";

1.2. aşağıdakı məzmunda 1.2.12-1-ci yarımbənd əlavə edilsin:

"1.2.12-1. **malı müşayiət edən sənədlər** - malın nomenklaturasını və miqdarını müəyyən edən sənədlər;";

1.3. 1.6-cı bənddə "və ya seriyasına" sözləri ", mal vahidinə və ya seriyalı istehsal olunan mallara" sözləri ilə əvəz edilsin.

2. 2-ci hissə üzrə:

2.1. aşağıdakı məzmunda 2.3.3-1-ci yarımbənd əlavə edilsin:

"2.3.3-1. sertifikatın qüvvədəolma müddəti (olduqda);";

2.2. 2.4-cü bənddə "partiya və ya seriya nömrəsi" sözləri "partiya nömrəsi və ya seriyalı istehsal olduğu" sözləri ilə əvəz edilsin və "miqdarı" sözündən sonra "(mal partiyası üçün), sertifikatın tərtib edilməsi üçün əsas" sözləri əlavə edilsin;

2.3. aşağıdakı məzmunda 2.6-1-ci bənd əlavə edilsin:

"2.6-1. Ərizədə ərizəçi tərəfindən seçilən uyğunluğun qiymətləndirilməsi sxemi (modulu) göstərilməlidir.";

2.4. 2.7.8-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.7.9-2.7.13-cü yarımbəndlər əlavə edilsin:

"2.7.9. idarəetmə sisteminin uyğunluq sertifikatının surəti (olduqda);

2.7.10. texniki sənədlərin (konstruktor, texnoloji, layihə) surəti;

2.7.11. mal vahidinin və ya mal partiyasının eyniləşdirmə xüsusiyyətlərini, tərkibini və ölçüsünü, partiyaya daxil olan mal vahidlərinin sayını təsdiq edən, habelə malı müşayiət edən sənədlərin surəti (olduqda);

2.7.12. texniki həllərin siyahısı (olduqda);

2.7.13. malların xammal və materiallarının, komplektlərinin, tərkib hissələrinin (olduqda) tədqiq (sınaq) və müayinə protokollarının və (və ya) uyğunluq sertifikatlarının və ya uyğunluq bəyannamələrinin surətləri.";

2.5. 2.23-cü, 2.32-ci və 2.33-cü bəndlər ləğv edilsin;

2.6. aşağıdakı məzmunda 2.28-1-ci və 2.28-2-ci bəndlər, 2.34.1-1-2.34.1-3-cü, 2.35.1-1-2.35.1-3-cü yarımbəndlər əlavə edilsin:

"2.28-1. Texniki reqlamentdə başqa hal nəzərdə tutulmayıbsa, uyğunluq sertifikatı seriyalı istehsal olunan mallara 5 (beş) ildən çox olmayan müddətə verilir, mal partiya və ya mal vahidi üçün müddət müəyyən edilmir.

2.28-2. İdarəetmə sisteminin uyğunluq sertifikatının müddəti malın uyğunluq sertifikatının müddətindən əvvəl bitdikdə, təsərrüfat subyekti malın uyğunluq sertifikatının qüvvədə olduğu müddət üçün idarəetmə sisteminin uyğunluq sertifikatının qüvvədə olmasını təmin etməlidir.";

"2.34.1-1. sertifikatlaşdırılmış malların dövri qiymətləndirilməsinin nəticələrinə əsasən malda, onunla əlaqəli proseslərdə və istehsal metodlarında aşkar edilmiş uyğunsuzluqların aradan qaldırılması və müvafiq texniki reqlamentin tələblərinə uyğunluğun təsdiq olunması düzəliş tədbirləri ilə mümkün olduqda və ya ərizəçi sertifikatlaşdırılmış malların dövri qiymətləndirilməsinin aparılmasından imtina etdikdə;

2.34.1-2. malın istismar xüsusiyyətlərində onun sertifikatlaşdırılması zamanı müvafiq texniki reqlamentlərlə müəyyən edilmiş təhlükəsizlik tələblərinə təsir edə biləcək dəyişikliklər nəticəsində həmin tələblərə uyğunsuzluq yarandıqda;

2.34.1-3. ərizəçinin idarəetmə sisteminin qüvvədə olan uyğunluq sertifikatı olmadıqda (uyğunluğun qiymətləndirilməsi prosedurunda nəzərdə tutulmuş hallarda);";

"2.35.1-1. sertifikatlaşdırılmış malların dövri qiymətləndirilməsinin nəticələrinə əsasən malda, onunla əlaqəli proseslərdə və istehsal metodlarında aşkar edilmiş uyğunsuzluqların aradan qaldırılması və müvafiq texniki reqlamentin tələblərinə uyğunluğun təsdiq olunması düzəliş tədbirləri ilə mümkün olmadıqda;

2.35.1-2. malın istismar xüsusiyyətlərində onun sertifikatlaşdırılması zamanı müvafiq texniki reqlamentlərlə müəyyən edilmiş təhlükəsizlik tələblərinə təsir edə biləcək dəyişikliklər nəticəsində həmin tələblərə uyğunsuzluq yarandıqda və ərizəçi uyğunsuzluqların aradan qaldırılması məqsədilə malın sertifikatlaşdırılmasını aparan qurum ilə razılaşdırılmış müddət ərzində düzəliş tədbirləri həyata keçirmədikdə və ya malın sertifikatlaşdırılmasını aparan quruma göstərilən dəyişikliklər barədə məlumat vermədikdə;

2.35.1-3. bu Qaydaların 2.34.1-3-cü yarımbəndinə uyğun olaraq ərizəçi malın sertifikatlaşdırılmasını aparan qurum ilə razılaşdırılmış müddət ərzində idarəetmə sisteminin uyğunluq sertifikatının qüvvədə olmasını təmin etmədikdə;";

2.7. 2.39-cu bəndə "2.34.2-ci" sözlərindən əvvəl "2.34.1-1-2.34.1-3-cü," sözləri əlavə edilsin.

3. 3-cü hissə üzrə:

3.1. aşağıdakı məzmunda 3.3.2-1-ci yarımbənd əlavə edilsin:

"3.3.2-1. bəyannamənin qüvvədəolma müddəti (olduqda);";

3.2. 3.8.8-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.8.9-3.8.12-ci yarımbəndlər əlavə edilsin:

"3.8.9. idarəetmə sisteminin uyğunluq sertifikatının surəti (olduqda);

3.8.10. texniki sənədlərin (konstruktor, texnoloji, layihə) surəti;

3.8.11. mal vahidi və ya mal partiyasının eyniləşdirmə xüsusiyyətləri, tərkibi və ölçüsünü (habelə partiyaya daxil olan mal vahidlərinin sayını) təsdiq edən, həmçinin malı müşayiət edən sənədlərin surəti;

3.8.12. texniki həllərin siyahısı (olduqda).";

3.3. aşağıdakı məzmunda 3.20-1-ci və 3.20-2-ci bəndlər əlavə edilsin:

"3.20-1. Texniki reqlamentdə başqa hal nəzərdə tutulmayıbsa, uyğunluq bəyannaməsi seriyalı istehsal olunan mallara 5 (beş) ildən çox olmayan müddətə tərtib olunur, mal partiyası və ya mal vahidi üçün müddət müəyyən edilmir.

3.20-2. İdarəetmə sisteminin uyğunluq sertifikatının müddəti malın uyğunluq bəyannaməsinin müddətindən əvvəl bitdikdə, təsərrüfat subyekti malın uyğunluq bəyannaməsinin qüvvədə olduğu müddət üçün idarəetmə sisteminin uyğunluq sertifikatının qüvvədə olmasını təmin etməlidir.";

3.4. 3.24-3.28-ci bəndlər ləğv edilsin;

3.5. aşağıdakı məzmunda 3.30.1-1-ci yarımbənd əlavə edilsin:

"3.30.1-1. ərizəçinin idarəetmə sisteminin qüvvədə olan uyğunluq sertifikatı olmadıqda (uyğunluğun qiymətləndirilməsi prosedurunda nəzərdə tutulmuş hallarda);";

3.6. 3.32-ci bəndə "3.29.4-cü" sözlərindən sonra ", 3.30.1-1-ci" sözləri əlavə edilsin.

4. "Uyğunluq sertifikatının və uyğunluq bəyannaməsinin forması, hazırlanması və təqdim edilməsi Qaydaları"na 1 nömrəli əlavə aşağıdakı redaksiyada verilsin:

**Malın uyğunluğunun qiymətləndirilməsi barədə uyğunluq sertifikatının forması**

**AZƏRBAYCAN RESPUBLİKASI**
Malın uyğunluğunun qiymətləndirilməsi barədə
**UYĞUNLUQ SERTİFİKATI**
**AZERBAIJAN REPUBLIC**
**CERTIFICATE OF CONFORMITY**
On conformity assesment of goods
Blankın qeydiyyat nömrəsi/Form blank № _________

| | |
|---|---|
| 1. Sertifikatın qeydiyyat nömrəsi və verilmə tarixi / Certificat eregistration number and date of issue | 2. Sertifikatın qüvvədəolma müddəti / Validity period of Certificate |
| 3. Sertifikat verilən hüquqi şəxsin adı, hüquqi ünvanı və VÖEN-i, fiziki şəxsin soyadı, adı, atasının adı, ünvanı və VÖEN-i / Name, legal address and TAX ID of the legal entity, surname, name, patronymic, address and TAX ID of the individual to which the certificate isissued | 4. Sertifikatı verən uyğunluğu qiymətləndirən qurumun adı və hüquqi ünvanı, akkreditasiya attestatının qeydiyyat nömrəsi və verilmə tarixi / Name and legal address of the conformity assessment body issued the certificate, registration number of accreditation certificate and date of issue |
| 5. İstehsalçının adı və ünvanı / Name and address of the manufacturer | 6. Malın adı, növü, markası, modeli / Name, type, brand, model of the goods |
| 7. Malın partiya nömrəsi, mal vahidi və ya seriyalı istehsal / Batch number of goods, unit of good sorserial production | 8. Malın miqdarı (mal partiyası üçün) / Quantity of goods (for batch of goods) |
| 9. Sertifikatın tərtib edilməsi üçün əsas / Basis for issuing Certificate | 10. Malın istehsal tarixi / Manufacturing date of goods |
| 11. XİF MİN / HS CODE | 12. Məhsul növləri üzrə təsnifat kodu / Product classification code |
| 13. Texniki reqlanmentin, istinad edilmiş standartların və ya texniki şərtlərin adı, nömrəsi, tarixi / Name, number, date of technical regulations, referenced standard sor technicals pecifications | 14. İstifadə sahəsi / Intended purpose of use |
| 15. Texniki reqlamentdə nəzərdə tutulduğu hallarda malın saxlanma müddəti və şərtləri / Terms and conditions of storage of goods in casessti pulated by technical regulations | |
| 16. Malın istehlak xüsusiyyətinə və ya keyfiyyətinə dair təsərrüfat subyekti tərəfindən verilən əlavə məlumatlar (olduqda) / Additional information provided by the business entity on the consumer characteristics orquality of the goods (if any) | |
| Bu sertifikat təsdiq edir ki, yuxarıda göstərilən mal partiyası və ya seriyalı istehsal təhlükəsizlik göstəricilərinə görə qüvvədə olan texniki reqlamentlərin tələblərinə uyğundur / This certificate of conformity confirms that the above mentioned batch of goods or serial production complies with the requirements of the technical regulations in force, in terms of safety indicators | |

Uyğunluğu qiymətləndirən qurumun rəhbəri (səlahiyyətli nümayəndəsi)
Head of the accredited conformity assessment body (authorized representative)

________________________________
(soyadı, adı, atasının adı/ surname, name, father`sname)

Uyğunluğu qiymətləndirən səlahiyyətli şəxs
Conformity assessment authorized person

________________________________
(soyadı, adı, atasının adı/ surname, name, father`sname)

**İmza / Signature**
**M.Y. / (olduqda) / Stamp (ifany)**

5. "Uyğunluq sertifikatının və uyğunluq bəyannaməsinin forması, hazırlanması və təqdim edilməsi Qaydaları"na 2 nömrəli əlavə aşağıdakı redaksiyada verilsin:

**Mal ilə əlaqəli prosesin və istehsal metodunun uyğunluğunun qiymətləndirilməsi barədə uyğunluq sertifikatının forması**

**AZƏRBAYCAN RESPUBLİKASI**
Mal ilə əlaqəli prosesin və istehsal metodunun uyğunluğunun qiymətləndirilməsi barədə
**UYĞUNLUQ SERTİFİKATI**
**AZERBAIJAN REPUBLIC**
**CERTIFICATE OF CONFORMITY**
On conformity assesment of goods related process and manufacturing method
Blankın qeydiyyat nömrəsi / Form blank № _________

| | |
|---|---|
| 1. Sertifikatın qeydiyyat nömrəsi və verilmə tarixi / Certificate of conformity registration number and date of issue | 2. Sertifikatın qüvvədəolma müddəti / Validity period of Certificate |
| 3. Sertifikat verilən hüquqi şəxsin adı, hüquqi ünvanı və VÖEN-i, fiziki şəxsin soyadı, adı, atasının adı, ünvanı və VÖEN-i / Name, legal address and TAX ID of the legal entity, surname, name, patronymic, address and TAX ID of the individual to which the certificate is issue | 4. Sertifikatı verən uyğunluğu qiymətləndirən qurumun adı və hüquqi ünvanı, akkreditasiya attestatının qeydiyyat nömrəsi və verilmə tarixi / Name and legal address of the conformity assessment body issued the certificate, registration number of accreditation certificate and date of issue |
| 5. Mal ilə əlaqəli prosesin və istehsal metodunun tətbiq edildiyi fəaliyyət sahəsi / Area of activity in which process related to the product and production method being applied | 6. Sertifikatın tərtib edilməsi üçün əsas / Basis for issuing Certificate |
| 7. Texniki reqlamentlərin, istinad edilmiş standartların və ya texniki şərtlərin adı, nömrəsi, tarixi / Name, number, date of technical regulations, referenced standards or technical specifications | |
| 8. Mal ilə əlaqəli prosesin və istehsal metodunun tətbiq edildiyi istehsal müəssisəsinin ünvanı / Address of manufacturing facility where process related to the product and production method being applied | |
| Bu sertifikat təsdiq edir ki, yuxarıda qeyd olunan mal ilə əlaqəli proses və istehsal metodu texniki reqlamentlərin tələblərinə uyğundur / This certificate of conformity confirms that the above mentioned goods related process and method of manufacturing complies with the requirements of the technical regulations in force | |

Uyğunluğu qiymətləndirən qurumun rəhbəri (səlahiyyətli nümayəndəsi)
Head of the accredited conformity assessment body (authorized representative)
________________________________
(soyadı, adı, atasının adı / surname, name, father`s name)

Uyğunluğu qiymətləndirən səlahiyyətli şəxs
Conformity assessment authorized person
________________________________
(soyadı, adı, atasının adı / surname, name, father`s name)

**İmza / Signature**
**M.Y. (olduqda) / Stamp (ifany)**

6. "Uyğunluq sertifikatının və uyğunluq bəyannaməsinin forması, hazırlanması və təqdim edilməsi Qaydaları"na 3 nömrəli əlavə aşağıdakı redaksiyada verilsin:

**Malın uyğunluğunun qiymətləndirilməsi barədə uyğunluq bəyannaməsinin forması**

**AZƏRBAYCAN RESPUBLİKASI**
Malın uyğunluğunun qiymətləndirilməsi barədə
**UYĞUNLUQ BƏYANNAMƏSİ**
**AZERBAIJAN REPUBLIC**
**DECLARATİON OF CONFORMITY**
On conformity assesment of goods

| | |
|---|---|
| 1. Bəyannamənin qeydiyyat nömrəsi və verilmə tarixi / Declaration of conformity registration number and date of issue | 2. Bəyannamənin qüvvədəolma müddəti / Validity period of Declaration |
| 3. Bəyannaməni tərtib edən hüquqi şəxsin adı, hüquqi ünvanı və VÖEN-i, fiziki şəxsin soyadı, adı, atasının adı, ünvanı və VÖEN-i / Name, legal address and TAX ID of the legal entity, surname, name, patronymic, address and TAX ID of the individual to which the certificate is issued | 4. Orta riskli mallara münasibətdə uyğunluğun təsdiqlənməsi məqsədilə cəlb edilmiş uyğunluğu qiymətləndirən qurumun adı və hüquqi ünvanı, akkreditasiya attestatının qeydiyyat nömrəsi və verilmə tarixi / Name and legal address of the conformity assessment body involved in order to confirm conformity of medium risk goods, registration number of accreditation certificate and date of issue |
| 5. İstehsalçının adı və ünvanı / Name and address of the manufacturer | 6. Malın adı, növü, markası, modeli / Name, type, brand, model of the goods |
| 7. Malın partiya nömrəsi, mal vahidi və ya seriyalı istehsal / Batch number of goods, unit of goods or serial production | 8. Malın miqdarı (mal partiyası üçün) / Quantity of goods (for batch of goods) |
| 9. Orta riskli mallara münasibətdə uyğunluğu qiymətləndirən qurum tərəfindən verilən təsdiqedici sənəd haqqında məlumat (sənədin nömrəsi, verilmə tarixi, verən qurum haqqında məlumatlar göstərilməklə) / Information about the confirmation document issued by the conformity assessment body for medium risk goods (indicating the document number, date of issue, information about the issuing body) | 10. Malın istehsal tarixi / Manufacturing date of goods |
| 11. XİF MİN / HS CODE | 12. Məhsul növləri üzrə təsnifat kodu / Product classification code |
| 13. Texniki reqlanmentin, istinad edilmiş standartların və ya texniki şərtlərin adı, nömrəsi, tarixi / Name, number, date of technical regulations, referenced standards or technical specifications | 14. İstifadə sahəsi / Intended purpose of use |
| 15. Texniki reqlamentdə nəzərdə tutulduğu hallarda malın saxlanma müddəti və şərtləri / Terms and conditions of storage of goods in cases stipulated by technical regulations | |
| 16. Malın istehlak xüsusiyyətinə və ya keyfiyyətinə dair təsərrüfat subyekti tərəfindən verilən əlavə məlumatlar (olduqda) / Additional information provided by the business entity on the consumer characteristics or quality of the goods (if any) | |
| Bu bəyannamə təsdiq edir ki, yuxarıda göstərilən mal partiyası və ya seriyalı istehsal təhlükəsizlik göstəricilərinə görə qüvvədə olan texniki reqlamentlərin tələblərinə uyğundur / This declaration of conformity confirms that the above mentioned batch of goods or serial production complies with the requirements of the technical regulations in force, in terms of safety indicators | |

Təsərrüfat subyektinin rəhbəri
(səlahiyyətli nümayəndəsi)

Head of the business operator
(authorized representative)

________________________________
(soyadı, adı, atasının adı / surname, name, father`s name)

Məsul şəxs
Responsible person

________________________________
(soyadı, adı, atasının adı / surname, name, father`s name)

**İmza / Signature**
**M.Y. (olduqda) / Stamp (ifany)**

7. "Uyğunluq sertifikatının və uyğunluq bəyannaməsinin forması, hazırlanması və təqdim edilməsi Qaydaları"na 4 nömrəli əlavə aşağıdakı redaksiyada verilsin:

**Mal ilə əlaqəli prosesin və istehsal metodunun uyğunluğunun qiymətləndirilməsi barədə uyğunluq bəyannaməsinin forması**

**AZƏRBAYCAN RESPUBLİKASI**
Mal ilə əlaqəli prosesin və istehsal metodunun uyğunluğunun qiymətləndirilməsi barədə
**UYĞUNLUQ BƏYANNAMƏSİ**
**AZERBAIJAN REPUBLIC**
**DECLARATION OF CONFORMITY**
On conformity assesment of goods related process and manufacturing method
Blankın qeydiyyat nömrəsi / Form blank № _________

| | |
|---|---|
| 1. Bəyannamənin qeydiyyat nömrəsi və verilmə tarixi / Declaration of conformity registration number and date of issue | 2. Bəyannamənin qüvvədəolma müddəti / Validity period of Declaration |
| 3. Bəyannaməni tərtib edən hüquqi şəxsin adı, hüquqi ünvanı və VÖEN-i, fiziki şəxsin soyadı, adı, atasının adı, ünvanı və VÖEN-i / Name, legal address and TAX ID of the legal entity, surname, name, patronymic, address and TAX ID of the individual to which the certificate is issued | 4. Mal ilə əlaqəli prosesin və istehsal metodlarının tətbiq edildiyi istehsal müəssisəsinin ünvanı / Address of manufacturing facility where process related to the product and production method being applied |
| 5. Texniki reqlamentlərin, istinad edilmiş standartların və ya texniki şərtlərin adı, nömrəsi, tarixi / Name, number, date of technical regulations, referenced standards or technical specifications | 6. Mal ilə əlaqəli prosesin və istehsal metodunun tətbiq edildiyi fəaliyyət sahəsi / Area of activity in which process related to the product and production methods being applied |
| 7. Orta riskli mallara münasibətdə uyğunluğu qiymətləndirən qurum tərəfindən verilən təsdiqedici sənəd haqqında məlumat (sənədin nömrəsi, verilmə tarixi, verən qurum haqqında məlumatlar göstərilməklə) / Information about the confirmation document issued by the conformity assessment body for medium risk goods (indicating the document number, date of issue, information about the issuing body) | |
| Bu bəyannamə təsdiq edir ki, yuxarıda göstərilən mal ilə əlaqəli proses və istehsal metodu texniki reqlamentlərin tələblərinə uyğundur / This declaration of conformity confirms that the above mentioned goods related process and method of manufacturing complies with the requirements of the technical regulations in force | |

Təsərrüfat subyektinin rəhbəri
(səlahiyyətli nümayəndəsi)
Head of the business operator
(authorized representative)

________________________________
(soyadı, adı, atasının adı/ surname, name, father`sname)

Məsul şəxs
Responsible person

________________________________
(soyadı, adı, atasının adı/ surname, name, father`sname)

**İmza / Signature**
**M.Y. (olduqda) / Stamp (ifany)**

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Gələcəyin Peşələri Sammiti: Bakı-2025" tədbiri keçirilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin təşkilatçılığı ilə keçirilən "Gələcəyin Peşələri Sammiti: Bakı-2025" bu dəfə paytaxtda baş tutub.**





AZƏRTAC xəbər verir ki, "Gələcəyə tərəf" devizi ilə keçirilmiş sammit əmək bazarında baş verən dəyişiklikləri, yeni peşə və bacarıqlarla bağlı tələbləri peşəkar mühitdə müzakirə etmək, təhsil və məşğulluq sahələrində yeni çağırışlarla bağlı bu ekosistem iştirakçılarının gələcək əmək bazarına hazırlığına dəstək məqsədi daşıyıb.

Sammitdə dövlət və özəl sektordan rəhbər şəxslər, yerli və xarici karyera məsləhətçiləri, insan resursları üzrə mütəxəssislər, təhsil ekspertləri, inkişaf mentorları iştirak ediblər.

Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev açılış nitqində sammitin əmək bazarında yeni peşə və bacarıqlara dair tələblərin peşəkar müzakirəsi baxımından xüsusi əhəmiyyətini, əmək bazarındakı sürətli dəyişikliklərə çevik adaptasiya imkanlarının qiymətləndirilməsinin prioritet istiqamətlərindən olduğunu qeyd edib. Nazir bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin mərkəzində insan kapitalının inkişafı dayanır. Bu isə bir daha sübut edir ki, Azərbaycan artıq insan kapitalı əsaslı iqtisadi inkişaf modelini dövlət strategiyasının prioritet istiqaməti kimi müəyyən edib.

Anar Əliyev süni intellektin sürətli inkişafının, rəqəmsallaşmanın genişlənməsinin dünya əmək bazarının strukturunu köklü şəkildə yenidən formalaşdırmaqda olduğunu deyib. O qeyd edib ki, Dünya İqtisadi Forumunun 2025-ci ildə dərc olunan "İşlərin Gələcəyi Hesabatı"na əsasən 2030-cu ilə qədər bugünkü iş yerlərinin 22 faizinin struktur dəyişikliklərinə məruz qalacağı gözlənilir. Bu reallıq fonunda regionlararası əməkdaşlığın gücləndirilməsi, beynəlxalq təcrübənin öyrənilməsi, qlobal əmək bazarına daha çevik inteqrasiya vacibdir.

Nazir 2018-ci ildən əmək müqavilələrinin sayının 44 faiz artaraq 1,9 milyona çatdığını, son illər sosial ödənişlərdəki artımları diqqətə çatdırıb. Bildirib ki, alıcılıq qabiliyyəti pariteti üzrə ölkəmiz MDB ölkələri ilə müqayisədə minimum pensiyada birinci, minimum əməkhaqqı və orta aylıq pensiya üzrə isə ikinci yerdə qərarlaşıb.

Anar Əliyev 2022-ci ildən keçirilən "Peşələr Festivalı"nın minlərlə yeniyetmə və gəncin düzgün peşə seçimi barədə məlumatlılığının artırılması və əmək bazarına hazırlıqlı daxil olmalarına dəstək olduğunu bildirib. O, hazırkı sammitin dövlət qurumları, özəl sektor və təhsil müəssisələri arasında əmək bazarının cari vəziyyəti və gələcək dəyişikliklərə uyğunlaşması, peşə hazırlığı sahəsində əməkdaşlığın gücləndirilməsində əhəmiyyətini qeyd edib.

Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov yeni texnologiyaların və xüsusilə də süni intellektin təsiri altında yaranan yeni peşə bacarıqlarının mənimsənilməsi üçün gənc nəslin təşviq olunmasının vacibliyini vurğulayıb və bu istiqamətdə Gələcəyin Peşələri Sammiti kimi platformalara hər zaman ehtiyac olduğunu bildirib.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov kadr potensialının gücləndirilməsinin gələcəyin rəqabətqabiliyyətli biznesləri üçün əsas şərtlərdən olduğunu vurğulayıb. O, əmək bazarının yeni çağırışları, peşə bacarıqlarının inkişafı, KOB-ların təlim ehtiyacları və KOBİA-nın bu istiqamətdə fəaliyyəti barədə fikirlərini bölüşüb.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev texnologiya və innovasiyaların iş dünyasına təsirlərinin əmək bazarında dəyişiklikləri şərtləndirdiyini və işçi qüvvəsinin bacarıqlarına münasibətdə yeni tələbləri müəyyən etdiyini deyib. Bu barədə tərəfdaşlar arasında fəal müzakirələrin, gənclərin məlumatlandırılması işlərinin aparılmasının önəmini vurğulayıb.

Gələcəyin Peşələri Sammiti işəgötürənlər, dövlət qurumları, təhsil müəssisələri və peşəkarlar arasında sağlam fikir mübadiləsi üçün vahid platforma kimi nəzərdə tutulub. Sammitin hədəfləri gələcəyin peşə və bacarıqlarının müəyyənləşdirilməsi və tanıdılması, iş dünyasının yeni tendensiyalarının paylaşılması, hədəf qrup olan peşəkarların daha çevik, innovativ, rəqabətədavamlı karyera həlləri ilə təminatına şərait yaradılmasıdır.

Tədbir çərçivəsində "Peşələrin gələcəyi bizdən nə tələb edir?", "Gələcəyin bacarıqları" və "Gələcəyin iş mühiti" adlı üç panel müzakirəsi təşkil olunub. Panellərdə yeni nəsil peşələr, gələcəyə hazır olmaq üçün dəyişikliklərin idarə edilməsi, davamlı öyrənmə və inkişaf, yeni nəsil texniki və yumşaq bacarıqlar, peşəkar inkişafda fərdi dəstək mexanizmləri, iş dünyasında rəqəmsal kooperasiya strategiyaları və s. mövzular müzakirə edilib, suallar cavablandırılıb.

Qeyd edək ki, Gələcəyin Peşələri Sammiti çərçivəsində ilk tədbir bu ilin oktyabr ayının 30-da Naxçıvan şəhərində keçirilib.

# Milli Məclisdə görüş

**Milli Məclis Sədrinin müavini Musa Qasımlı və parlamentin Tailandla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Göydəniz Qəhrəmanov noyabrın 28-də Tailand Krallığı parlamentinin nəzdində fəaliyyət göstərən Kral Prajadhipok İnstitutunun baş katibi İssara Sereevatthanavut ilə görüşüblər.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, vitse-spiker Musa Qasımlı iki dövlət arasında münasibətlərin hazırkı vəziyyətindən söz açıb, əməkdaşlığın inkişafında yüksəksəviyyəli səfərlərin mühüm rol oynadığını vurğulayıb. Qeyd olunub ki, Azərbaycan və Tailand Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlar çərçivəsində də səmərəli əməkdaşlıq edir. Eyni zamanda parlamentlərimiz həm ikitərəfli, həm də çoxtərəfli formatlarda qarşılıqlı olaraq səmərəli iş aparırlar.

Musa Qasımlı regiondakı mövcud vəziyyət barədə məlumat verərək qeyd edib ki, uzun illər Ermənistanla davam edən münaqişənin aradan qaldırılması bölgədə yeni reallıqlar yaradıb. Sədr müavini Azərbaycanda yaradılan investisiya şəraitindən danışaraq Tailandın bu imkanlardan yararlanmasının ümumi mənafelərə uyğun olacağını vurğulayıb. Vitse-spiker dövlətlərimiz və xalqlarımız arasında əlaqələrin müxtəlif istiqamətlərdə inkişaf etdirilməsi, o cümlədən biznes və investisiya sahəsində birgə layihələrin həyata keçirilməsi ilə bağlı fikirlərini bölüşüb.

Kral Prajadhipok İnstitutunun baş katibi İssara Sereevatthanavut səmimi qəbula görə təşəkkür edib və Azərbaycanla Tailand arasında qarşılıqlı əlaqələrin genişləndirilməsi potensialından danışıb, müxtəlif sahələrdə təmasların intensivləşdirilməsinin vacibliyini bildirib.

Söhbətdə iki ölkə arasında iqtisadi əlaqələrin genişləndirilməsi, ticarət dövriyyəsinin artırılması, turizm, təhsil, innovasiya, sənaye və digər sahələrdə yeni təşəbbüslərin irəli sürülməsi imkanları müzakirə olunub, parlamentlərarası əlaqələrin inkişafı, qarşılıqlı təcrübə mübadiləsi və digər istiqamətlərdə əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Gələn il əhalinin sosial müdafiəsi üçün kifayət qədər vəsait ayrılacaq

**Noyabrın 28-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin videokonfrans formatında iclası keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, komitənin sədri Musa Quliyev iclasda 2026-cı ilin büdcə zərfinə daxil olan 5 məsələnin - "Dövlət sosial müdafiə fondunun 2026-cı il büdcəsi haqqında", "İşsizlikdən sığorta fondunun 2026-cı il büdcəsi haqqında", "Azərbaycan Respublikasında 2026-cı il üçün yaşayış minimumu haqqında", "Azərbaycan Respublikasında 2026-cı il üçün ehtiyac meyarının həddi haqqında", habelə Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Sosial sığorta haqqında", "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında", "Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında", "Tibbi sığorta haqqında", "Dövlət rüsumu haqqında", "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərində və konsulluqlarında xidmət keçən diplomatik xidmət orqanı əməkdaşlarının dövlət icbari şəxsi sığortası haqqında", "Hemofiliya və talassemiya irsi qan xəstəliklərinə düçar olmuş şəxslərə dövlət qayğısı haqqında", "Sığorta fəaliyyəti haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Gömrük tarifi haqqında", "Nağdsız hesablaşmalar haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrinin ikinci oxunuşda müzakirəyə çıxarıldığını deyib və həmin sənədləri təqdim edib.

Komitə sədri 2026-cı ilin dövlət büdcəsinin sosialyönümlü olduğunu, büdcə zərfinə daxil olan Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən Sığorta Fondunun büdcələrinin pozitiv formalaşdığını və hər iki büdcədə artımların nəzərdə tutulduğunu deyib.

O, DSMF-nin gəlirlərində 9,3 faiz, xərclərində isə 10,5 faiz artımın proqnozlaşdırıldığını qeyd edib. Fondun gələn ilə proqnozlaşdırılan ümumi xərclərinin 96,6 faizinin əhaliyə ödənişlərin təşkil edəcəyini, əmək pensiyalarının orta məbləğinin 590 manata, yaşa görə pensiyanın orta aylıq məbləğinin 629 manata çatdırılacağını bildirib.

Musa Quliyev İşsizlikdən Sığorta Fondunun 2026-cı il üçün gəlir və xərclərinin 266,4 milyon manat nəzərdə tutulduğunu diqqətə çatdırıb. Fondun xərclərinin 13 istiqaməti əhatə edəcəyini deyib. Bunların arasında 3 mühüm istiqamət - işsizliyə görə sığorta ödənişləri, özünüməşğulluq tədbirlərinin həyata keçirilməsinin maliyyələşdirilməsi, peşə hazırlığı və peşəyönümlü tədbirlərin keçirilməsi üçün müvafiq vəsaitin yönələcəyini söyləyib.

Komitə sədri, növbəti il üçün yaşayış minimumunun ölkə üzrə 300 manat, əmək qabiliyyətli əhali üçün 317 manat, pensiyaçılar üçün 245 manat, uşaqlar üçün 260 manat məbləğində, ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə gələn il üçün ehtiyac meyarının həddinin 300 manat məbləğində müəyyən edildiyini deyib.

Gündəliyin sonuncu məsələsini təqdim edən Musa Quliyev qanun layihəsində komitəyə aid olan "Sosial sığorta haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunlara təklif olunan dəyişikliklərdən söhbət açıb. O bu dəyişikliklərin vergi və sosial sığorta təminatında güzəştli diferensial yanaşmanın tətbiqi ilə bağlı olduğunu bildirib.

İclasda əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev çıxış edərək gündəlikdəki məsələlər barədə fikirlərini açıqlayıb. O, Dövlət Sosial Müdafiə Fondunun gəlirlərinin 8 milyard 322 milyon manat, xərclərinin 8 milyard 483 milyon manat proqnozlaşdırıldığını, İşsizlikdən Sığorta Fondunun gəlirlərinin 238,3 milyon manat, xərclərinin 266,4 milyon manat nəzərdə tutulduğunu söyləyib. Əhalinin sosial müdafiəsinin təmin edilməsi, aktiv məşğulluq tədbirlərinin həyata keçirilməsi üçün kifayət qədər vəsaitin ayrıldığını bildirib.

Nazir habelə hər iki fondun büdcəsinin birinci oxunuşda komitə və plenar iclaslarda müzakirələri zamanı deputatların səsləndirdiyi fikirlərə münasibət bildirib, qaldırılan məsələlərə aydınlıq gətirib.

İclasda maliyyə nazirinin müavini Himalay Məmişov Vergi Məcəlləsinə edilən dəyişikliklərin mahiyyətini açıqlayıb, bu məsələ ilə bağlı səsləndirilən sualları cavablandırıb.

Tədbirdə iştirak edən İcbari Tibbi Sığorta Üzrə Dövlət Agentliyinin İcbari tibbi sığorta haqlarının uçotu şöbəsinin müdiri Səməd Səmədov təqdim olunan məsələlərə dair təmsil etdiyi qurumun mövqeyini nəzərə çatdırıb.

Müzakirələr zamanı çıxış edən deputatlar Rəşad Mahmudov, Soltan Məmmədov, Elçin Mirzəbəyli, parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev məsələlər barədə fikirlərini bölüşüblər.

Müzakirələrin yekununda qanun layihələrinin hamısı ikinci oxunuşda Milli Məclisin plenar iclasında baxılmaq üçün tövsiyə olunub.

*"Azərbaycan"*

# Berlində Mir Cəlalın alman dilinə tərcümə edilmiş hekayələrindən ibarət kitabın təqdimatı olub

**Azərbaycanın Almaniyadakı səfirliyinin təşəbbüsü və dəstəyi ilə görkəmli yazıçı, böyük alim Mir Cəlal Paşayevin 20 hekayəsindən ibarət "İnsanlığın yüksək dəyəri" adlı kitab Almaniyanın tanınmış "H.J. Maurer" nəşriyyatı tərəfindən çap olunub.**










Həmin 20 hekayədən 18-i ilk dəfə alman dilinə tərcümə edilib. Kitabda Mir Cəlalın humanizm, ictimai məsuliyyət və gündəlik həyatın mənəvi-əxlaqi çağırışları kimi fundamental mövzularda qələmə aldığı hekayələri toplanıb.

AZƏRTAC xəbər verir ki, noyabrın 27-də Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzində kitabın təqdimat mərasimi keçirilib.

Tədbirdə ADA Universitetinin rektoru professor Hafiz Paşayev, Əməkdar müəllim, professor Ədibə Paşayeva, Bundestaq üzvləri, diplomatlar, Almaniyanın bir sıra dövlət qurumlarının, elm, ədəbiyyat, mədəniyyət və incəsənət ictimaiyyətinin nümayəndələri, bu ölkədə yaşayan Azərbaycan, türk və digər dost icmaların təmsilçiləri iştirak ediblər.

Əvvəlcə Mir Cəlal haqda "Ədibin Evi" Ədəbiyyata Dəstək Fondu tərəfindən hazırlanmış film nümayiş olunub.

Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayev təqdimat mərasimində çıxış edərək Mir Cəlalın seçilmiş əsərlərinin yer aldığı "İnsanlığın yüksək dəyəri" kitabının alman dilində işıq üzü görməsinin iki ölkə arasında mədəni əlaqələrin inkişafına mühüm töhfə verdiyini vurğulayıb. Layihə üzərində iki ilə yaxın müddətdə iş aparıldığını vurğulayan səfir bildirib ki, bu kitab görkəmli yazıçının ədəbi irsinin, o cümlədən Azərbaycan ədəbiyyatının humanist ruhunun beynəlxalq auditoriyaya, o cümlədən alman oxucusuna çatdırılması baxımından əlamətdar mədəni hadisədir. Diplomat, Mir Cəlal yaradıcılığının insanı bütün ziddiyyətləri, daxili axtarışları və mənəvi seçimləri ilə mərkəzə gətirən nadir ədəbi məktəblərdən birini formalaşdırdığını qeyd edib.

ADA Universitetinin rektoru professor Hafiz Paşayev çıxışında Mir Cəlalın əsərlərinin alman dilinə tərcümə olunmasının iki ölkə və xalq arasında mədəni əlaqələrə və qarşılıqlı anlaşmaya töhfə verəcəyinə inandığını bildirib. Rektor səslənən musiqi nümunələri və səhnələşdirilən ədəbi parçaların mədəniyyətin millətlər və insanlar arasında körpü salan gücünü ən gözəl şəkildə nümayiş etdirdiyini bildirib.

Berlin Humboldt Universitetində Azərbaycan tarixi kafedrasının keçmiş rəhbəri, professor Eva-Maria Aux çıxışında Mir Cəlal yaradıcılığının mərkəzində insanın daxili aləmi, onun mənəvi bütövlüyü və xüsusilə də insanlıq anlayışının dayandığını vurğulayıb. Qeyd edib ki, onun yaradıcılığında fərdin müxtəlif vəziyyətlərdə davranışını müəyyən edən motivlərin incə fəlsəfi müşahidələrlə araşdırılması xüsusi yer tutur. Mir Cəlal üçün ailə, birlik və yaddaş kimi dəyərlər təkcə sosial struktur deyil, insanın varlığını və mənəvi dayanıqlılığını formalaşdıran əsas sütunlardır.

Professor bildirib ki, sovet dövrünün sərt nəzarət rejimi və bütün sahələrlə yanaşı, ədəbiyyat üzərində də total nəzarətin hökm sürdüyü, repressiyanın tüğyan etdiyi bir şəraitdə onun əsərlərində fərd kollektivin içində itib-batmış bir fiqur deyil, hər zaman öz mövqeyi, duyğuları və mənəvi məsuliyyəti olan varlıq kimi təqdim edilir. Bu isə sovet dövrünün hökmran ideoloji "kollektiv insan" modelinə açıq alternativ idi və Mir Cəlalı həm ədəbi, həm də intellektual cəsarətinə görə fərqləndirirdi. Natiq Mir Cəlalın əsərlərinin Azərbaycan tarixinin mürəkkəb inkişaf mərhələlərini anlamaq üçün qiymətli mənbə olmaqla yanaşı, milli kimliyin, milli şüurun formalaşmasında humanizmin əvəzsiz rolunu nümayiş etdirdiyini diqqətə çatdırıb.

Sonra "İnsanlığın yüksək dəyəri" kitabında yer alan hekayələrin bir hissəsinin səhnələşdirilmiş təqdimatı olub. Əsərlər Azərbaycan musiqisinin sədaları altında alman aktyorları Sara Maria Sander, Tamer Tahan və Elizabet Degen tərəfindən səsləndirilib. Musiqi nümunələri Almaniyada yaşayan tanınmış musiqiçi Tural İsmayılovun bədii rəhbərliyi ilə "Anima Shirvani" qrupunun ifasında təqdim olunub. Təqdimat tamaşaçıların böyük marağı və sürəkli alqışları ilə qarşılanıb.

# Azərbaycanın xarici siyasətinin uğurları

**Dünya düzəninin yenidən formalaşdırılması istiqamətində qlobal miqyasda baş verən gərginliklər, həmçinin fövqəldövlətlərin kolonialist siyasətlərinin formaca müasir, mahiyyətcə isə daha sərt və kəskin səciyyə daşıması günümüzün acı reallığıdır.**
**Uzun onilliklərdir mövcud olan münaqişələrin nizamlanması əvəzinə yenidən qızışdırılması azmış kimi, yeni savaş və nifaq ocaqlarının süni şəkildə yaradılması, gücün və zorakılığın beynəlxalq hüquqda əsas istinad mənbəyinə çevrilməsi bəşəriyyəti daha böyük fəlakətlərə, dövlətləri çox ciddi təhdidlərə yönəldir.**




# Yeni siyasi konfiqurasiya: Gələcəyə baxış

## Azərbaycan xarici zərərli təsirlərdən etibarlı mühafizə olunur

Hərbi, iqtisadi, sosial, siyasi kataklizmlərin milli dövlətlərin, xalqların gələcəyinə əsaslı təhlükə yaratdığı dövrümüzdə sevindirici haldır ki, Azərbaycan Respublikası bu təlatümlərdən qurtulub, güclü dövlətçilik sistemi sayəsində zərərli xarici təsirlərdən etibarlı mühafizə olunur.

Coğrafi xəritədə ərazisi kiçik görünən Azərbaycanın geosiyasi-geoiqtisadi miqyasda nəhəng mahiyyətdə qərarlaşması dövlətimizin böyük nailiyyətidir və xalqımızın qürur mənbəyidir. "Heydər Əliyev siyasəti - İlham Əliyev fəaliyyəti" dövlətçilik xəttində birləşən xalqımızın iqtidarın siyasi kursu ətrafında sıx səfərbər olması ölkə rəhbərinin qeyd etdiyi kimi, Azərbaycanın gücünün, qüdrətinin əsas amilidir.

Prezident və parlament mandatlarının ötən il yenilənmə proseslərində xalqımızın cənab İlham Əliyevin siyasi kursuna göstərdiyi ümummilli etimad və ən yüksək dəstək bu xüsusda ən mühüm göstəricidir.

Bu ali inam həm də ölkədə müasir mərhələyə qədəm qoyan siyasi islahatların yeni gündəliyinin - yeni siyasi konfiqurasiyanın formalaşmasının da artıq cəmiyyətin sosial sifarişi olduğunu təsdiqlədi.

Bu prosesə böyük önəm verən cənab İlham Əliyev bu sahədəki islahatların istinad mənbəyi kimi hələ 2019-cu ilin noyabr ayında Prezident Administrasiyasında yeni şöbə - Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsini yaratdı. Cənab Prezidentin tapşırıqları istiqamətində şöbə siyasi partiyalarla hakimiyyət arasında effektiv dialoq platformasına çevrildi və siyasi mühitin radikalizmdən konstruktivliyə, inkarçılıqdan əməkdaşlığa keçidini təmin etdi.

Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşan bu proses elə dövlət başçısının özü tərəfindən də yüksək qiymətləndirilib: *"Prezident Administrasiyasının nümayəndələri son vaxtlar demək olar ki, bütün siyasi qüvvələrin rəhbərləri ilə görüşlər keçirir. Mənə bu görüşlər haqqında müntəzəm olaraq məruzə edilir. Bütövlükdə ilkin rəy müsbətdir. Hesab edirəm ki, indiki genişmiqyaslı islahatlar dövründə siyasi islahatlar mütləq aparılmalıdır. Siyasi islahatlar partiyalararası geniş dialoq aparılmadan həyata keçirilə bilməz".*

Yeni siyasi konfiqurasıya quruculuğu və təkmilləşməsi prosesi artıq dövlətimizin strateji inkişaf strategiyasının tərkib hisəsi kimi qəbul edilir. Siyasi konfiqurasiyanın hədəfləri dövrün yeni qlobal çağırışlarını ehtiva etməklə yanaşı, ənənələr və novatorluq kontekstində də birləşdirici mərama çevrilib.

Ənənələrdən söz düşmüşkən, bir məqamı da nəzərə alaq ki, müstəqillikdən öncəki və onun ilk dövrlərində siyasi sistem formaca qurulmağa başlasa da, məzmunca amorf, absurd və təhlükəli xarakter almışdı. Siyasi sistem görüntüdə çoxpartiyalı olsa da, mahiyyətcə dağıdıcı, rəqabətdən uzaq, milli mənafeyə qarşı çıxan marginal topluluğa çevrilmişdi. Ən dəhşətli isə bu "siyasi sistemin" qanunsuz hərbi dəstələrlə vəhdətdə olması idi. Azərbaycanda siyasətlə hərbin bu xaotik "birliyi" sonradan Qarabağ itkisini gətirəcək faciələrin təməli idi.

Bu acınacaqlı dövrdə yalnız dövlətin və xalqın qurtuluşunun deyil, elə onun siyasi sisteminin də xilas reseptini məhz yenidən hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyev müəyyənləşdirdi və cəmiyyətə təqdim etdi. Ümummilli Lider hələ ağır blokada şəraitində faciəli günlər yaşayan Naxçıvanda bütün Azərbaycanın nicatına çevriləcək mükəmməl islahatlar, tarixi proseslər, unikal təşəbbüslər tətbiq edir, onun cəmiyyəti dövlət naminə səfərbər edən siyasi fəaliyyət platformasını isə rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası uğurla realizə edirdi.

Tarixi gedişi öz nəzarətinə götürən xalq ona doğru yolu, xilası göstərən Heydər Əliyevi hakimiyyətə gətirdi, onun Qurtuluş Missiyası ətrafında sıx səfərbər oldu. Ölkədə sosial-iqtisadi inkişafı siyasi intibah və demokratikləşmə prosesi uğurla müşayiət etdi. Konstitusiyanın qəbulu siyasi sistemin hüquqi tənzimlənməsinə töhfə verdi, cəmiyyətdə davamlı aparılan siyasi islahatlar isə siyasi partiyaların azad fəaliyyətini təmin etdi.

1990-cı illərin əvvəllərindəki siyasi və hərbi xaosu artıq "Əsrin müqaviləsi", artan xarici sərmayələr, sosial-iqtisadi inkişaf konsepsiyaları, regionların inkişafı əvəz etdi. Düzdür, siyasi sistemin marginal qüvvələri bu tarixi mərhələdə də yenə anti-Azərbaycan fəaliyyətlərini davam etdirdilər. 1994-cü il oktyabr və 1995-ci il mart qiyam cəhdlərində, sonrakı illərdə Ulu Öndərə qarşı terror hazırlıqlarında, 2000-ci illərədək davam edən iğtişaş, təxribat hallarında, həmçinin 2003-cü ilin oktyabr və 2005-ci ilin noyabr hadisələrində təəssüf ki, müxalifət partiyaları yenə də, əslində, hakimiyyətə qarşı yox, məhz dövlətin və xalqın maraqlarına qarşı çıxış etdilər, öz məkrli mahiyyətlərini dəfələrlə göstərdilər.

Ulu Öndərin rəhbərlik etdiyi YAP bu dövrdə siyasi sistemin sağlamlaşdırılması, cəmiyyətdə sivil siyasi münasibətlərin formalaşdırılması, seçki ənənələrinin təkmilləşdirilməsi istiqamətində hakimiyyətin siyasi istinadgahı oldu. Ən əsası isə cəmiyyətin siyasi partiyalara olan etimadsızlıq mühitini aradan qaldıraraq, bu mənəvi boşluğu Heydər Əliyev faktoru əsasında siyasi zənginliyə çevirdi və Azərbaycanın yeganə siyasi gücü kimi təşəkkül tapdı.

Heydər Əliyevin memarı olduğu bu siyasi arxitektura Azərbaycanın tarixində dönüş mərhələsi oldu və dövlətçiliyi daim möhkəmləndirdi. Bu model ötən 22 il ərzində davamlı olaraq təkmilləşərək və müasir dövrün tələblərini özündə əks etdirərək, bugünkü müasir siyasi konfiqurasiya ilə öz məntiqi təntənəsini yaşadı.

## İlham Əliyevin siyasi vizyonu

Cənab İlham Əliyev Prezident kimi səlahiyyətlərinin icrasına başladığı ilk gündən bütün istiqamətlərdə yen siyasət, daha çevik islahatlar həyata keçirməyə başladı. Ölkədə iqtisadi, sosial, hüquqi, qanunvericilik, hərbi yönümdə tətbiq edilən modernləşmə, müasirləşmə siyasəti Prezident İlham Əliyevin davamlı təşəbbüsləri və demokratikləşməyə xidmət edən ardıcıl tədbirləri ilə siyasi sistemin təkmilləşməsinə də transformasiya olundu.

Təəssüf ki, bu dövrdə radikal, antimilli müxalif "dərnəklərin" bədnam əməlləri milli təhlükəsizliyə aşkar təhdid olmaqla yanaşı, əsas taleyüklü problemin - keçmiş Qarabağ münaqişəsinin həllinə də zərər yetirirdi. Ermənipərəst xarici siyasi qurumların, konqresmen və senatorların, ekspertlərin, xarici medianın təsiri və dəstəyi ilə AXCP, Müsavat və ona bağlı qurumlar, şəxslər ölkədə antimüharibə təbliğatı aparır, Ermənistanın guya ki, "güclü və yenilməz dövlətə, orduya sahib olmasını" davamlı olaraq təşviq edirdilər. Dünya erməniliyinin ruporuna çevrilən bu antimilli müxalif qruplaşmalar Azərbaycanda "beşinci kolon"a çevrilərək, həm də Ermənistanın "nüfuz agentləri" kimi rəzil fəaliyyət göstərirdilər.

Sonrakı onilliklərdə də bu qaragüruh öz xəbis əməllərindən əl çəkmədi. Vətən müharibəsi zamanı siyasi partiyaların Silahlı Qüvvələrimizlə həmrəylik təşəbbüslərinə qoşulmayan, Zəfərimizin miqyasını məkrli formada kiçiltməyə çalışan bu adamlar üçün bayrağımızın Şuşada, Xankəndidə dalğalanması böyük faciə oldu. Xocalı soyqırımı qurbanlarının qisasının döyüş meydanında alındığını və Xocalının azadlığını həzm etməyən Əli Kərimli, Cəmil Həsənli və onun kimilər ermənilərin böyük müdafiəçiləri oldular.

Təqdirəlayiq haldır ki, bu radikal qaragüruha qarşı vətəndaşlarımızla yanaşı, konstruktiv mövqeli siyasi partiyalar da kəskin münasibət nümayiş etdirdilər. Ölkədə bərqərar olan demokratik mühit, eyni zamanda möhkəm qanunçuluq şəraiti bu antimilli qüvvələrə qarşı etibarlı ictimai və hüquqi müqavimət formalaşdırdı, onları birdəflik tarixin zibilliyinə göndərdi. Əlbəttə ki, ara-sıra bu zibillikdən hələ də baş qaldırır, antiazərbaycançı şəbəkənin tapşırıqlarına uyğun millətə və dövlətə qarşı məkrli əməllərini davam etdirirlər.

Bu marginal qruplar özlərini bütün mütərəqqi siyasi proseslərdən təcrid etsələr də, ölkədə siyasi dialoq mühiti artıq tam bərqərar olub və Azərbaycan naminə milli platformada birləşən siyasi partiyalar sağlam əməkdaşlıq edirlər. Prezident İlham Əliyevin tapşırıq və tövsiyələri əsasında yeni siyasi konfiqurasiya cəmiyyətdə həmrəyliyin möhkəmlənməsinə mühüm töhfələr verir.

Şöbə ölkədəki siyasi partiyalarla yanaşı, qeyri-hökumət təşkilatları, vətəndaş cəmiyyətinin təmsilçiləri, ictimai hərəkatlar, tanınmış ekspertlər, ziyalılar təbəqələrinin təmsilçiləri ilə sıx və fəal dialoq mühiti yaradıb. Xatırladaq ki, 6 il öncə bu istiqamətdə başlayan təşəbbüslər siyasi tariximizdə müxalifətlə hakimiyyət arasında ilk genişmiqyaslı dialoq, əməkdaşlıq formatını bərqərar etdi. Milli maraqlara əsaslanan, sağlam rəqabətli siyasi sistemin qurulması yolunda atılan ilkin addımlar siyasi transformasiya prosesini artıq strukturlaşdırıb və dialoqa əsaslanan etimad müstəvisinə keçirib.

Ölkədə siyasi partiyalarla münasibətlər sistemli və institusional əsaslarla qurulmağa başladı. Əsas məram məhz Prezidentin tövsiyəsinin reallaşması - iqtidar-müxalifət qarşıdurmasının yerinə dövlət və partiyalar arasında etimada əsaslanan dialoq platformasını yaratmaq idi. Və buna da nail olundu!

Prezident İlham Əliyevin bu fikirləri mövcud siyasi konfiqurasiyanın formalaşmasına gedilən yolun izahı baxımından olduqca əhəmiyyətlidir: *"Biz buna nail olduq, qısa müddət ərzində. Yenə də, sadəcə olaraq, baxdıq ki, hansı fundamental ziddiyyətlər var, harada biz, necə deyərlər, bir-birimizlə razılığa gələ bilmirik. Belə qərara gəldik, belə təklif etdik ki, ümummilli məsələlərdə heç bir fərqli fikir ola bilməz. Ümumi məsələlər Qarabağ məsələsidir. Ümumi məsələlər siyasi partiyaların fəaliyyətidir, demokratiyanın inkişafıdır, iqtisadi azadlıqların bərqərar olmasıdır, ölkəmizin güclənməsidir. Bu gün bu siyasi dialoq aparılır. Mən bunu çox təqdir edirəm. Hesab edirəm ki, ölkəmizin gələcək siyasi sisteminin təkmilləşməsi üçün bunun böyük əhəmiyyəti var".*

Prezidentin qeyd etdiyi vacib məqam - siyasi sistemin təkmilləşməsi prosesi ötən müddətdə real nəticələr verib. Milli Məclisdə parlament sədrinin müavini, komitə sədri və müavin vəzfələrində təmsil olunan müxalifət partiyaları yerli özünüidarəetmə orqanlarında - bələdiyyələrdə də geniş nümayəndəlik imkanı qazanıblar.

## Düzgün taktiki həmlələr, doğru strateji hədəf

Yaranmış əlverişli siyasi mühitin nəticəsi olaraq, siyasi sistemdə ardıcıl keyfiyyət dəyişikliyi müşahidə olunur, ənənəvi partiyalarla yanaşı, yeni siyasi qüvvələr meydana çıxır, müasir təfəkkürlü siyasətçilər yetişir. Yeni siyasi aktorlara cəmiyyətdə özlərini realizə etmək üçün geniş imkanlar yaradılır. Siyasi proseslərin iştirakçıları yeni platformalarda, əsasən sosial şəbəkələrdə, sosial mediada fəallıq göstərir, gənc siyasətçilər, ictimai fəallar cəmiyyətdə ictimai maraq yaradırlar.

Ölkənin siyasi həyatında gənclərin əsas istinad ünvanı olan YAP-da nəsillərarası sağlam ünsiyyət digər partiyalar üçün də nümunə olmalıdır. Sevindiricidir ki, bu gün gəncləşmə siyasi partiyalarda artıq geniş miqyas alıb. Partiya sədrləri və digər rəhbər orqanlarda nümayəndəlik səviyyəsində gənclərin təmsilçiliyi artır. Ümumiyyətlə, gənclər arasında siyasətə maraq yüksəlməyə doğru gedir, onların siyasi proseslərdə, o cümlədən seçkilərdə fəal iştirakları aydın müşahidə olunur. Siyasi-ideoloji yönümdən daha çox müasir dövrün texnokratik meyillərini daşıyan gəncləri təmsil edən ictimai-siyasi təsisatların cəmiyyət həyatında aktiv mövqe sərgiləməsi də diqqəti xüsusilə çəkir.

Ölkədə siyasi konfiqurasiyanın formalaşma prosesində "Siyasi partiyalar haqqında" yeni qanunun xüsusi rolu var.

Azərbaycanda qeydiyyatdan keçən 26 siyasi partiyanın ikisi (AXCP və Müsavat) istisna olmaqla, 24 siyasi partiya tam olaraq azərbaycançı platformada fəaliyyət göstərir. Bu siyasi partiyalar Zəfərəqədərki dövrdə əsas milli ideya olan Qarabağın azadlığı uğrunda mübarizədə sağlam, obyektiv, vətənpərvər mövqe sərgilədilər. Siyasi, ideoloji və informativ müstəvidə davamlı və uğurlu fəaliyyət göstərərək, haqq səsimizin yayılmasında yardımçı oldular.

Bu gün isə Azərbaycanın strateji hədəflərinin gerçəkləşməsinə, milli birliyin möhkəmlənməsinə xidmət edir, sağlam müxalifətçilik missiyası yürüdürlər. Siyasi partiyaların Qarabağ və Şərqi Zəngəzura davamlı hal alan səfərləri də bu mənada xüsusi əhəmiyyət kəsb edir.

## IV Sənaye İnqilabı dövrünün siyasi konsepsiyası və çağırışları

Müasir çağımızın politoloji təsnifatı daha çox IV Sənaye İnqilabı dövrü kimi səciyyələnir. Yəni bu mərhələ heç də iqtisadi və texnoloji mahiyyətli deyil, bəlkə də daha çox siyasi və sosial xarakterlidir. IV Sənaye İnqilabının təsirləri nəticəsində siyasi sistem, siyasi konfiqurasiya, siyasi idarəetmə modelləri indi daha çevik, texnoloji əsaslı və insan amilinin öndə olduğu formatları qəbul edir.

Siyasətlə texnologiyanın kəsişməsi nəzəri cəhətdən cəmiyyətlə dövlət, hakimiyyətlə müxalifət arasında münasibətlərin və siyasi mədəniyyətin yenilənməsini, modernləşdirilməsini ehtiva edir. Həm də siyasəti cəmiyyətə daha da yaxınlaşdırır. Rəqəmsal texnologiya və sosial şəbəkələr üzərindən gənclərin siyasətə inteqrasiyası genişlənir. Azərbaycan reallığında biz bunların ilkin rüşeymlərini aydın görürük.

Artıq xeyli ölkədə səsvermə prosesinin rəqəmsallaşması, seçkilərin elektron qaydada keçirilməsi faktı da şübhəsiz, yeniliklərə daim açıq olan Azərbaycan üçün uzaqmüddətli gerçəklik deyil. Süni intellekt, robotlar, avtomatlaşdırılmış idarəetmə, əlbəttə ki, siyasi partiyaların fəaliyyətində hələ uzun illər görünməyəcək, ancaq əvvəl-axır reallaşacaq hadisədir.

Texnokrat, çevik, rəqəmsal düşüncəli gənclərin və onların bağlı olduqları "ağıllı idarəetmə modelləri"nin siyasi sistemə fəal daxil olması, rəqəmsal idarəetmə alətlərinin tətbiqi, vətəndaşın siyasi iştiraklılığının interaktivləşdirilməsi, şəffaflıq və hesabatlılıqda yeni mərhələ - bu innovasiyalar artıq ənənəvi siyasi partiya modelinin, siyasi dialoq mexanizmlərinin, həmçinin liderlik konseptinin yenilənməsini zəruri edir. Kreativ təfəkkür, rəqəmsal ünsiyyət və cəmiyyətlə birbaşa dialoq yeni siyasətin əsas komponentlərinə çevrilir.

Sevindirici haldır ki, Azərbaycan hakimiyyəti siyasi sistemin transformasiya prosesində strateji məqsədlərini məhz bu amillərlə əlaqələndirir. Daha doğrusu, Prezident İlham Əliyevin siyasi iradəsinin nəticəsi kimi dəyərləndirdiyimiz siyasi sistemin modernləşməsi məhz texnoloji sıçrayış dövrünün tələblərindən qaynaqlanan, onun çağırışlarına adekvat cavab verən prosesdir.

Bütün dünyaya, o cümlədən Qafqaz bölgəsinə davamlı sülh, etibarlı əməkdaşlıq, sağlam dialoq üçün faydalı təkliflər, təşəbbüslər irəli sürən Azərbaycan öz daxilində bu imkanları təmin edib. Prezident İlham Əliyev xalqı ilə yanaşı, ölkədəki siyasi sistemin bütün suybektləri tərəfindən də Lider kimi qəbul olunur və bu ümummilli etimadla, dəstəklə beynəlxalq miqyasda Azərbaycanı layiqincə təmsil edir.

Respublikamızda möhkəmlənən siyasi sistem, yeniləşən siyasi konfiqurasiya, davamlı hal alan siyasi dialoq nəticə etibarilə Azərbaycanı gücləndirir, onun qlobal nüfuz və imicinin yüksəlməsini şərtləndirir.

***Arzu ABDULLAYEV,***
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini,***
***tarix üzrə fəlsəfə doktoru, dosent***

# Azərbaycan ilə BƏƏ arasında Hərtərəfli Strateji Tərəfdaşlıq üzrə Əməkdaşlıq Komitəsinin ilk iclası keçirilib



**Əbu-Dabi şəhərində Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Hərtərəfli Strateji Tərəfdaşlıq üzrə Əməkdaşlıq Komitəsinin ilk iclası keçirilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, sözügedən komitə cari il sentyabrın 16-da BƏƏ Prezidentinin ölkəmizə səfəri zamanı imzalanmış Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri arasında Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələri haqqında Birgə Bəyannamədən irəli gələrək yaradılıb. İclasa komitənin həmsədrləri qismində Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, BƏƏ tərəfindən isə Xarici İşlər Nazirliyində dövlət naziri Saeed Al Hajeri rəhbərlik ediblər.

İclasın formatına uyğun olaraq, ilk növbədə həmin komitənin tərkibindəki siyasi və diplomatik, iqtisadi, humanitar, müdafiə və hüquq-mühafizə, habelə enerji və dayanıqlılıq üzrə alt komitələrin görüşləri baş tutub. Bu çərçivədə aparılmış müzakirələr zamanı müvafiq istiqamətlər üzrə mövcud əməkdaşlıq məsələləri, qarşılıqlı əlaqələrin inkişaf perspektivlərinə dair təkliflər və mümkün layihələr nəzərdən keçirilib.

Komitənin işi çərçivəsində nazir müavini Y.Rəfiyev və dövlət naziri S.Al Hajeri arasında təkbətək görüş baş tutub. Daha sonra həmsədrlərin rəhbərliyi və aidiyyəti qurumların nümayəndələrinin, habelə hər iki ölkənin səfirlərinin iştirakı ilə geniş tərkibdə görüş keçirilib, alt komitələrin həmsədrləri irəli sürülmüş təkliflər və layihələr barədə məlumat veriblər. Həmsədrlər konkret nəticələrin əldə olunması məqsədilə müvafiq işlərin aparılması, o cümlədən yol xəritəsi və iş planlarının razılaşdırılaraq qəbul edilməsi ilə bağlı gözləntilərini ifadə ediblər. Bununla yanaşı, növbəti görüşlərin və ümumilikdə komitənin işinin modallıqları və təqvimi müəyyənləşdirilib.

İclas zamanı son dövrlər ərzində Azərbaycan-BƏƏ əlaqələrinin dinamik inkişafından böyük məmnunluq ifadə olunub. Hər iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərlərinin və həmin səfərlər çərçivəsində əldə olunmuş razılaşmaların, imzalanmış sənədlərin əlaqələrimizin hərtərəfli strateji tərəfdaşlıq müstəvisinə yüksəlməsindəki əsas rolu vurğulanıb.

İclasda Xarici İşlər Nazirliyi ilə yanaşı, Azərbaycan tərəfindən İqtisadiyyat, Energetika, Ədliyyə, Müdafiə, Daxili İşlər, Rəqəmsal İnkişaf və Nəqliyyat, Elm və Təhsil, Mədəniyyət və Kənd Təsərrüfatı nazirliklərinin, habelə Dövlət Turizm Agentliyinin, SOCAR və Azərbaycan İnvestisiya Holdinqinin nümayəndələri iştirak ediblər.

# "Azərbaycan-İran-Rusiya Anlaşma Memorandumu Azərbaycana yeni strateji rol verir"

**"Cənubi Qafqazda və Xəzəryanı regionda formalaşan yeni nəqliyyat-siyasi dinamika fonunda Azərbaycan, İran və Rusiya arasında imzalanmış üçtərəfli Anlaşma Memorandumu "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin geosiyasi məzmununu nəzərəçarpacaq dərəcədə yeniləyən və gücləndirən strateji sənəd kimi qiymətləndirilir".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında qazaxıstanlı siyasi şərhçi Zamir Karajanov bildirib.

Onun sözlərinə görə, dəhlizin qərb istiqamətinin institusional gücləndirilməsi regionda təkcə logistika effektivliyini deyil, həm də yeni əməkdaşlıq arxitekturasını müəyyənləşdirir. Ekspert qeyd edib ki, Rusiya ilə İran arasında dəmir yolu xətti ilk mərhələdə Xəzəryanı dövlətlər arasında iqtisadi-ticarət əlaqələrinin dərinləşdirilməsini hədəfləsə də, hazırkı qlobal siyasi konfiqurasiyada bu marşrutun geostrateji çəkisi əhəmiyyətli dərəcədə artıb.

Siyasi şərhçi qeyd edib ki, Qərb dövlətlərinin tətbiq etdiyi sanksiyalar fonunda Rusiya öz xarici siyasət trayektoriyasını tədricən Cənuba və Şərqə doğru yönəldir. Bu kontekstdə 2023-cü ildən etibarən "Orta Asiya - Mərkəz" qaz kəmərinin "revers" rejimində fəaliyyətə başlaması, Rusiyanın Türküstan regionuna qaz nəqlinə başlaması və eyni zamanda Özbəkistanı Pakistanla birləşdirəcək dəmir yolu xəttinin gerçəkləşməsinə dəstək verilməsi Moskvanın nəqliyyat və iqtisadi strategiyasında çoxvektorlu xəttin gücləndiyini göstərir.

Zamir Karajanov Azərbaycanın rolunu xüsusi vurğulayaraq deyib: "Coğrafi mövqeyi və mövcud nəqliyyat infrastrukturunun müasirliyi sayəsində Azərbaycan bu logistika konstruksiyasının ayrılmaz hissəsidir. Bakı Rusiya ilə İranı, eləcə də Asiya və Cənub-Şərqi Asiya dövlətlərini birləşdirən əsas körpü funksiyasını yerinə yetirir. Bu həm tranzit təhlükəsizliyi, həm də regional ticarət dövriyyəsinin şaxələndirilməsi baxımından strateji dəyər kəsb edir".

"Bu layihələr təkcə alternativ marşrutların genişləndirilməsi üçün deyil, Rusiyanın Asiya və Cənub-Şərqi Asiya ölkələri ilə əlaqələrinin dərinləşdirilməsi istiqamətində sistemli addımlardır. "Şimal-Cənub" dəhlizi isə bu siyasətin mərkəzi elementlərindən biridir. Marşrut Suveyş kanalı və Qırmızı dəniz kimi riskli və yüklənmiş qovşaqları yan keçməklə yükdaşımaların təhlükəsizliyini artırır, tranzit müddətini əhəmiyyətli şəkildə qısaldır və Rusiya ilə Asiya bazarları arasında yeni strateji bağlılıq yaradır", - deyə siyasi şərhçi qeyd edib.

Ekspertin qənaətinə görə, üçtərəfli memorandum təkcə dəhlizin əməliyyat mexanizmlərini təkmilləşdirmir, həm də regionda yeni nəqliyyat-siyasi çərçivə formalaşdırır. Bu çərçivədə Azərbaycan etibarlı tərəfdaş və əsas tranzit mərkəzi kimi öz mövqeyini daha da möhkəmləndirir.

# Azərbaycanın xarici siyasətinin uğurları

**Həyata keçirdiyi müstəqil və qətiyyətli siyasətlə nüfuzu gündən-günə artan, adı dünyanın tanınmış siyasətçiləri arasında çəkilən Prezident İlham Əliyev son 22 ildə Azərbaycanı dünya siyasi arenasında söz sahibinə çevirib. Məhz qətiyyətli liderin rəhbərliyində Azərbaycan beynəlxalq səhnədə öz mövqeyini gücləndirmək və qlobal layihələrdə iştirakını artırmaq istiqamətində mühüm addımlar atır. Dövlətimiz artıq regional oyunçu statusundan çıxaraq, qlobal səviyyədə problemlərin həllində iştirak edən ölkəyə çevrilməkdədir.**




## İlham Əliyevin qlobal təşəbbüsləri

### Bu, Azərbaycanın xarici diplomatiyasının daha da güclənməsi üçün möhkəm təməl yaradıb

Ümumiyyətlə, xarici siyasətin düzgün müəyyənləşdirilməsi dünyanın mürəkkəb və həssas bölgəsində - coğrafi baxımdan Qərb və Şərqin kəsişməsində, strateji yanaşmalarda isə geosiyasi və geoiqtisadi maraqların üst-üstə düşdüyü ərazidə yerləşən Azərbaycan üçün həm ötən dövrlərdə, həm də indi müstəsna əhəmiyyətə malikdir. Məhz bu siyasət nəticəsində Azərbaycanın beynəlxalq və regional problemlərin həllində rolu yetərincə yüksəkdir. 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyünün ardınca ölkəmizin 2017-2019-cu illər üçün 176 səs lehinə olmaqla, BMT-nin İqtisadi və Sosial Şurasına üzv seçilməsi, 2019-cu ildə isə dünyanın 120 ölkəsini birləşdirən Qoşulmama Hərəkatına sədrliyi öz üzərinə götürməsi xarici siyasətimizin nailiyyətləri kimi tarixə yazılıb.

Azərbaycanın bugünkü reallıqlarına nəzər salanda görürük ki, ölkəmiz, sözün əsl mənasında, müstəqil dövlət kimi dünya xəritəsində öz yerini tutub. Bütün regional məsələlərdə fəal iştirak edən Azərbaycan yüksək nüfuz sahibinə çevrilib.

Azərbaycan Prezidenti hər zaman qlobal liderlik keyfiyyətini və təşəbbüskarlığını ortaya qoyaraq çox mühüm ideyalar irəli sürür və onun təşəbbüsü ilə reallaşan transmilli layihələr ölkəmizə iqtisadi-siyasi dividendlər qazandırır.

Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin xarici diplomatiyası böyük nailiyyətlər əldə edib. Prezidentin vizyonu, ardıcıl və prinsipial siyasəti, dünya miqyasında güclü əlaqələrin qurulması və Azərbaycanın beynəlxalq arenada mövqeyinin möhkəmləndirilməsi uğurla həyata keçirilir.

İlham Əliyevin diplomatik təşəbbüsləri regional və qlobal səviyyədə strateji tərəfdaşlıqların qurulması baxımından da mühüm əhəmiyyət daşıyır. Sözü imzası qədər keçərli olan İlham Əliyevin ən mühüm diplomatik uğurlarından biri Azərbaycanı Cənubi Qafqazın lider dövləti kimi möhkəmləndirməsidir.

Azərbaycanın xarici siyasətinin əsasını həmçinin güclü iqtisadi diplomatiya təşkil edir. Prezident İlham Əliyevin dövründə ölkəmiz dünya enerji bazarında əsas oyunçulardan birinə çevrilib. Xüsusilə "Cənub Qaz Dəhlizi" kimi böyük enerji layihəsinin həyata keçirilməsi Azərbaycanın Avropaya enerji ixracını artırıb, ölkəmizin iqtisadiyyatına müsbət təsir göstərib. Qlobal layihələr Azərbaycanın həm regionda, həm də dünyada enerji təhlükəsizliyinə töhfə verməsini təmin edib.

Azərbaycana rəhbərlik etdiyi 22 ildə İlham Əliyev elə bir dövlət yaradıb ki, özünün də söylədiyi kimi, mövcudluğu tarixində ölkəmiz heç zaman indiki kimi qüdrətli, güvənli, istiqrarlı olmayıb.

Bu gün İlham Əliyev şəxsiyyətinə, liderliyinə geosiyasi, geoiqtisadi miqyasda nəzər yetirsək görərik ki, o, təkcə Azərbaycanın, Qafqazın alternativsiz lideri deyil, ümumiyyətlə, dünya miqyasında tanınan, qlobal liderliyi etiraf olunan böyük şəxsiyyətdir. Elə bir beynəlxalq və mötəbər toplantı yoxdur ki, Azərbaycan Prezidenti həmin tədbirə dəvət edilməsin və orada müasir dövrün çağırışları, mövcud qlobal problemlərin həlli yolları barədə fikirlər səsləndirməsin, təkliflərini irəli sürməsin. Yəni İlham Əliyev təkcə regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq, dünya miqyasında baş verən qlobal hadisələr zamanı qətiyyətli mövqe nümayiş etdirir. Dövlətimizin başçısının təşəbbüsləri qlobal miqyasda beynəlxalq həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunədir.

İlham Əliyev Azərbaycanın beynəlxalq təşkilatlarda, xüsusən BMT, ATƏT, Qoşulmama Hərəkatı kimi platformalarda fəallığını artırıb. Azərbaycan eyni zamanda Türk Dövlətləri Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatında da əhəmiyyətli fəaliyyətini davam etdirir. Dövlətimizin başçısı bu təşkilatlar çərçivəsində ölkəmizin maraqlarını müdafiə edərək Azərbaycanın beynəlxalq təsirini daha da genişləndirib.

Prezident İlham Əliyevin xarici diplomatiyasının uğurları, TDT çərçivəsində irəli sürdüyü təşəbbüsləri Azərbaycanın beynəlxalq müstəvidə güclü və etibarlı tərəfdaş kimi mövqeyinin möhkəmlənməsinə gətirib çıxarıb. Dövlət başçısının strateji baxışları və qətiyyətli fəaliyyəti, Azərbaycanın dünya səhnəsində daha da mühüm rol oynamağa davam edəcəyini göstərir. Bu yolda əldə edilən nailiyyətlər Azərbaycanın xarici siyasətinin daha da inkişafı üçün möhkəm təməl yaradıb.

Hazırda Azərbaycan böyük layihələrin təşəbbüskarı və iştirakçısı qismində regional əməkdaşlığı inkişaf etdirən dövlətdir. Etibarlı tərəfdaş kimi qəbul edilən Azərbaycanın xarici siyasətinin uğurları qonşu ölkələrlə və dünyanın digər dövlətləri ilə balanslaşdırılmış münasibətlərin qurulmasına, qarşılıqlı maraqlardan irəli gələn bərabər dialoq və əməkdaşlığın həyata keçirilməsinə əsaslanır.

Noyabrın 16-da Özbəkistanın paytaxtı Daşkənddə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə qəbul edilən tarixi qərar da İlham Əliyevin xarici diplomatiyasının növbəti təntənəsi idi. Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünün tamhüquqlu iştirakçısı seçilməsi çox böyük uğurdur. ölkəmizin Mərkəzi Asiya platformasına qoşulması əlbəttə ki, yeni imkanlar və perspektivlər deməkdir.

Bu bir reallıqdır ki, Azərbaycan beynəlxalq arenada özünün strateji mövqeyini hər keçən gün daha da möhkəmləndirərək yeni siyasi və iqtisadi əməkdaşlıq imkanları əldə edir. Son zamanlar Azərbaycanın Mərkəzi Asiya platformasına qoşulması yalnız regionda deyil, həm də dünya səviyyəsində əhəmiyyətli bir addım kimi qiymətləndirilir. Bu platforma Azərbaycanın uzunmüddətli strateji məqsədlərinə uyğun olaraq həm iqtisadi, həm də diplomatik əlaqələrin genişlənməsinə töhfə verəcək bir imkan yaradır.

Azərbaycanın coğrafi mövqeyi onu Asiya və Avropa arasında mühüm körpü halına gətirir. Mərkəzi Asiya iqtisadiyyatı sürətlə inkişaf edən və yeni bazar axtaran ölkələrdən ibarət bir regiondur.

2025-ci ilin uğurlarından biri də Azərbaycanın qaz ixrac etdiyi ölkələrin sayının artması olub. İndiyədək qaz ixrac etdiyimiz ölkələrin sayı 12 idi. Bunlar Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, İtaliya, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya və Slovakiyadır. Qısa müddətdə bu sıraya daha iki ölkə - Ukrayna və Suriya da qoşuldu. İndi Azərbaycanın qazla təchiz etdiyi ölkələrin sayı 14-dür. Yaxın gələcəkdə Azərbaycanın hədəfi 20-yə yaxın ölkəyə qaz ixrac etməkdir.

Bütün bunlar Azərbaycanın xarici diplomatiyasının uğurlarıdır ki, onun da əsasında cənab İlham Əliyevin qlobal təşəbbüsləri və müstəqil xarici siyasəti dayanır.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Özəl sektor ölkə iqtisadiyyatının əsas gücünə çevrilir

### "Scandens Pharmaceutical Industries Ltd" MMC və AZWOOL mineral daş yunu zavodu yalnız bir həftədə açılan özəl müəssisələrdir



*Əvvəli 1-ci səh.*

Bunun real nəticəsini Prezidentin iki gün öncə AZWOOL mineral daş yunu zavodunun açılışında şəxsən iştirak etməsi təsdiq edir. Bakının Qaradağ rayonunda fəaliyyətə başlayan AZWOOL mineral daş yunu zavodu "Matanat-A" şirkətinə məxsudur. Ərazisi 10 hektar olan zavodda ABŞ, Almaniya və Türkiyədən gətirilmiş müasir avadanlıqlar quraşdırılıb. Müəssisənin illik istehsal gücü 1,5 milyon kubmetr mineral daş yunudur və məhsullar, əsasən, yerli xammaldan hazırlanır. Layihənin investisiya dəyəri 43 milyon manatdır. Onun reallaşdırılması üçün İqtisadiyyat Nazirliyinin tabeliyindəki Sahibkarlığın İnkişafı Fondu tərəfindən 10 milyon manat həcmində güzəştli kredit ayrılıb. Bundan əlavə, zavod investisiya təşviqi sənədi vasitəsilə texnika və texnoloji avadanlıqların idxalı zamanı təxminən 4 milyon manat güzəşt əldə edib. Hazırda müəssisədə 180 iş yeri yaradılıb.

Özəl sektora aid müəssisələrin açılışlarında Prezident İlham Əliyevin iştirakı sahibkarlığın iqtisadi inkişafdakı əhəmiyyətini və dövlət tərəfindən ona verilən yüksək dəyəri göstərir. Üstəlik də sahibkarlar üçün motivasiya rolunu oynayır, iş adamlarını gələcək layihələrə sərmayə qoymağı təşviq edir və ölkədə rəqabətqabiliyyətli, modern sahibkarlıq mühitinin möhkəmlənməsinə stimul verir və innovativ istehsalın genişləndirilməsi sahəsində atılan addımların əhəmiyyətini üzə çıxarır. Bu, yalnız dövlətin biznes subyektlərinə dəstəyini nümayiş etdirmir, həm də ölkədə sahibkarların sahibsiz olmadıqlarını təsdiqləyir. Bunun sayəsindədir ki, məsələn, AZWOOL zavodunda quraşdırılan müasir avadanlıqlar, illik yüksək istehsal gücü və yaradılan yeni iş yerləri, eləcə də investisiya təşviqi mexanizmlərindən istifadə edilməsi sahibkarlığın dayanıqlı inkişafına və innovativ texnologiyaların tətbiqinə imkan verib.

Yeri gəlmişkən, bir həftə əvvəl Prezident İlham Əliyev Abşeron rayonunun Hökməli qəsəbəsində "Scandens Pharmaceutical Industries Ltd" MMC-nin dərman preparatları istehsalı müəssisəsinin də açılış lentini kəsmişdir. Beynəlxalq standartlara uyğun layihələndirilən bu müəssisə Almaniya, İsveçrə və İtaliyanın qabaqcıl texnologiya və avadanlıqları ilə təchiz olunub. İl ərzində müəssisədə antibiotiklər, diabetologiya, hepatologiya, kardiologiya, andrologiya, allerqologiya və qastroenterologiya sahələrinə aid təxminən 800 milyon ədəd tablet və kapsul dərman preparatı istehsal olunacaq. İstehsal olunan məhsullar həm daxili bazara çıxarılacaq, həm də ixrac ediləcək. Müəssisədə 120 iş yeri yaradılıb.

Dəyəri 74 milyon manat olan bu layihə də özəl investisiya hesabına həyata keçirilib. Şirkət İqtisadiyyat Nazirliyi tərəfindən verilmiş investisiya təşviqi sənədi hesabına idxal olunan avadanlıqlara görə 6,5 milyon manat güzəşt əldə edib. Bu o deməkdir ki, dövlət sahibkarların biznes mühitinin daha da əlverişli olmasına şərait yaradır. Belə yanaşma yeni iş yerlərinin yaradılmasına, müasir texnologiyaların tətbiqinə və ölkənin ixrac potensialının gücləndirilməsinə imkan verir. Eyni zamanda sahibkarların risklərini azaltmaqla, investisiyaların cəlb edilməsini sürətləndirir və iqtisadiyyatın şaxələndirilməsinə yol açır.

Müasir texnologiyalar əsasında qurulan müəssisələr, yaradılan yeni iş yerləri və innovativ istehsal imkanları sahibkarların təşəbbüsləri ilə əhalinin məşğulluğunu artırır və ölkənin rəqabət qabiliyyətini gücləndirir. "Scandens Pharmaceutical Industries Ltd" MMC və AZWOOL mineral daş yunu zavodu yalnız son bir həftədə açılan müəssisələrdir. Amma təbii ki, onlar nə birincidir, nə də sonuncu.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*



# Əməkdaşlığa təkan verən dialoqların ünvanı

### Azərbaycan qlobal tədbirlərə uğurlu evsahibliyi edir

**Azərbaycan bu gün beynəlxalq tədbirlərə evsahibliyi edən, dünya miqyaslı problemlərin dialoq yolu ilə həll edildiyi platforma kimi tanınır. Özü də təkcə paytaxt Bakıda deyil, ölkəmizin bölgələrində yüksək səviyyədə təşkilatçılığı ilə seçilən qlobal toplantılar keçirilir. Bu il mayın 28-də Laçında Azərbaycan, Türkiyə və Pakistan liderlərinin Zirvə görüşünün, iyulun 4-də Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşünün, oktyabrın 7-də Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə görüşünün və digər mötəbər tədbirlərin timsalında da bunu aydın görmək mümkündür.**

Elə son bir neçə gün ərzində də ardıcıl olaraq ölkəmizdə xeyli beynəlxalq tədbir keçirilib və bütün bunlar Cənubi Qafqazın lider ölkəsi Azərbaycanda olan təhlükəsizlik, rifah və sülh mühitinin yaratdığı nəticələrdir. Ölkəmiz daim dialoq formasında dünya miqyaslı məsələlərin həllinin mümkünlüyünü təbliğ edir, bu istiqamətdə çağırışlar səsləndirir və bəşəri qərarların qəbuluna və icrasına birbaşa töhfələr verir.

#### Bakının təşəbbüsü ilə

Ötən ilin dekabrında Azərbaycan Misirin paytaxtı Qahirə şəhərində İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) XI Sammiti zamanı yekdilliklə D-8 təşkilatının üzvü seçilib. İllər əvvəl yaranmış bu təşkilata ötən müddət ərzində əlavə üzv qəbul edilməmişdi və birinci genişlənmə qərarından sonra qəbul edilən üzv məhz Azərbaycan oldu. Respublikamızın sözügedən təşkilata üzv qəbul edilməsi Azərbaycanın növbəti diplomatik qələbəsi idi və onun nüfuzunu və beynəlxalq aləmdə rolunu bir daha göstərdi.

Cari il noyabrın 21-də Bakıda keçirilmiş "Dialoqun, əməkdaşlığın və regional həmrəyliyin təşviq edilməsi" mövzusunda D-8 Media Forumu bu mənada böyük əhəmiyyət kəsb edirdi. Adıçəkilən forum D-8 ölkələri arasında mövcud olan dostluğun, əməkdaşlığın daha da dərinləşməsinə töhfə idi.

"Dialoqun, əməkdaşlığın və regional həmrəyliyin təşviq edilməsi" mövzusunda D-8 Media Forumunun iştirakçılarına müraciətində Prezident İlham Əliyev bildirdi ki, dost ölkələrin ictimai-siyasi xadimlərini, kommunikasiya üzrə mütəxəssislərini, media nümayəndələrini bir yerə toplayan bu forum qlobal informasiya məkanında meydana çıxan yeni çağırışları müzakirə etmək və ortaq məqsədlərə çatmaq üçün səmərəli platforma olacağına inamı ifadə edir: "Bugünkü forum dost ölkələrin media qurumları arasında qarşılıqlı təcrübə mübadiləsi üçün əlverişli imkanlar yaradan yeni əməkdaşlıq müstəvisidir. İnanıram ki, burada səslənəcək ideyalar, təkliflər və irəli sürüləcək birgə layihə təşəbbüsləri gələcəkdə D-8 ölkələrinin informasiya siyasətində mühüm rol oynayacaqdır".

D-8 təşkilatına üzv seçildiyi gündən təsisatın işinə mühüm töhfələr verən Azərbaycan bu çərçivədə iqtisadi, mədəni, sosial və humanitar əməkdaşlıq sahələrində səylər göstərir. Ölkəmizin D-8 ailəsinə üzvlüyə qəbul edilməsindən ötən bir ilə yaxın müddət ərzində Azərbaycanın təşəbbüsü ilə Bakıda D-8 ölkələrinin QHT-lərinin ilk dəfə görüşü keçirilib, D-8 Həftəsi çərçivəsində "D-8 Yüksəksəviyyəli İqlim və Şəhərsalma Dialoq"u baş tutub. Bakıda keçirilmiş "Dialoqun, əməkdaşlığın və regional həmrəyliyin təşviq edilməsi" mövzusunda D-8 Media Forumu da bu silsilənin davamı kimi diqqət çəkir.

#### Türk dünyası ailəsinin həmrəyliyi

Azərbaycan təməli qədim türk yurdu Naxçıvanda qoyulan Türk Dövlətləri Təşkilatının (TDT) güclənməsinə xüsusi önəm verir və bu istiqamətdə praktik addımlar atır.

Noyabrın 24-də Bakıda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin qeyri-hökumət təşkilatlarının həmrəylik forumunun keçirilməsi, ayın 25-də isə Naxçıvan şəhərində keçirilən həmrəylik forumu çərçivəsində TDT-yə üzv və müşahidəçi ölkələrin qeyri-hökumət təşkilatlarını birləşdirən yeni platformanın təsis olunması da elə türk dünyasının birliyi amalına xidmət edən müstəsna tarixi hadisələrdir.

TDT-yə üzv ölkələrin qeyri-hökumət təşkilatlarının həmrəylik forumunun iştirakçılarına müraciətində Prezident İlham Əliyev bildirib ki, Azərbaycan bu təşkilata üzv ölkələrlə ikitərəfli və çoxtərəfli əsasda QHT-lər üçün tarix, mədəniyyət, ekologiya, iqlim siyasəti və digər sahələrdə ortaq qrant müsabiqələri elan etməyə, qarşılıqlı kommunikasiyanı gücləndirən layihələri dəstəkləməyə hazırdır: "2026-cı ildə 100 illiyi keçiriləcək I Türkoloji Qurultayın türk xalqlarının mədəni inteqrasiyası məsələləri ilə bağlı yarımçıq qalmış işlərinin QHT-lərin yaxından iştirakı ilə müasir çağırışlara uyğun davam etdirilməsi də xüsusi aktuallıq kəsb edir. Türk dünyası QHT-lərinin BMT və digər beynəlxalq təsisatlar çərçivəsində birgə, koordinasiyalı fəaliyyəti, vahid platformada birləşməsi ümumi işimizə və məqsədlərimizə böyük töhfə verə bilər".

TDT-yə üzv və müşahidəçi ölkələrin qeyri-hökumət təşkilatlarını birləşdirən yeni platformanın təsis olunması, heç şübhəsiz, türkdilli xalqların daha mütəşəkkil təşkilatlanmasına, öz səslərini dünyaya daha gur çatdırmasına geniş imkanlar açacaq.

Noyabrın 27-də türkdilli dövlətlərin media və kommunikasiya sahəsində əməkdaşlığını möhkəmləndirmək məqsədilə Türk Dövlətləri Təşkilatının Media Forumu keçirilib. Forum çərçivəsində "Müasir dövrdə artan qlobal informasiya təhdidlərinə qarşı dayanıqlı və preventiv addımlar: Türk dövlətlərinin media ekosistemi nümunəsində" mövzusuna həsr olunmuş panel sessiya təşkil edilib.

Ötən gün isə Bakı daha bir mötəbər tədbirə evsahibliyi etdi. Belə ki, paytaxtımızda Türk Dövlətləri Təşkilatının media və informasiya üzrə məsul nazirlərinin, yüksəkvəzifəli rəsmilərinin 7-ci toplantısı keçirildi.

Türk Dövlətləri Təşkilatına üzv ölkələrin qeyri-hökumət təşkilatlarının həmrəylik forumunun iştirakçılarına müraciətində dövlətimizin başçısı ölkəmizdə ardıcıl olaraq keçirilən tədbirlərin mühüm əhəmiyyətini diqqətə çatdırıb: "Azərbaycan Türk Dövlətləri Təşkilatına hazırda sədrlik edən ölkə kimi üzv ölkələrin vətəndaş cəmiyyəti təsisatları arasında da ictimai kommunikasiyanın gücləndirilməsinə çalışır. Bu günlərdə Bakıda Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Qızıl Aypara Cəmiyyətləri Prezidentlər Şurasının iclasının keçirilməsi, QHT-lərin indiki həmrəylik forumu və ardınca TDT-nin media və informasiya üzrə məsul nazirlərinin və yüksəkvəzifəli rəsmilərinin növbəti toplantısı bu sahədə aparılan işlərin miqyasını və çoxşaxəli xarakterini nümayiş etdirir".

Bir sözlə, nümunə gətirdiyimiz beynəlxalq tədbirlərin timsalında da görünür ki, Azərbaycan dünyanın yeni çağırışlarına töhfə verəcək, regional, eləcə də daha geniş coğrafiyanın inkişafına, əməkdaşlığına stimul olacaq dialoqların unikal ünvanıdır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*



## “Böyük qayıdış” proqramı sürətlə icra olunur



◆ Qarabağ Universitetinin yaradılmasından 2 il keçir

# Xankəndi bu gün həm də akademik şəhərdir...

**28 noyabr 2023-cü ildə - Azərbaycanın suverenliyinin tam təmin edilməsi və Konstitusiyasının bütün ərazilərində qüvvəyə minməsindən cəmi iki ay keçdikdən sonra Prezident İlham Əliyev Xankəndi şəhərində Qarabağ Universitetinin yaradılması haqqında sərəncam imzaladı. Sərəncama əsasən, regionun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksəkixtisaslı kadr tələbatının ödənilməsi və tarixən mövcud olmuş təhsil ənənələrinin yaşadılması məqsədilə Xankəndi şəhərində yerləşən ali təhsil müəssisəsinin əsasında Elm və Təhsil Nazirliyinin tabeliyində "Qarabağ Universiteti" publik hüquqi şəxs yaradıldı.**



20 sentyabr 2024-cü ildə Xankəndinin azad edilməsinin bir ilində isə bu tarixi şəhərimizdə Qarabağ Universitetinin Prezident İlham Əliyev tərəfindən açılışı həyata keçirilib. Dövlət Suverenliyi Gününü qürurla qeyd etdiyimiz həmin tarixdə universitetin fəaliyyətə başlaması həm də azad Qarabağ və Şərqi Zəngəzura elmimizin qayıdışı kimi rəmzi məna daşıyırdı. Minlərlə tələbənin böyük fəxr hissi ilə seçdiyi bu təhsil ocağının açılışını edən, yataqxanasında tələbələr üçün yaradılan şəraitlə tanış olan, universitetin müəllim və tələbə heyəti ilə görüşən Prezident İlham Əliyev bildirmişdi ki, Qarabağ Universitetinin yaradılması tarixi hadisədir: "...Bu gün Qarabağda, azad Qarabağda olmaq, sizi görmək, yataqxanada, o balkonda tələbələrin gülər üzlərini görmək, doğrudan da, böyük xoşbəxtlikdir. Bəlkə də bundan böyük xoşbəxtlik ola bilməz".





"Konstitusiya və Suverenlik İli"ndə Qarabağ Universitetində növbəti əlamətdar hadisə yaşandı. 14 sentyabr tarixində universitetin klinikasının binasının, Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun açılışında iştirak edən Qarabağın xilaskarı İlham Əliyev bununla respublikamızın elm aləminə növbəti töhfəsini vermiş oldu.

## Zəngilandan Xankəndiyə

Yaradılmasından cəmi iki il keçməsinə baxmayaraq, Qarabağ Universiteti ölkəmizin nüfuzlu, tələbələr tərəfindən böyük həvəslə seçilən ali təhsil ocaqları sırasına yüksəlməyi bacarıb.

"Azərbaycan" qəzetinin "Biz qayıtdıq, Vətən!" rubrikasının qonağı olan Qarabağ Universiteti Tibb və sağlamlıq elmləri fakültəsinin Təməl tibb elmləri bölməsinin müdiri, Qarabağ Universitetinin klinikasının həkim-patoloqu tibb üzrə fəlsəfə doktoru, dosent Müşfiq Orucovla da elə adıçəkilən universitetin qısa müddət ərzində qazandığı uğurlardan danışdıq.

Vurğulayaq ki, Xankəndidə fəaliyyət göstərən ali təhsil müəssisəsinin özəlliklərindən biri də burada çalışan kadrların bir çoxunun əslən Qarabağ və Şərqi Zəngəzurdan olmasıdır. Zəngilan rayonunun Mincivan qəsəbəsində dünyaya göz açan Müşfiq Orucov da illərin həsrətindən sonra doğma yurdunda qayıdış təntənəsini yaşayanlardan biridir.

Əslən Zəngilanın Tatar kəndindən olan Müşfiq Orucovun atası Teyyub Orucov pediatr, anası Elmira İbrahimova isə ibtidai sinif müəllimi olub. Valideynlərinin işi ilə əlaqədar onların ailəsi köçərək Mincivan qəsəbəsində yaşayıb. Müşfiq Orucov söhbət zamanı dedi:

- Nəriman Nərimanov adına Mincivan qəsəbə orta məktəbində oxuyurdum. Məktəbimiz o zaman təkcə Zəngilanın deyil, ölkənin ən qabaqcıl təhsil müəssisələrindən biri idi. Tədrisi çox savadlı müəllimlər aparırdı. Balabəyim Şahməmmədova, İbrahim Hacıyev, Şamxal Kərimov, Süleyman Hüseynov, Qəmbər Əliyev, Cavanşir İmanov, Fərman Babayev, Qəribə Məmmədova, Roza Rəhimova, İsmayıl Hacıyev, Telman Nəzərov, Mənsumə İsmayılova və digər unudulmaz müəllimlərimiz həyatda formalaşmağımızda, təhsilimizdə çox böyük rol oynayıblar. Anamın müəllim olması mənim tədrisdə, öyrənməyə alışmağımda çox fayda verib. Atamın həkim olması isə məni bu peşəyə həvəsləndirdi. Gözümü açandan atamı xəstələrə şəfa verən görmüşdüm deyə, uşaqlıqdan özüm də bu yolla getməyə, həkim olmağa qərar verdim. Həkimlik mənə İlahi peşə kimi gəlirdi.

Məktəb illərində fəal şagird olmuşam. 1988-ci ildə Krımda yerləşən məşhur "Artek" pioner düşərgəsində bir aylıq toplantıda iştirak etmişəm. Musiqiyə də çox böyük həvəsim var idi. Mincivan qəsəbə musiqi məktəbinin 5 illik tar sinfini bitirərək, ilk məzunlardan biri oldum. Tar müəllimim Şakir Kərimovun yüksək peşəkarlığı, tələbkarlığı hələ də xatirimdədir.

Lap uşaqlıqdan kitab oxumağı çox sevərdim. Yadımdadır, atam rayon mərkəzinə gedib-gələndə mütləq mənə kitab alırdı. Artıq evimizdə şəxsi kitabxanam vardı və bir dəfə onların kataloqunu çıxarıb saydıqda əsasını romanların təşkil etdiyi 600-dən çox kitabım olduğunu gördüm.

## 30 ilin məşəqqəti 20 oktyabr 2020-ci ildə bitdi

1992-ci ildə orta məktəbi bitirən Müşfiq Orucov həmin il ilk dəfə tətbiq olunan test üsulu ilə Azərbaycan Tibb Universitetinin (ATU) I müalicə-profilaktika fakültəsinə daxil olub və 1998-ci ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirərək həkim ixtisasına yiyələnib. Ancaq tələbəlik illəri ölkənin ən ağır günlərinə təsadüf edir. Rayonlarımızın ard-arda işğalı Zəngilandan da yan ötmür. Müşfiq Orucov 30 il bundan əvvəl həmin ağrı-acılı günləri belə xatırlayır:

- Məcburi köçkün düşdüyümüz günlər heç zaman yadımdan çıxmır. 1993-cü ildə birinci kursu bitirib Mincivana getmişdim. Artıq payız idi, amma yollar bağlanmışdı deyə Bakıya qayıda bilmirdim. Blokada şəraitində qalmışdıq.

Oktyabrın 26-sı bazar günü idi. Bir də gördük ki, hərə gücü çatan yükünü götürüb ya piyada, ya da maşınlarla Araz çayının sahilinə doğru hərəkət edir. Bu mənzərəni görmək, yaşamaq çox ağır, dəhşətli idi.

Biz də evlərini tərk edən camaatımıza qoşulub Arazın sahilinə getdik və üç gün orada açıq havada qaldıq. Sonra Zəngilan əhalisi İran tərəfə, oradan da İmişli rayonuna keçdi.

Beləcə ağır və məşəqqətli keçən məcburi köçkünlük həyatımız başladı. O illər çox ağır, əzablarla dolu idi. Bakı şəhərinə pənah gətirmişdik və bir neçə il ATU-nun yataqxanasında yaşadıq. Maddi və mənəvi baxımdan çox çətin günlər yaşadıq, amma heç zaman ürəyimizdə bir gün belə mütləq torpaqlarımıza geri dönəcəyimizin inamı, ümidi itmədi.

ATU-nu bitirdikdən sonra elə həmin universitetin İnsan anatomiyası və tibbi terminologiya, Sitologiya və histologiya, Patologiya kafedralarında assistent, baş müəllim, dosent və tədris hissə müdiri, ATU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri vəzifələrində çalışdım. 2004-cü ildə professor Eldar Qasımovun elmi rəhbərliyi altında dissertasiya müdafiə edərək tibb üzrə fəlsəfə doktoru alimlik dərəcəsi əldə etdim. Müxtəlif xarici ölkələrdə, o cümlədən ABŞ, Avstriya, Almaniya, Türkiyə, Yunanıstan, Çin, Pakistan Misir və digər ölkələrdə elmi və elmi-praktik tədbirlərdə iştirak etdim. Qazandığım bütün uğurlarla yanaşı, bu illər ərzində Vətən həsrəti, yurd nisgili bir an olsun belə məni tərk etmədi...

Nəhayət, o xoşbəxt gün yetişdi. 20 oktyabr 2020-ci ildə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev "X" hesabında Zəngilan rayonunun işğaldan azad edilməsi müjdəsini verdi. Həmin zaman yaşadığım sevinc hisslərini indi sözlərlə ifadə etməkdə çətinlik çəkirəm. Əslində, hisslərimə hakim, güclü iradəyə sahib bir şəxs olsam da, həmin xəbəri eşidəndən sonra bir həftəyə qədər göz yaşlarımı saxlaya bilmədim. Bu, sevincdən doğan göz yaşları idi...

## "Fəaliyyətimizi yeni və müasir tibb təhsili modelinə əsaslanaraq qururuq"

Cari ildə Qarabağ Universitetinin yeni yaradılan Tibb və sağlamlıq elmləri fakültəsində işləməyə dəvət aldığını söyləyən Müşfiq Orucov deyir ki, o, bu dəvəti çox böyük məmnuniyyət və qürur hissi ilə qəbul edib və sentyabrın 1-dən bu ali təhsil ocağında çalışmağa başlayıb:

- Bir məcburi köçkün olaraq hər zaman yurdumuzun azad ediləcəyinin, el-obamıza dönəcəyimizin və işləyəcəyimizin arzusu ilə yaşayırdım. Şükür Tanrıya, 2025-ci ildə bu arzum çin oldu. Mən də Qarabağ Universitetində çalışanların sırasına qatıldım. Qarabağ Universiteti Azərbaycan təhsil məkanında innovativ bir layihədir. Ölkəmizin rəhbəri cənab İlham Əliyevin diqqət və qayğısı ilə bu universitetdə yeni təhsil sistemi qurulur. Təsadüfi deyil ki, bu ilin sentyabrında cənab Prezident fakültəmizin açılışını etdi. Bunun özü təhsilə, o cümlədən Qarabağ Universitetinə və yeni yaradılan Tibb və sağlamlıq elmləri fakültəsinə böyük diqqətin təzahürüdür. Həmçinin bu, universitetdə çalışan kollektivin hər birinin üzərinə böyük bir məsuliyyət qoyur. Biz universitetimizə ali dərəcədə göstərilən diqqət və qayğıdan yararlanaraq işimizi günün tələbləri səviyyəsində qururuq.

Fakültəmizin fəaliyyətinə Elm və Təhsil Nazirliyinin və universitet rəhbərliyinin də xüsusi diqqət və qayğısını daim hiss edirik. Fakültəmizin dekanı Samir Babayev Azərbaycan, Türkiyə və ABŞ-də tibb təhsili almış və uzun illər ABŞ-nin ən məşhur universitet və klinikalarında akademik fəaliyyət göstərmiş və rəhbər vəzifələrdə çalışmışdır. Fakültəmizin professor-müəllim heyətinin əksəriyyəti yerli və xarici ölkələrdən gəlmiş yüksəksəviyyəli mütəxəssislərdən ibarətdir. Ümumiyyətlə, kadr heyətinin seçimi zamanı fakültənin fəaliyyətinin beynəlxalq standartlara uyğun təşkili üçün vacib olan bilik və bacarıqlara sahib peşəkar mütəxəssislərə üstünlük verilir.

Fakültəmizin dünyanın müxtəlif məşhur universitetlərində və tibb mərkəzlərində çalışan tibb və tibb təhsili ekspertlərindən ibarət 60 nəfərlik məsləhət şurası vardır. Tibb və sağlamlıq elmləri fakültəsinin yaradılması və idarə olunmasında, tədris proqramının qurulmasında onların məsləhətləri ilə yola çıxırıq.

## Qarabağ Universitetində ölkəmiz üçün çox savadlı kadrlar hazırlanacaq

Dosent M.Orucov deyir ki, Tibb və sağlamlıq elməri fakültəsində hazırda 100 tələbə birinci kursda təhsil alır. Onun sözlərinə görə, fakültənin tədris proqramı bir sıra özəlliyi ilə seçilir:

- Birinci özəllik peşələrarası təhsil modelinin tətbiqidir. Fakültədə iki ixtisas var: Tibb vəTibb bacılığı/tibb qardaşlığı. İlk kursda hər iki ixtisasın tələbələri bir yerdə və eyni tədris proqramı ilə təhsil alacaqlar. İkinci özəllik inteqrə olunmuş spiral tədris proqramıdır. Belə ki, klassik tibb təhsili modelində olduğu kimi, tibbi biologiya və genetika, insan anatomiyası, histologiya, tibbi biokimya, normal fiziologiya, patologiya, tibbi mikrobiologiya və immunologiya və digər fənlər ayrı-ayrılıqda deyil, bir-biri ilə əlaqəli şəkildə kompleks tədris olunacaq. İlk 3 ildə hər bir tədris semestri özü iki bloka bölünür. Hər bir blokun da öz mövzusu var. Blokdakı hər bir dərsin mövzusu isə müxtəlif fənlərin uyğun məlumatları əsasında tərtib olunur. Tədris proqramı fənləri əvəz edən 5 xətlə davam edir: Elm (Tibb və sağlamlıq elmlərinin əsasları), Bacarıqlar, Tədqiqat, İcma yönümlü təhsil, Sənət və insanlıq. İlk illərdən təməl tibb elmlərinin tədrisi az miqdarda da olsa, klinik məlumatlarla dəstəklənəcək. 4-cü kursdan başlayaraq isə tələbələr əsasən klinik istiqamətdə dərslər alacaqlar. Bu zaman təməl tibb elmlərinin tədrisi də müvafiq olaraq davam edəcəkdir. Bir sözlə, çox maraqlı və inteqrativ təhsil proqramı seçilib. Dünyanın müasir universitetlərində tətbiq olunan proqramları araşdırıb ən yaxşılarını götürərək tətbiq etməyə çalışırıq.

Eyni zamanda güclü maddi-texniki bazamız var. Fakültənin tədris korpusu müasir tələblərə cavab verən dərs otaqları və avadanlıqlarla təchiz edilib. Həmçinin tədris və elmi-tədqiqat laboratoriyaları və Simulyasiya Mərkəzi tələbələrin istifadəsindədir. Fakültəmizin bir özəlliyi də Qarabağ Universitetinin klinikası ilə birgə fəaliyyət göstərməsidir. Müəllimlərimizin demək olar ki, böyük əksəriyyəti klinikada həkim kimi də çalışırlar. Nəzəri bilikləri əldə edən tələbələrimiz praktik vərdişlərin əksəriyyətinə Simulyasiya Mərkəzi ilə yanaşı klinikada yiyələnəcəklər.

Bir sözlə, Qarabağ Universitetini, eləcə də Tibb və sağlamlıq fakültəsini ölkədə, regionda və dünyada tibb təhsilində öncül elm və təhsil mərkəzlərindən birinə çevirmək arzumuzdur. İnanırıq ki, bu reallaşacaq və Qarabağ Universitetində ölkəmiz üçün çox savadlı və təcrübəli kadrlar hazırlanacaq.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

# Zəngilan rayonunun Məmmədbəyli, Ağdamın Xıdırlı kəndlərinə və Xocavəndin Qırmızı Bazar qəsəbəsinə yola salınmış ailələrə evlərinin açarları təqdim edilib





Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış davam etdirilir. AZƏRTAC xəbər verir ki, bu mərhələdə Zəngilan rayonunun Məmmədbəyli kəndinə 33 ailə - 177 nəfər köçürülüb. Dünən səhər saatlarında yola salınan ailələr doğma yurdlarına çatıblar.

Zəngilan rayonunun Məmmədbəyli kəndinə köçən ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Köç karvanı ilə Məmmədbəyli kəndinə çatan ailələrə dünən evlərinin açarları təqdim olunub.

Açarların təqdim olunması mərasimində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

Ailələr sevinclə açarları qəbul edərək, evlərində məskunlaşıblar.

Məmmədbəyli kəndi bu gün 33 ailə olmaqla, 177 nəfərə qucaq açıb. Kəndə qədəm qoyan ailələr sevinc göz yaşları ilə doğma yurdlarına qovuşublar.



* * *

Dünən Xocavəndin Qırmızı Bazar qəsəbəsinə 16 ailə olmaqla 55 nəfər köçürülüb. Onlar respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir. Dünən Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsinə növbəti köç prosesi gerçəkləşib, səhər saatlarında yola salınan ailələr doğma yurdlarına qovuşublar.

Qırmızı Bazar qəsəbəsinə çatan ailələrə evlərinin açarları təqdim olunub.

Qırımızı Bazara köçən ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub.

Açarların təqdim olunması mərasimində Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

Ailələr sevinclə açarları qəbul edərək, öz evlərində məskunlaşıblar.

* * *



Noyabrın 28-də Ağdam rayonunun Xıdırlı kəndinə növbəti köç olub. Bu mərhələdə Xıdırlı kəndinə gələn 48 nəfərdən ibarət 13 ailəyə mənzillərin açarları təqdim olunub.

Mərasimdə Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər.

Xıdırlıya köç karvanı ilə qayıdanlar respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.





# REGİONLAR

## Füzulidə “m10” və Milliön Telesatış mərkəzi istifadəyə verilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi və "PashaPay" MMC-nin birgə təşkilatçılığı ilə "Qayıt iş" layihəsi çərçivəsində Füzuli şəhərində "Bir ekosistem" daxilində "m10" və Milliön Telesatış mərkəzi istifadəyə verilib.**






Tədbirdə əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov, "Bir ekosistem"in rəsmi nümayəndələri olan "Kapital Bank"ın İdarə Heyətinin sədri Fərid Hüseynov və "PashaPay" MMC-nin baş icraçı direktoru Samir Məmmədov iştirak ediblər.

Mərkəzdəki iş masalarında, o cümlədən "m10" Çağrı mərkəzində xidmətlərin göstərilməsi prosesi nəzərdən keçirilib.

Qeyd edilib ki, dövlət və özəl sektor əməkdaşlığının daha bir uğurlu nümunəsi olan "Qayıt iş" layihəsi işğaldan azad edilmiş ərazilərin sakinləri üçün dayanıqlı iş yerləri yaratmaq məqsədi daşıyır. Həmçinin layihə bölgədə sosial-iqtisadi inkişaf proseslərinə, rəqəmsal ödəniş xidmətlərinin genişlənməsinə töhfə verməyə hədəflənib.

Füzuli şəhərinə qayıdan sakinlərdən 14 nəfər Dövlət Məşğulluq Agentliyinin göndərişi əsasında "m10" və Milliön Telesatış mərkəzində işlə təmin edilib. Yaxın vaxtlarda mərkəzin işçilərinin sayının 20 nəfərə çatdırılması nəzərdə tutulur.

"PashaPay" MMC tərəfindən namizədlər üçün rəqəmsal ödəniş sistemləri, müştəri xidmətləri və telesatış sahələri üzrə peşə və yumşaq bacarıqların inkişafına yönəlmiş təlimlər də təşkil olunur.

Azad edilmiş ərazilərə köçürülmüş vətəndaşların doğma yurd yerlərində məşğulluğunun təminatına yönələn birgə layihələrin qarşıdakı dövrdə də davam etdiriləcəyi bildirilib.

## Aqrar sektorun inkişafında Ağcabədi nümunəsi

**Böyük iqtisadi potensiala malik Ağcabədi ölkənin aqrar sektorunda lokomotiv funksiyasını uğurla reallaşdırmaqdadır. Prezident İlham Əliyevin ənənəvi kənd təsərrüfatı sahələrini inkişaf etdirmək barədə tapşırıq və tövsiyyələri bu gün Ağcabədi kəndlisinin fəaliyyətində əsas istiqaməti müəyyən edir.**



Torpağı bərəkətli, insanları əməksevər bu bölgədə pambıqçılıq hələ sovet dönəmində kəndlilərin əsas gəlir mənbəyi, yaxşı dolanışığın, xoş güzəranın əsas şərti olmuşdur. Taleyini ana torpağa, halal zəhmətə bağlayan, şüurlu əməyini pambıqçılığa həsr edən kənd əməkçiləri öz peşə vərdişlərini ildən-ilə artırır, gerçək həyat məktəbinin bacarıqlı müdavimləri kimi şöhrət qazanırdılar. Beləcə hər kəndin, hər elin, hər obanın sayılıb-seçilən əmək qəhrəmanları yetişir, onların hünərinə şeirlər yazılır, nəğmələr qoşulurdu.

Prezident İlham Əliyev ənənəvi kənd təsərrüfatı sahələrini, o cümlədən pambıqçılığı inkişaf etdirməyin vacib olduğuna önəm verərkən bu qeyri-neft sektorundakı mövcud bacarıqlı kadr potensialına və dövlətin artan iqtisadi qüdrətinə güvənirdi. Ən böyük hakim olan zaman bir daha sübut etdi ki, dövlət başçısının böyük uzaqgörənlik müəyyən etdiyi istiqamət, imzaladığı qərarlar sayəsində kəndlərimizdə həyat canlandı, kəndlilərin faydalı məşğulluğu istiqamətində böyük uğurlar qazanıldı.

Ağcabədi ölkənin qabaqcıl pambıqçılıq rayonu olaraq bu canlanmanın dinamik inkişafın ön sıralarında yer alır. Rayonun təsərrüfatlarında pambıqçılığın ildən-ilə inkişafı məmnunluq doğurur. Keçən il rayon üzrə 13112 hektar sahədə pambıq əkilib-becərilmiş, əlverişsiz hava şəraitinin yaratdığı çətinliklərə baxmayaraq, 37277 ton pambıq istehsal olunmuşdur. Strateji məhsul olan pambığın bol olması üçün dövlət də öz növbəsində maraqlıdır. Xam pambığın emalından alınan mahlıcın ixracı ölkəyə böyük həcmdə valyuta gətirir. Eyni zamanda pambıqçılığın inkişafı kəndlərdə əhalinin faydalı məşğulluğunda əhəmiyyətli rol oynayır. Təsadüfi deyil ki, keçən il təhvil verilmiş pambığa görə bütövlükdə rayon pambıqçılarına dövlət 7,1 milyon manat subsidiya ödəmişdir.

Cari təsərrüfat ilində Ağcabədi pambıqçılarının qazandıqları nəticələr daha uğurludur. Bu il rayon üzrə 1212 nəfər torpaq mülkiyyətçisi ilə müqavilə bağlanaraq 11822 hektarda pambıq əkilmişdir. Çəkilən zəhmət, aqrotexniki tələblərə ciddi əməl olunması sayəsində tarlalarda bol məhsul yetişmişdir. Məhsulu tez və itkisiz yığıb tədarük etmək üçün bütün qüvvələr, əmək ehtiyatları və mövcud yığım-nəqliyyat texnikası bacarıqla səfərbər edilmişdir. Bu gün 55 pambıqyığan maşının, 189 traktorun, 316 traktor yedəyinin və digər maşın mexanizminin gücündən səmərəli istifadə olunur.

İndiyədək rayon üzrə 38 min tondan çox pambıq istehsal olunmuşdur. Keçən ildəkindən 1291 hektar az pambıq əkilməsinə baxmayaraq, məhsul istehsalı ötən illərlə müqayisədə hələlik 800 tondan çox artmışdır. Keçən il hər hektarın orta məhsuldarlığı 28,4 sentner olmuşdur. Bugünkü nəticə isə 32 sentnerdir. Hələ məhsulu yığılmamış xeyli sahə var. Hədəf 35 sentner səviyyəsini aşmaqdır. Pambıqçıların əmək bəhsləşməsində fermerlərdən Çingiz Abbasov, Xamməd Məmmədli, Novruz Məmmədov, Üzeyir Mürşüdov və Sadiq Gülmalıyev daha yüksək nəticələr qazanıblar. Onların rəhbərlik etdikləri fermer təsərrüfatlarında hər hektar pambıq əkininin orta məhsuldarlığı 50-55 sentnerdir.



Rayonda pambıqçılığın inkişafına "Prime Cotton", "Azərpambıq", "P-Aqro", "Cotton Trade" MMC-lərinin Ağcabədi filialları sanballı töhfələr verirlər. Hindarx qəsəbəsi ərazisində fəaliyyət göstərən "Ağcabədi taxıl" Aqroparkında işlərin müasir texnologiyalar əsasında təşkili xüsusən diqqət çəkir. Aqropark "Cotton Trade" MMC ilə müqavilə bağlayaraq cari ildə 1042,6 hektarda pambıq əkmişdir. Arqoparkın rəhbəri Cəmşid Ağayev deyir ki, 2015-ci ildən fəaliyyət göstərirlər. Ümumi istifadədə 2500 hektar torpaq sahəsi var. Mütərəqqi üsulların tətbiqinə üstünlük verildiyi aqroparkda daimi işçi sayı 135 nəfərdir. Mövsümi işlər zamanı isə işçi sayı artaraq 350-400 nəfərə çatır. Orta aylıq əməkhaqqı isə 800 manatdan çoxdur. Aqroparkda qabaqcıl təcrübədən, mütərəqqi üsullardan bacarıqla istifadə edilməsi işin səmərəsini artırır, istehsal olunan məhsulların maya dəyərinə əhəmiyyətli təsir göstərir, məhsuldarlığı yüksəldir.

Cari ildə pambıq tarlaları pivot tipli suvarma sistemləri vasitəsilə suvarılmışdır. Bu mütərəqqi üsulun tətbiqi hesabına pambıq kollarının suya olan tələbatı aqrotexniki normalar səviyyəsində ödənilmiş, su itkisinə yol verilməmişdir. Aqropark pambıqçılarının builki hədəfi hər hektardan azı 40 sentnerdir. Hazırda təsərrüfatın tarlalarında 4 pambıqyığan kombayn işləyir. Hələ məhsulu yığılmamış xeyli sahə vardır. Onu da qeyd etmək lazımdır ki, aqroparkın Biləsuvar rayonu ərazisində pambıq emalı zavodu fəaliyyət göstərir. Zavod gün ərzində 100 tondan çox pambıq emal etmək gücünə malikdir.

Aqroparkın geniş fəaliyyət dairəsi ölkədə aqrar sektorun yeni müstəvidə dinamik inkişafının bir göstəricisidir, göz önündəki uğur nümunəsidir. Cari təsərrüfat ilində 600 hektar sahədə taxıl əkib-becərən təsərrüfat ortalama 60 sentner civarında məhsuldarlığa nail olub. Taxıl yerinə təkrar qarğıdalı əkərək rekord nəticə qazanıb. Hər hektardan 120 sentner qarğıdalı dəni götürülüb. Aqroparkda bağçılığa da böyük önəm verilir. Bu il aqroparkda 123 hektar intensivtipli bağ salınmışdır. Həmçinin təsərrüfatın 110 hektar intensivtipli badam bağı var.

Aqroparkda güclü texnika parkı yaradılıb. Sahələrdə ABŞ-dən gətirilmiş 26 pivot suvarma sistemi quraşdırılıb. Güclü əkin traktorları, pambıq və taxılyığan kombaynlar gətirilib. Əkinlərə yemləmə gübrələri verilməsində, xəstəlik və zərərvericilərə qarşı mübarizədə dronlardan istifadə olunur. Aqroparkda İsrail texnologiyası ilə yüksəkkeyfiyyətli yem istehsal olunur. Məhsul İsrail və İtaliya istehsalı olan avadanlıqların vasitəsilə qablaşdırılır. Dənli bitkilərin qurudulması üçün gücü saatda 50 tona çatan Fransa istehsalı olan müasir avadanlıq quraşdırılıb. Aqroparkın 30 min ton dənli bitki saxlamaq imkanı olan anbarı da var.

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov başa çatmaqda olan təsərrüfat ilinin uğurlarından söhbət açaraq vurğuladı ki, qazanılan nailiyyətlər Prezident İlham Əliyevin ölkədə aqrar sektorun inkişafına göstərdiyi davamlı qayğı və diqqətin nəticəsidir: "Dövlətin ayırdığı subsidiyalar bu gün kəndlini torpağa daha möhkəm bağlayır. Prezident İlham Əliyev kənd təsərrüfatında ənənəvi sahələri, xüsusən pambıqçılığı inkişaf etdirməyi vəzifə olaraq qarşıya qoyarkən biz rayon rəhbərləri olaraq ciddi çətinliklərlə qarşılaşdıq. Torpaqdan küsdürülmüş kəndlini yenidən pambıq tarlasına qaytarmaq, onlara doğru yol göstərmək üçün xeyli maarifləndirici işlər görməli olduq. Zaman göstərdi ki, dövlət başçısının göstərdiyi doğru yoldur. Bir neçə il əvvəl pambığa arxa çevirən torpaq mülkiyyətçiləri indi elliklə pambıq əkib-becərir, halal zəhmətləri ilə ailələrinin firavan həyatlarını təmin edirlər".

2025-ci il başa çatır. Süfrəsi bol çörəkli Ağcabədi kəndlisinin sabaha inamı böyükdür. Yeni ilin uğurlar gətirəcəyi, həyatın daha firavan, ovqatın daha xoş olacağı heç kəsdə şübhə doğurmur.

*Lazım QULİYEV,*
*"Azərbaycan".*

## Meyvə bağlarına dəymiş zərərə görə rekord məbləğdə sığorta ödənilib

**Nektarin və badam bağlarına dəymiş zərərə görə fermerlərə təqribən 1 milyon manat sığorta haqqı ödənilib.**

2025-ci ilin noyabr ayında Aqrar Sığorta Fondu tərəfindən ölkədə meyvə bağları üzrə rekord məbləğdə aqrar sığorta ödənişi həyata keçirilib.

Xaçmaz rayonunun Tell kəndində yerləşən "Naxo Group" MMC şirkətinə məxsus nektarin bağı güclü şaxtalar nəticəsində zərər görüb, rayonun Cığatay kəndində yerləşən "Trek Service Engineering" MMC şirkətinə məxsus badam bağında isə sel-subasma hadisəsi baş verib. Hər iki təsərrüfat məhsul itkisi və zərərlə üzləşib.

Sözügedən təsərrüfatlarda şaxtavurma və sel-subasma hadisəsi barədə müraciət daxil olduqdan sonra Aqrar Sığorta Fondu tərəfindən əraziyə müstəqil aqrar sığorta ekspertləri yönləndirilib. Ekspertlər dəfələrlə əraziyə gələrək baş vermiş hadisəni araşdırıb, bağa dəymiş zərərin xarakterini və həcmini müəyyən ediblər. Zərərin miqyasını nəzərə alaraq Aqrar Sığorta Fondunun rəhbər şəxsləri və mütəxəssisləri də həmin təsərrüfatda vəziyyətlə tanış olublar.

Araşdırmalar nəticəsində meyvə bağlarında miqdar itkisinin baş verdiyi müəyyən edilib. Aqrar Sığorta Fondu tərəfindən aparılan hesablamalar əsasında təsərrüfatlara - "Naxo Group" MMC-yə 712482 manat, "Trek Service Engineering" MMC-yə isə 200520 manat məbləğində aqrar sığorta ödənişi təyin edilib.

Bu, indiyədək Aqrar Sığorta Fondu tərəfindən meyvə bağlarına ödənilən ən böyük sığorta ödənişidir.

Ödəniş alan təsərrüfat nümayəndələri aqrar sığorta sisteminin işindən razı qalıb və bütün fermerləri təsərrüfatlarını sığortalamağa çağırıblar. "Naxo Group" MMC-nin baş aqronomu Ahmet Turqut aqrar sığortanın bütün təsərrüfatlar üçün vacib olduğunu bildirib:

"Əkinçilik, xüsusilə də meyvə bağı təsərrüfatı olan fermerlər üçün aqrar sığorta çox önəmlidir, çünki təbiət hadisələri baş verəndə onlardan qorunmaq üçün başqa bir mexanizm mövcud deyil. Təsərrüfatımızda mart ayında baş verən şaxtavurma hadisəsi zamanı əlimizdə olan bütün imkanlar və texniki vasitələrlə zərəri azaltmağa çalışsaq da, meyvə bağına zərər dəydi. Bizə dəyən zərər Aqrar Sığorta Fondu tərəfindən kompensasiya edildi. Bu dəstəyə görə mexanizmi yaradan ölkə rəhbərliyinə təşəkkür edirik. Bütün fermerləri dövlətin bu dəstəyindən istifadə edərək təsərrüfatlarını sığortalamağa çağırıram".



Aqrar Sığorta Fondunun İdarə Heyəti sədrinin müşaviri Rəvan Səmədli isə bildirib ki, aqrar sığorta mexanizmi ümumilikdə 41 bitki növünü sığorta edir: ""Naxo Group" və "Trek Service Engineering"in meyvə bağlarında şaxtavurma və subasma hadisələri ilə bağlı müraciət daxil olduqdan sonra fondun mütəxəssisləri və ekspertləri təsərrüfatlara gələrək zərəri qiymətləndiriblər. Nəticə olaraq təsərrüfatlara sığorta ödənişi həyata keçirilib".

Xatırladaq ki, Aqrar Sığorta Fondu meyvə bağlarını bir çox risklərdən - dolu, qasırğa, fırtına, sel və subasma, leysan, şaxtavurma (donvurma), normadan artıq qar yağıntıları, vəhşi heyvanların hücumu, üçüncü şəxslərin hərəkətləri, yanğın və dolu yağması nəticəsində keyfiyyət itkisi kimi risklərdən sığorta edir. Eləcə də aqrar sığorta meyvə bağlarını bitki xəstəlikləri, zərərvericilər və xüsusi təhlükəli ziyanvericilərin yayılması, habelə zəlzələ, torpaq sürüşməsi və ildırım nəticəsində yarana bilən risklərdən qoruyur.

Dövlət tərəfindən təqdim olunan 50 faizlik sığorta haqqı güzəşti nəticəsində fermerlər sığorta haqqının yalnız yarısını ödəyirlər, digər hissəni isə dövlət qarşılayır.

Aqrar Sığorta Fondu fermerlərə xatırladır ki, hazırda meyvə bağlarının sığortalanması mövsümü başlayıb. Fermer və bağ sahibləri dövlət aqrar sığortası vasitəsilə təsərrüfatlarını çoxsaylı risklərdən sığorta edə bilərlər.

Meyvə bağlarının sığortalanması üçün sığorta haqlarını fermerlər özləri də müstəqil şəkildə Aqrar Sığorta Fondunun rəsmi internet səhifəsindəki "Bitkiçilik kalkulyatoru" vasitəsilə hesablaya bilərlər (https://asf.gov.az/bitkicilik-kalkulyatoru).

Aqrar sığortanın əhatə etdiyi məhsulların sığorta şərtləri və tarifləri ilə Aqrar Sığorta Fondunun rəsmi internet səhifəsində ətraflı tanış olmaq mümkündür. Əlavə məlumatları ASF-nin sosial şəbəkə hesablarını izləməklə və 1651 qısa nömrəsi ilə əlaqə saxlayaraq əldə etmək olar.

*"Azərbaycan"*

## Qazaxda gələn ilin məhsulu üçün görülən işlərin vəziyyəti müzakirə olunub

**Qazax rayonunda 2026-cı ilin məhsulu üçün aparılan səpin işləri və payız suvarması ilə bağlı görülən işlər müzakirə edilmişdir.**

Tədbirdə rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış edərək keçirilən müşavirənin əhəmiyyətindən danışmış, qeyri-neft sektorunun inkişafı, kənd təsərrüfatında məşğulluğun artırılması, vətəndaşların rifah halının yaxşılaşdırılmasının dövlət siyasətinin prioritet sahələrindən olduğunu diqqətə çatdırmışdır. Ölkədə kənd təsərrüfatının inkişafı istiqamətində həyata keçirilən islahatların müsbət nəticələr verdiyini deyən R.Babaşov kənd təsərrüfatının inkişafının ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində aparıcı rola malik olduğunu vurğulamışdır: "Odur ki, Qazax rayonunda da aqrar sektorun inkişafına böyük diqqət və qayğı göstərilir. Bunun nəticəsidir ki, rayonda əkin sahələri son illər bir neçə dəfə artmış, məhsuldarlıq xeyli yüksəlmişdir".



RİH-in başçısı əkin sahələrinin vaxtında suvarılması, əkinçilərin suvarma suyu ilə təmin olunması üçün hər il olduğu kimi, bu il də qabaqlayıcı tədbirlərin görüldüyünü diqqətə çatdıraraq demişdir ki, rayonda əkin sahələrinin vaxtında suvarılması, fermerlərin suvarma suyundan korluq çəkməmələri üçün sudan qənaətlə istifadə edilməsinə diqqətlə yanaşılır.

Sonra Qazax Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Elxan Vəkilov çıxış etmişdir. Məlumat vermişdir ki, 2026-cı ilin məhsulu üçün 6800 hektarı arpa, 4700 hektarı buğda olmaqla, 11500 hektarda taxıl səpini nəzərdə tutulmuşdur. Son məlumata görə, 5480 hektarda arpa, 4160 hektarda buğda, ümumilikdə 9640 hektardas səpin aparılmışdır.

Bitki Mühafizəsi İdarəsinin rəisi Faiq Bəkirov isə bildirmişdir ki, indiyəcən 133,3 hektarda zərərvericilərə qarşı kimyəvi mübarizə işləri aparılmışdır. 8 kənddə, o cümlədən İkinci Şıxlı, Birinci Şıxlı, Yuxarı Salahlı və Aslanbəylidə 28,30 hektarda qəhvəyi mərmər bağacığına qarşı kimyəvi mübarizə tədbirləri görülmüşdür.

Müşavirədə aqrar sektorla əlaqəli olan idarə və təşkilatlara tapşırıqlar verilmiş, nöqsanların tezliklə aradan qaldırılması üçün bütün imkanlardan maksimum istifadə edilməsinin vacibliyi diqqətə çatdırılmışdır.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Bakıda TDT-nin media və informasiya üzrə məsul nazirlərinin, yüksəkvəzifəli rəsmilərinin 7-ci toplantısı olub



**Noyabrın 28-də Bakıda Türk Dövlətləri Təşkilatının (TDT) media və informasiya üzrə məsul nazirlərinin və yüksəkvəzifəli rəsmilərinin 7-ci toplantısı keçirilib.**

AZƏRTAC xəbər verir ki, toplantıda çıxış edən Türk Dövlətləri Təşkilatının baş katibinin müavini **Ömer Kocaman** son illərdə media sahəsində əməkdaşlığın getdikcə daha sistemli və institusional çərçivədə inkişafını qeyd edərək üzv dövlətlərin media qurumları arasında məzmun mübadiləsinin genişləndirilməsi, strateji kommunikasiya sahəsində koordinasiyalı fəaliyyətin gücləndirilməsi və dezinformasiyaya qarşı çevik müdafiə mexanizmlərinin formalaşdırılmasının türk dünyası üçün əsas prioritetlərdən birinə çevrildiyini vurğulayıb. O, təşkilatın bu əməkdaşlıq xəttini daha da dərinləşdirməkdə qərarlı olduğunu, xüsusilə informasiya təhlükəsizliyi və strateji kommunikasiya istiqamətlərində yeni təşəbbüslərin və birgə layihələrin icrasının nəzərdə tutulduğunu bildirib.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru **Əhməd İsmayılov** bildirib ki, TDT-nin media və informasiya sahəsində əməkdaşlığı üzv ölkələri ortaq tarix, mədəni və dil birliyi ətrafında birləşdirən strateji platforma kimi xüsusi əhəmiyyət daşıyır. O, informasiya mübadiləsinin genişləndirilməsi, saxta xəbərlər və hibrid təhdidlərə qarşı birgə mübarizə, eləcə də ümumtürk informasiya məkanının daha dayanıqlı və koordinasiyalı şəkildə qurulmasının bu əməkdaşlığın əsas hədəflərindən olduğunu vurğulayaraq Azərbaycan tərəfinin qlobal media trendlərinin təhlili, media savadlılığının artırılması və strateji kommunikasiya üzrə birgə təşəbbüslərin davam etdirilməsində maraqlı olduğunu diqqətə çatdırıb.

Qazaxıstanın mədəniyyət və informasiya nazirinin müavini **Kanat İskakov** bildirib ki, türk dünyası ortaq tarixi, mədəniyyəti və digər sahələrdə irsi olan coğrafiyadır. Biz bu gün müştərək kontent və layihələrimizi həyata keçiririk. Ortaq proqramlarımız var ki, bu da bizim üçün konkret nəticələrin əldə edilməsi baxımından böyük fürsətdir. "Qazaxıstan xalqlarımızın və ölkələrimizin rifahına xidmət edən təşəbbüslərə açıqdır və təklifləri var. Biz sənədli film layihələrini, turizm, mədəniyyət və digər TV məzmunlarını hazırlamalıyıq. Bu istiqamətlərdə müəyyən işlər var, amma onları canlandırmaq lazımdır. Uşaqlar üçün ortaq mədəniyyət əsasında cizgi filmləri təqdim etməliyik. Bu, xalqlarımızı bir-birinə daha da yaxınlaşdıracaq. Media sahəsində hansısa material yaradırıqsa, süni intellektdən elə istifadə etməliyik ki, yaradılan məlumatın etibarlılığı təmin olunsun", - deyə nazir müavini vurğulayıb.

Qırğız Respublikasının Azərbaycandakı səfiri **Maksat Mamıtkanov** diqqətə çatdırıb ki, bu gün TDT-yə üzv ölkələr müxtəlif sahələrdə geniş əməkdaşlıq edirlər. O deyib: "Bu əməkdaşlığın əsas aparıcı sütunlarından biri də informasiya və media sahəsidir. Çünki düzgün məlumatın vaxtında və etibarlı şəkildə təmin edilməsi, qarşılıqlı faydaya əsaslanan sağlam informasiya axınlarının yaradılması bizim üçün böyük əhəmiyyət kəsb edir". Səfir vurğulayıb ki, rəqəmsal platformaların sürətlə inkişafında yeni çağırışlar və təhdidlər də ortaya çıxarır. Təhlükəsiz, şəffaf və ədalətli media mühiti yaratmaq bu təhdidlərin qarşısının alınmasına mühüm töhfə verir.

Türkiyə Prezidenti Administrasiyasının İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbərinin müavini **Ferhat Pirinççi** isə bu toplantının yalnız bir iş platforması deyil, eyni zamanda ortaq coğrafiyamızın kommunikasiya, media və informasiya sahəsində daha güclü birlik yaratması üçün strateji addım olduğunu deyib. O həmçinin bildirib: "Hər bir üzv dövlətin media, informasiya və kommunikasiya sahəsində ortaq mövqeyə sahib olduğunu görürük. Türk dövlətlərinin təmsilçiləri olaraq yeni həll mexanizmlərini inkişaf etməyimiz üçün bu toplantını mühüm fürsət kimi qiymətləndiririk. TDT regional bir qurum olmaqdan çıxaraq qlobal bir aktor olma yolunda irəliləməkdə və nümunəvi əməkdaşlıq modelinə çevrilməkdədir. Bu yanaşma ilə Türk Dövlətləri Təşkilatının qlobal beynəlxalq aktora çevrilməsi, regional səviyyəni aşaraq dünya miqyasında bir çox məsələdə söz sahibi olması olduqca önəmlidir. UNESCO tərəfindən Dünya Türk Dili Ailəsi Gününün elan edilməsi isə türk dünyası üçün böyük bir qazanc olmaqla, türk dillərinin zənginliyini, dərin köklərə malik mədəni irsini və dünya sivilizasiyaları içindəki önəmli yerini bir daha göstərib".

Özbəkistan Prezidentinin Administrasiyası yanında Kütləvi İnformasiya Vasitələri üçün Məzmunun İstehsalı Mərkəzinin direktoru **Kobuljon Axmedov** nəzərə çatdırıb ki, biz artıq media sahəsində gələcək əməkdaşlıq istiqamətlərini formalaşdırırıq. Hazırladığımız tədbirlər planının həyata keçirilməsi ilə bağlı müzakirələr davam edir və bu prosesdə üzv dövlətlərin fəal iştirakı böyük əhəmiyyət daşıyır. Peşəkarlıq səviyyəsinin artırılması, təcrübə mübadiləsi, ortaq məzmunun yaradılması və informasiya mühitinin gücləndirilməsi qarşıdakı əsas prioritetlərimizdir.

Tədbirdə həmçinin TDT-nin müşahidəçi üzvü Şimali Kipr Türk Respublikasının xarici işlər naziri **Tahsin Ertuğruloğlu** çıxış edərək bildirib ki, media və informasiya məsələləri abstrakt sahələr deyil. Media həm yaddaşımızı, həm kimliyimizi, həm də mübarizəmizi özündə ehtiva edən strateji bir alətdir. Ortaq media əməkdaşlığının gücləndirilməsinin xüsusi əhəmiyyət kəsb etdiyini qeyd edən nazir bildirib: "Şimali Kipr TDT çərçivəsində yaradılan mexanizmlərə, eləcə də media sahəsində əməkdaşlığa hazırdır. Düşünürəm ki, bu addım türk dünyasının həmrəyliyini gücləndirir və informasiya sahəsində daha balanslı, obyektiv mühitin formalaşmasına töhfə verir. Biz artıq rəqəmsal təbliğatın, manipulyativ məlumatların və dezinformasiyanın ciddi təhlükə yaratdığı bir dövrdə yaşayırıq. Bu səbəbdən peşəkar təlim proqramlarının keçirilməsi, jurnalistlərin, gənc kontent istehsalçılarının və media mütəxəssislərinin bacarıqlarının artırılması son dərəcə vacibdir. Ortaq fəaliyyətlərimiz türk dünyasının media gücünü daha da artıracaq və səsimizin qlobal arenaya daha səmərəli şəkildə çıxmasına imkan verəcək".

Toplantı çərçivəsində üzv dövlətlərin qarşıdakı dövr üçün prioritet fəaliyyət istiqamətləri nəzərdən keçirilib, Türk Dövlətləri Təşkilatının media və informasiya üzrə məsul nazirlərinin və yüksəkvəzifəli rəsmilərinin 8-ci toplantısının və Media və informasiya üzrə işçi qrupunun 13-cü iclasının Qazaxıstanda keçirilməsi qərara alınıb.

Türk Dövlətləri Təşkilatının media və informasiya üzrə məsul nazirlərinin və yüksəkvəzifəli rəsmilərinin 7-ci toplantısının sonunda Kommünike qəbul edilib.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Elm və təhsil naziri Emin Əmrullayev Naxçıvan şəhərində vətəndaşların müraciətlərini dinləyib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, qəbulda Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur sakinləri iştirak ediblər.

Qəbuldan əvvəl Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Qəbul zamanı vətəndaşlar xarici kvalifikasiyaların tanınması, iş yerinin dəyişdirilməsi, müəllimlərin işə qəbulu və digər məsələlərlə bağlı müraciətlər ediblər.

Elm və təhsil naziri qəbula yazılmış vətəndaşları dinləyib, müraciətlərin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.

* * *

Energetika naziri Pərviz Şahbazov Xızı rayon Heydər Əliyev Mərkəzində vətəndaşlarla görüşüb.

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə vətəndaşların qaz təchizatı, kəndin qazlaşdırılması, qaz sayğaclarının quraşdırılması, elektrik enerjisi təchizatı, küçə işıqlandırılması, elektrik dirəklərinin istismar vəziyyəti, elektrik xətlərinin çəkilməsi, işlə təminat və digər məsələlərə dair müraciətləri dinlənilib. Qaldırılan məsələlərin mövcud normativ-hüquqi aktlara uyğun şəkildə araşdırılması və operativ həlli məqsədilə müvafiq tapşırıqlar verilib.

Nazirliyin aidiyyəti struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda Bakı və Sumqayıt şəhərləri, Xızı və Abşeron rayonlarından olan 27 vətəndaş iştirak edib.

# Azərbaycan Tibb Universitetində Mədəniyyətlərarası Tələbə Festivalı

**Noyabrın 28-də Azərbaycan Tibb Universitetində "Müxtəlifliyi yaşa, birliyə töhfə ver" şüarı altında Mədəniyyətlərarası Tələbə Festivalı keçirilib. Müxtəlif ölkələrdən olan tələbələrin bir araya gələrək, adət-ənənələrini və özünəməxsus bacarıqlarını paylaşdıqları festivalda fərqli mədəniyyətlər təqdim olunub.**

AZƏRTAC xəbər verir ki, festivalda Liviya, Fələstin, Sudan, Özbəkistan, Misir, Türkiyə, Pakistan, Belarus və Mərakeşin ölkəmizdəki səfirləri, eləcə də İraq və Kolumbiya səfirliklərinin nümayəndələri iştirak ediblər.

Əvvəlcə festival iştirakçıları və qonaqlar 23 ölkənin mədəniyyətini özündə əks etdirən guşələrə baş çəkiblər. Müxtəlif xalqların ənənəvi rəqsləri, musiqisi və milli geyimlərindən zövq alan, fərqli ölkələrin mətbəxinə məxsus yeməklərin dadına baxan festival iştirakçıları sənət və sənətkarlıq sərgilərini də maraqla izləyiblər. Həmçinin əl işləri və etnik eksponatlarla tanış olaraq əyləncəli və interaktiv sessiyalar vasitəsilə müxtəlif mədəniyyətləri daha yaxından öyrəniblər.

Festivalın açılışında çıxış edən Azərbaycan Tibb Universitetinin rektoru professor Gəray Gəraybəyli ATU-nun keçdiyi inkişaf yolundan, universitetin mühüm nailiyyətlərindən və bu il təntənə ilə qeyd olunan 95 illik yubileyindən bəhs edib.

Rektor qeyd edib ki, beynəlxalq festival müxtəlif ölkələrin mədəniyyətlərini, adət-ənənələrini öyrənmək məqsədini daşıyır. Bu tədbir ölkələrarası əlaqələrin genişləndirilməsinə böyük töhfə verəcək. Gəray Gəraybəyli diqqətə çatdırıb ki, ATU-da beynəlxalq münasibətlərin inkişafı hər zaman diqqət mərkəzində olub: "Universitetimizdə əcnəbi məzunların ilk buraxılışı 1969-cu ildə baş tutub. Bu o deməkdir ki, ilk beynəlxalq tələbə qəbulu 1963-cü ildə - 62 il əvvəl keçirilib. Bu gün ATU-da 53 dövlətin vətəndaşı olan 2600 tələbə ən yüksək səviyyədə təhsil alır. Bu rəqəm universitetimizin beynəlxalq arenada olan nüfuzunun göstəricisidir".

Professor müasir dünyada multikulturalizm və mədəniyyətlərarası dialoqun rolundan danışaraq ATU-da təhsil alan əcnəbi tələbələrin universitetin həyatına olan töhfə və uğurları haqqında məlumat verib. Bugünkü tədbirdə 23 ölkənin mədəniyyətinin bir araya gəldiyini vurğulayan rektor qeyd edib ki, bu cür beynəlxalq miqyaslı tədbirlər müxtəlif ölkələrdən olan tələbələr arasında dostluq əlaqələrini inkişaf etdirir və eyni zamanda yerli və əcnəbi tələbələr arasında mədəniyyət körpüsü rolunu oynayır.

Festivalda Mərakeş Krallığının səfiri Mohamed Adil Ambarch təbrik nitqi ilə çıxış edib.

Mədəniyyətlərarası Tələbə Festivalı qala-konsertlə yekunlaşıb.

Qeyd edək ki, tədbir çərçivəsində panel sessiyalar da keçirilib.

Dayanıqlı inkişaf məqsədlərinə həsr olunan sessiyada tələbə festivalının əhəmiyyətindən və əsas məqsədlərindən söz açan ATU-nun Stomatologiya fakültəsinin dekanı, dosent Elmira Əliyeva xatırladıb ki, "Dayanıqlı İnkişaf üçün 2030 Gündəliyi"ndə 17 qlobal məqsəd və 169 konkret hədəf yer alır. Dayanıqlı İnkişaf Məqsədləri bütün ölkələr üçün fəaliyyət çağırışıdır. Onlar insanların rifahını yaxşılaşdırmağı və planetimizin qorunmasını təmin etməyi hədəfləyir.

## Dünya olduğu kimi

# Şəkərlə hörülmüş yollar

**Tayvanda aparılan arxeoloji qazıntılar XIX əsrin birinci yarısına aid gözlənilməz tapıntını üzə çıxarıb. Dəmiryolu xətləri üçün aparılan tikinti işləri zamanı inşaatçılar torpaq layları altında qəribə quruluşlu yol fraqmentlərinə rast gəliblər.**



Sonradan arxeoloqların müdaxiləsi bu yolu Tsin imperiyası dövrünə (1644-1911) aid qədim marşrutlardan biri kimi təsdiqləyib. Tədqiqat materialları yolun adi tikinti texnikalarından bir qədər fərqli üsulla hazırlandığını göstərir: əsas konstruksiya üçün gil məhlulu istifadə olunsa da, yolun boşluqları saxsı və kərpic qırıntıları ilə yanaşı, işlənməmiş qamış şəkəri ilə də doldurulub.

Alimlər bildirirlər ki, həmin dövrdə Tayvan şəkər istehsalının inkişaf etdiyi mühüm regionlardan biri sayılırdı. Arxiv sənədlərində o zamanın məmurlarının yaz aylarında yolların səthindən qalxan "şəkər ətirli buxar"ı təsvir etməsi də bunu təsdiqləyir. Yollara şəkər qatılmasının məqsədi ehtimal ki, həm möhkəmliyi artırmaq, həm də yerli resurslardan maksimum istifadə etmək idi. Bu tapıntı təkcə yol tikintisi texnologiyalarının tarixini zənginləşdirmir, həm də qədim inşaat ustalarının dövrün iqtisadi reallıqlarına necə uyğunlaşdıqlarını nümayiş etdirir.

# Roma kölgəsində unudulmuş şəhər

**Rumıniyanın Alba-Yuliya şəhərində aparılan arxeoloji qazıntılar zamanı Qədim Roma koloniyası Aureliya Apulensisin qalıqları aşkarlanıb.**



Avtobus deposunun tikintisi üçün yer hazırlanan zaman aşkar edilən divar izləri, küçə qalıqları və yaşayış məkanları imperator Trayanın hakimiyyəti dövrünə aiddir. Arxeoloqların sözlərinə görə, ərazidəki daş döşəmələr mükəmməl vəziyyətdədir və o dövrün şəhərsalma mədəniyyətinin yüksək səviyyəsini açıq şəkildə nümayiş etdirir.

Qazıntılar zamanı varlı təbəqənin həyat tərzini göstərən yazılı fraqmentlər də tapılıb. Bu yazılar imperiyanın mədəni, sosial və siyasi strukturunun lokal təzahürlərini anlamağa imkan verir. Aureliya Apulensis eramızın 107-108-ci illərində salınmış və uzun müddət Dakiya bölgəsinin əsas inzibati mərkəzlərindən biri olmuşdur. Müasir Avropa tarixində bu ərazi təkcə arxeoloji tapıntı kimi deyil, həm də sivilizasiyalar arasında keçid nöqtəsi kimi böyük dəyərə malikdir.



# Yer qabığının sükutu pozan çatları

**Elm dünyası son illərin ən maraqlı geoloji müşahidələrindən biri ilə qarşılaşıb. Sakit Okeanın şimalında yerləşən Kaskadiya subduksiya zonasında aparılan tədqiqatlar nəticəsində Yerin qabığı daxilində canlı parçalanma prosesi ilk dəfə birbaşa qeydə alınıb.**

Luiziana Dövlət Universiteti ilə beynəlxalq alimlər qrupunun birgə işi göstərir ki, dəniz dibində yerləşən "Explorer" və "Juan de Fuca" plitələri Şimali Amerika plitəsinin altına doğru hərəkət etdikcə tədricən çatlayır və parçalanır.

Dəniz dibinə yerləşdirilmiş yüksəkhəssaslı seysmik sensorlar plitələrin bir anda yoxa çıxmadığını, əksinə, "parça-parça yox olma" adlanan ləng çökmə prosesinə məruz qaldığını sübut edib. Okean qabığının bəzi hissələri beş kilometrədək dərinliklərə enib. Bu proses təkcə geoloji nəzəriyyələr üçün əhəmiyyət daşımır; Kaskadiya zonası elə əvvəldən meqa zəlzələ üçün potensial mərkəz kimi tanınırdı. Yeni tapıntılar isə bölgədəki seysmik risk modellərinin yenilənməsini labüd edir. Alimlər bildirirlər ki, plitə parçalanması yaxın zaman üçün birbaşa təhlükə yaratmasa da, uzunmüddətli seysmik davranışın anlaşılması baxımından həlledici rol oynayacaq.

# Dünyanın ən böyük hörümçək toru



**Yunanıstan-Albaniya sərhədindəki Kükürd mağarasında qeydə alınmış nəhəng hörümçək toru tədqiqatçıları heyrətə gətirib. Beynəlxalq mütəxəssislər qrupu 2022-ci ildə təsadüfən rast gəldikləri bu fenomeni üç il ərzində detallı şəkildə araşdırıb və nəticələri oktyabr ayında dərc olunan elmi məqalədə təqdim edib.**

Sahəsi 100 kvadratmetrdən çox olan bu nəhəng tor təxminən 110 min hörümçəyin birgə yaşadığı "hörümçək superşəhəri" kimi qiymətləndirilir.

Toru quran hörümçəklərin iki ayrı növə aid olması, üstəlik, bu növlərin səthdə yaşayanlardan genetik cəhətdən fərqlənməsi araşdırmanı daha da maraqlı edir. Adətən tək yaşayan hörümçəklərin bu qədər sıx və böyük koloniyalarda birgə mövcud olması elm tarixində ilk dəfə qeydə alınıb. Mütəxəssislər hesab edirlər ki, mağaranın dərinliklərində çoxlu sayda milçəyin - midgeslərin mövcudluğu bu qeyri-adi sosial davranışın əsas səbəbidir. Bol qida ehtiyatı koloniyanın stabil və nəhəng ölçüdə qalmasına imkan verib.

# Daşkəndin özünəməxsus divar rəsmləri var

**Özbəkistanın Kanka yaşayış məntəqəsində aparılan arxeoloji araşdırmalar qədim divar rəsmləri sənətinin bölgədə düşündüyümüzdən daha erkən və davamlı ənənəyə malik olduğunu ortaya çıxarıb.**

Uzunluğu 100, eni 70 metr olan nəhəng ticarət və istirahət kompleksi - Kanka karvansarayı qədim şəhərin cənub qapısının yaxınlığında yerləşir. Qazıntılar nəticəsində karvansarayın otaqlarından birinin divarlarından qopmuş freska parçaları tapılıb.

Bu rəsmlərin xüsusiyyəti ondadır ki, ərəb işğalından sonra bölgədə bir müddət zəifləyən divar rəssamlığı X-XI əsrlərdə yenidən canlanmışdır. Arxeoloji məlumatlar bu ənənənin təkcə Kankada deyil, Səmərqənd və Axsikentdə də geniş yayıldığını göstərir. Mədəni İrs Agentliyinin bərpaçılarının iştirakı ilə aparılan təhlil Daşkənd bölgəsində özünəməxsus divar rəsmləri məktəbinin mövcudluğunu təsdiqləyir. 2023-cü ildə aşkar edilmiş V-VII əsrlərə aid rəsmlərlə birlikdə yeni tapıntılar bu sənətin bölgədə fasiləsiz inkişaf etdiyini göstərir.

Kanka freskaları yalnız estetik anlamda deyil, həm də sosial-mədəni baxımdan qiymətlidir. Burada təsvir olunan motivlər bölgənin həyat tərzi, dini inancları, ticarət mədəniyyəti və sənət ənənələri haqqında çoxsaylı ipucları verir.

# "İncil"dən gələn səs: su altında qalan liman

**Qaliley gölünün şərq sahilində, qədim Kursi bağları yaxınlığında aparılan qazıntılar arxeologiyaya yeni bir müzakirə mövzusu gətirib. Alimlər burada İsa Məsihin "cin legionunu donuza çevirdiyi" və həmin donuzların uçurumdan dənizə atılaraq boğulduğu yerin tapıldığını ehtimal edirlər. Tədqiqatçıları bu qənaətə gətirən əsas səbəblər ərazinin landşaftı, "İncil" mətnlərindəki təsvirlər və su altında qalmış Roma dövrü limanının mövcudluğudur.**

Suyun altında tapılan iri daş bloklar qədim liman memarlığının klassik nümunəsi sayılır. Limanın yaxınlığında aşkarlanan nəhəng daş hovuz - canlı balıq saxlamaq üçün nəzərdə tutulmuş "akvarium" ərazinin qədim ticarət və balıqçılıq mərkəzi olduğunu göstərir. Tapıntı həm tarixi mətnləri coğrafi mühitlə uzlaşdırır, həm də dini hekayələrin real məkanlarla əlaqələndirilməsi baxımından əhəmiyyətli arqument hesab edilir. Tədqiqatçılar bildirirlər ki, bu liman faktiki olaraq "İsa marşrutu"nun su altında qalmış hissəsidir.

# Perudakı çuxur labirintinin sirri

**Perunun cənubunda yerləşən Monte-Syerpe kompleksinin təyinatı uzun illərdir alimləri düşündürürdü. 5200-dən çox eyniölçülü çuxurdan ibarət bu sirli strukturun nə üçün istifadə edildiyi barədə müxtəlif fərziyyələr mövcud idi. Sidney Universitetinin arxeoloqları aparılan yeni araşdırmalarla bu suallara daha aydın cavab veriblər.**

Qrup dronlarla əldə olunan görüntüləri, çöküntü nümunələrini və bitki qalıqlarını analiz edərək kompleksin həm bazar, həm də malların uçotu sistemi kimi fəaliyyət göstərdiyini müəyyən edib.

Nümunələrdə tapılan nişasta dənələri, qarğıdalı tozcuqları, dənli və balqabaq bitkilərinin izləri, eləcə də səbət toxuculuğunda istifadə olunan qamış qalıqları çuxurların ərzaq və daşınan malların saxlanılmasında istifadə olunduğunu göstərir. Monte-Syerpe ehtimal ki, Çinça mədəniyyətinin ticarət mərkəzlərindən biri olub. XV əsrdə isə İnk imperiyasının tərkibinə daxil edilən zaman kompleks nəhəng hesablama sistemi - kipu məntiqinə bənzər vergi və ehtiyat uçotu aləti kimi qəbul edilib.



Bu çuxurlar həm ticarəti, həm idarəetməni, həm də mübadilə rituallarını birləşdirən unikal sosial texnologiya sayıla bilər. Kompleksin öyrənilməsi qədim And sivilizasiyalarının iqtisadi modeli haqqında yeni biliklər verir və onların dərin sosial təşkilatlanma qabiliyyətini nümayiş etdirir.

*Hazırladı:*
*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*





# Mədəniyyət





## ● Musiqi dünyamız

# Ritmin nəfəsi, nağaranın səsi

**Onun özünəməxsus dünyası var. İçində olduğu bu dünyanı dərk etmək üçün sadəcə, qulaq asmaq deyil, hiss etmək, duymaq lazımdır. O, təkcə nağara ifaçısı deyil, bir Səmazan kimi səhnədə dövr edən ruh adamıdır. İfa edərkən səs nağaradan gəlsə də, ürəyinin ritmini dilləndirir. Sənətinə İlahi eşqlə bağlı olan bu sənətkar ifa zamanı ayağı sanki yerdən üzülür. Adama elə gəlir ki, gözlə görünməyən hansısa bir quvvə indi onu başqa bir aləmə aparacaq. Əllər Tanrıya açılır... İlahi bir eşqlə nağaranı qolları arasına alır. Nağaradan Azərbaycan musiqisinin ruhunun, Vətən torpağının nəfəsinin, xalqın nəbzinin səsi gəlir… Bu səsin arxasında 50 illik ömür, 30 illik sənət yolu olan bir sənətkar, ritmi sənətə çevirən bir musiqiçi, Azərbaycanı dünyanın səhnələrində ləyaqətlə təmsil edən ustad bir ifaçı dayanır.**



"Nağara mənim ruhum, canım, kimliyimdir. Nağara məni dünyaya tanıtdığı kimi, mən də nağaranı bütün dünyaya tanıtdım" deyir.

Söhbət "Natiq" ritim qrupunun yaradıcısı, Xalq artisti Natiq Şirinovdan gedir. Natiq Şirinovun yaradıcılığı Azərbaycanın sərhədlərini çoxdan aşıb. O, dünyanın əksər ölkələrində solo konsertlər verib, beynəlxalq festivallarda çıxış edib, ən şöhrətli musiqi yarışmalarında dəfələrlə qalib olub. Harada səhnəyə çıxıbsa, orada Azərbaycan xalqının ruhu, musiqimizin nəfəsi, vətən sevgisi ilə döyünən ürəyimizin səsi eşidilib.





Natiq Şirinov yalnız nağara ustası deyil, həm də ritmin fəlsəfəsini yaradan, onu insanın daxili dünyası ilə birləşdirən sənətkardır. O, səhnəyə çıxanda sadəcə, nağara çalmır, ritmlə danışır, ritmlə nəfəs alır. Onun üçün nağara yalnız musiqi aləti deyil, milləti ruhlandıran, qələbəyə aparan, qəhrəmanlığa səsləyən canlı bir varlıqdır. Dünyanın musiqiçilərinin, ritm ustalarının Natiqi "ritmin şairi", "Şərqin nəfəsi" adlandırmaları da təsadüfi deyil. O, təkcə ifaçı deyil, həm də ritm yaradıcısıdır.

Onunla Hacı Zeynalabdin Tağıyevin inşa etdirdiyi Mədəniyyət klubunda görüşürük. Sənətkar deyir: "Bu bina Hacının yadigarıdır. 1929-cu ildən toxuculuq kombinatının mədəniyyət klubu kimi fəaliyyət göstərən bu səhnədə kimlər olmayıb? Rəşid Behbudov, Qulu Əsgərov, Şövkət Ələkbərova... Çox şükür, indi baxanda bizim də adımız o siyahıda görünür. Qürurluyam ki, 20-dən çox xarici ölkədə musiqi yarışmasının qalibi kimi Azərbaycan bayrağını qaldırmışam. Allahım mənə qürurlu həyat yaşamağı nəsib edib".

Natiq Şirinov Azərbaycan incəsənət tarixində məşhur olan Aşıq Şəmşir, Aşıq Şirin və Aşıq İdrisin nəslindən olduğunu deyir.

Dünyada məşhur ritm ustası kimi tanınan sənətkar 1975-ci il noyabrın 10-da Bakı şəhərində anadan olub. Deyir ki, 1984-cü ildə 9 yaşı olanda Tofiq İsmayılov adına musiqi məktəbinə gedib. İlk dəfə Azər Əliyevdən nağara ifaçılığı dərsi alıb. 1986-cı ildə nağara ifaçılığına bağlılıq onu 6 nömrəli musiqi məktəbinə aparıb...

Natiq Şirinov deyir ki, insana istedad genlə keçir, qanla gəlir: "Məndə də belədir. Genetik olaraq biz musiqiyə bağlı nəsilik. Ana tərəfim şeirə, musiqiyə bağlı insanlar olub. Atam da klassik musiqimizi çox sevirdi. Gözəl musiqi duyumu var idi. Təkcə musiqi deyil, elə əxlaq da, vətənə bağlılıq da belədir".

24 yaşında Azərbaycan Respublikasının Xalq artisti, muğam ustası, xanəndə Alim Qasımovun dəvəti ilə peşəkar fəaliyyətə başlayan sənətkar 1999-2007-ci illər ərzində bir çox xarici ölkədə qastrol səfərlərində olub.

N.Şirinovun ən böyük xidməti təkcə səhnədə deyil, həm də tədrisdədir. O, "Natiq" ritm məktəbini yaratmaqla Azərbaycan zərb alətləri sənətinə yeni nəfəs verib. Bildirir ki, 2001-ci ildə "Natiq" ritm qrupunu yaradanda da, indi də məqsədi nağaranın Azərbaycana məxsus olduğunu dünyaya göstərmək, onu daha da təkmilləşdirmək, yeni ritmlər qurmaq, başqa ölkələrdə sevdirmək olub. O, öz qrupuna nağaradan əlavə qədim Azərbaycan alətləri zurnanı, balabanı və tütəyi də daxil edib.

Ritmlərdən bəhs edən ustad sənətkar deyir: "Hindistan, Afrika, Fransada ritm məktəbləri var. Ən zəngini hind, Afrika və ərəb ritmləridir. Mən bu məktəblərin, fars və bütün türk xalqlarının ritm dillərini əzbər bilirəm. Bu məqamda bir məsələni də qeyd edim ki, riyaziyyatı yaxşı bilməyən ritmi bilməz, ondan mükəmməl nağara ifaçısı olmaz. Onlar olsa-olsa, məhəllə sənətkarları səviyyəsinə yetişərlər. Hansısa xarici ölkədən məxsusi dəvət edib onun solo konsertini təşkil edə bilməzlər".

Ustad sənətkar Azərbaycan ritmlərini nağarada genişləndirmək üçün 2002-ci ildə Moskva şəhərində, Hindistan konsulluğunda yerləşən Tabla məktəbində dərs alıb. Azərbaycan ritmlərinin dünya ritmləri ilə sintezinin mahir ifaçısı olan Natiq Şirinov özünün yaratdığı ritmlərlə Azərbaycan zərb ifaçılığı məktəbinin yeni mərhələsini formalaşdırıb. Sənətdə ənənəni qoruyan Natiq Şirinov həm də sənətə yenilik gətirdiyi üçün fərqli və təkrarsızdır.

Ritmin fəlsəfəsindən danışan Xalq artisti deyir ki, dünya bir-biri ilə ritm dili ilə danışır. Ritm elə bir şeydir ki, onu tək ifa edən bilməli deyil. Ritmi musiqiçi də, bütün insanlar da, ümumiyyətlə, bəşəriyyət bilməlidir. Çünki ritmi gözəl bilən insan həyatını da gözəl bilir.

N.Şirinov Azərbaycan nağaraçılıq məktəbinə yenilik gətirən ustad sənətkardır. O, müxtəlif növlərdə nağaraların yaradıcısıdır. Özü bu barədə deyir ki, əvvəllər Azərbaycanda cəmi bir nağara növü olub: "İndi mənim düzəltdiyim 20-dən çox nağara növü var. Xalq artisti həm də ən nadir musiqi alətlərindən biri olan qavaldaş ifaçısı kimi həmin unikal musiqi və daş mədəniyyətini dünya auditoriyasına tanıdıb. Bir çox beynəlxalq tədbirin, o cümlədən bütün dünyanın maraqla seyr etdiyi "Avroviziya" kimi nüfuzlu beynəlxalq musiqi yarışmasının açılışında qavaldaşın ifası ilə çıxış edib. Məhz dünyanın milyonlarla tamaşaçısı Azərbaycan tarixinin minillik səsini onun ifasında eşidib.

Ritm ustasının yetişdirdiyi sənətkar nəsli bu gün ölkəmizdə və xaricdə peşəkar səviyyədə çıxış edir, Azərbaycan ritm məktəbinin layiqli davamçılarına çevrilirlər. Bu məktəb bir mədəniyyət nümunəsi, sistemli tədris, peşəkarlıq, zəngin repertuar və ən əsası, milli ruh məktəbi kimi özünü təsdiq edərək həyata vəsiqə almış bir incəsənət beşiyidir.

Natiq Şirinov deyir ki, əsl sənətkar işini səhnədə bitmiş hesab etməməlidir, həm də gələcək nəsillərin sənəti davam etdirməsi üçün çalışmalı, iş görməlidir. Oğlu Ümidlə birlikdə "Nağara mirası" adlı kitab üzərində çalışan Xalq artisti 1500- dən çox ritmi yazıya köçürüb, nağara üçün notlar yazıb. Natiq yaratdığı ritmləri, ifa texnikasını, zəngin təcrübəsini yazılı şəkildə gələcək nəslə ötürən bir sənətkardır. Ata və oğulun yazdıqları bu kitab təkcə bir dərslik deyil, Azərbaycan ritminin ensiklopediyasıdır. Bu həm də ata-oğul sənət yolunun əvəzsiz nümunəsidir.

Natiqi sevdirən ən dəyərli cəhət səmimiyyətidir. O, səhnəyə çıxanda heç vaxt süni şou yaratmır. O, səhnədə Tanrısı ilə baş-başa olur. Musiqisi ruhun qidasıdır. Bəlkə də buna görə dünyanın istənilən yerində səhnəyə çıxdıqda tamaşaçı ilə dərhal enerji təması qurmağı bacarır. Sənətkar deyir ki, ifa etdiyim zaman ritmi dinləyib, duyub, ağlayan tamaşaçı da görmüşəm. Məşhur nağara ifaçısı yeganə azərbaycanlıdır ki, ABŞ, İtalya, Fransa, Yaponiya, Almaniya, Koreya, Malayziya, Polşa, Türkiyə, Özbəkistan, İngiltərə, İsrail, həmçinin dünyanın dörd bir yanında xüsusi dəvətlərlə solo konsertlər verib. Ömrünü nağara ifaçılığına həsr edən sənəkar deyir ki, məqsədimiz odur ki, Azərbaycan nağarası da UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısında yer alsın.

Ömrünün 50 ilini yola salmağa hazırlaşan sənətkar deyir: "Mən çox xoşbəxt insanam. Tanrıma dua edirdim ki, oğlum olsun, adını da Ümid qoyum. Oğlum mənim zəhmətimin, arzumun, ümidlərimin davamçısı olsun. Şükürlər olsun Allah bunu mənə qismət etdi. İndi o, mənim sənətimi layiqincə davam etdirir. Arxayınam ki, məndən sonra da bu sənət yaşayacaq".

Natiq Şirinov 50 illik ömrünü Azərbaycan musiqisinə həsr edib. Bu gün o, sadəcə, bir ifaçı deyil - bir məktəbdir, bir ənənədir, bir irsdir. O, ritmi sadəcə, çalmır, ritmi yaradır. Natiq Azərbaycanı sadəcə, təmsil etmir, dünyaya mədəniyyətimizi tanıdır.

50 yaşın mübarək, ustad! Ritmin səni yaşatsın, sən də ritmi.

***Elşən QƏNİYEV,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

## ● Arxivlərimiz

# Dövlətçilik və milli kimlik tariximizi özündə yaşadan məkan

**Hər gün onlarca tədqiqatçının, araşdırmaçının, adi vətəndaşın belə üz tutduğu ünvanlardan biri də Azərbaycan Respublikasının Milli Arxiv İdarəsidir. Bu idarə müstəqil dövlətimizin tarixi yaddaşını qoruyan, dövlətçilik ənənələrimizin və milli dəyərlərimizin davamlılığını təmin edən strateji əhəmiyyətli qurumlardan biridir.**




Burada beynəlxalq aləmdə mühüm dəyərə malik materiallar, tarixin yaddaşına çevrilmiş ictimai-siyasi hadisələri özündə yaşadan qovluqlar xüsusi fondlarda ciddi şəkildə mühafizə olunur.

105 yaşlı Azərbaycan Respublikasının Milli Arxiv İdarəsinin keçdiyi yol və görülən işlər barədə idarənin nəzdindəki Dövlət Səs Yazıları Arxivinin aparıcı arxivçisi Xəyalə Əliyeva bizimlə söhbətində dedi:

- Arxivlərimizdə saxlanılan hər bir sənəd, qovluq xalqın və dövlətin tarixi yaddaşı, mədəni kimliyi, habelə mənəvi irsinin qoruyucusudur. Onlar keçmişi bu günə, bu günü isə gələcəyə bağlayan mühüm elmi və hüquqi mənbələrdir. Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixi, ictimai-siyasi və mədəni həyatı ilə bağlı sənədlər məhz Milli Arxiv İdarəsində və onun tabeliyindəki dövlət arxivlərində mühafizə olunur, gələcək nəsillərə ötürülməsi üçün etibarlı zəmin yaradılır.

Azərbaycan Xalq Cümhuriyyəti (AXC) dövründə dövlət idarəçiliyinin əsas prinsipləri formalaşdırılarkən arxiv işinə də xüsusi diqqət yetirilmişdi. 1918-ci ildə Nazirlər Şurası qərar qəbul edərək dövlət idarələrinin sənədlərinin qorunması ilə bağlı tədbirlər planı hazırlamışdı. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) qısa fəaliyyəti səbəbindən mərkəzləşdirilmiş dövlət arxiv sistemi tam şəkildə yaradıla bilmədi. Amma bu dövr arxiv işinə milli dövlət səviyyəsində yanaşmanın başlanğıcı kimi tarixə düşdü.

1920-ci ilin dekabrında Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanov tərəfindən imzalanmış "Vahid Dövlət Arxiv Fondunun yaradılması haqqında" və "Xalq Maarif Komissarlığı yanında mərkəzi dövlət arxivinin təşkili haqqında" dekret respublikada arxiv işinin əsasını qoydu. Bu sənədlə bütün dövlət, ictimai və şəxsi arxivlər vahid dövlət fonduna birləşdirildi. 1922-ci ildə Azərbaycan Mərkəzi Dövlət Arxivi yaradıldı və ölkədə arxiv sənədlərinin toplanması, sistemləşdirilməsi və qorunması istiqamətində işlərə başlanıldı.

Müstəqillik dövründə arxiv işi yeni mərhələyə qədəm qoydu. Bu sahədə əsas hüquqi sənəd 1999-cu il 22 iyun tarixli "Milli Arxiv Fondu haqqında" qanundur. Qanunda arxiv fondunun formalaşdırılması, mühafizəsi, istifadəsi və dövlət arxivlərinin fəaliyyət qaydaları ətraflı təsbit olunub.

Azərbaycan Prezidenti İlham Əliyevin 2002-ci il 2 dekabr tarixli fərmanı ilə "Azərbaycan Respublikasında arxiv işinin təkmilləşdirilməsi haqqında" qərar qəbul olundu. Bu fərman əsasında arxivlərin idarə olunması və vahid siyasətin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi yaradıldı. Hazırda Milli Arxiv İdarəsinə respublika əhəmiyyətli 6 dövlət arxivi, 15 filialı, Naxçıvan Muxtar Respublikasının, habelə 57 rayon və şəhər dövlət arxivləri daxildir. Bu arxivlərdə sənədlərin bərpası, cildlənməsi, qiymətli və nadir sənədlərin sığorta fondunun yaradılması üçün xüsusi laboratoriya fəaliyyət göstərir. Laboratoriyada sənədlərin həm konservasiya (sənədin mövcud halının qorunması), həm də restavrasiyası (zədələnmiş hissələrin bərpası) işləri aparılır.

Son illərdə arxiv işində rəqəmsallaşdırma prosesi sürətlə inkişaf edir. "Elektron arxiv" layihəsi çərçivəsində sənədlərin elektron versiyaları yaradılır və onlayn məlumat bazaları formalaşdırılır, beynəlxalq standartlara uyğun müasir arxiv infrastrukturunun qurulması həyata keçirilir. Bu həm arxivlərin mühafizəsini, həm də vətəndaşların sənədlərə çıxış imkanlarını asanlaşdırır.

Müstəqil Azərbaycanın arxiv xidməti geniş şəbəkəyə malikdir. Arxiv sistemi beynəlxalq arxiv təşkilatları ilə əməkdaşlıq edir. Bu əməkdaşlıq çərçivəsində Azərbaycan arxivçiləri təcrübə mübadiləsində iştirak edir, beynəlxalq sərgilərdə sənədlər nümayiş olunur və milli irsimiz dünyaya tanıdılır.

Azərbaycan Respublikasının arxivi təkcə dövlətin tarixi sənədlərini deyil, həm də ölkəmizdə yaşayan xalqların mədəni, elmi və ictimai həyatına dair dəyərli materialları qoruyur. Arxiv sənədləri əsasında çoxsaylı elmi tədqiqatlar, kitablar və monoqrafiyalar hazırlanır. Bunlar Azərbaycanın dövlətçiliyinin, milli kimliyinin və mədəni irsinin əsas sübutlarındandır. Gənc nəslə tariximizi öyrənmək üçün etibarlı mənbələr təqdim edir. Arxiv sənədlərinin qorunması və rəqəmsallaşdırılması gələcək nəsillərin keçmişi daha dərindən bilməsinə geniş imkanlar yaradır.

Arxiv Fondunun ən qiymətli sənədləri arasında Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) hökumətinin, 1919-cu il Paris Sülh Konfransında iştirak edən nümayəndə heyətinin sənədləri, Böyük Vətən müharibəsi dövrünə aid materiallar xüsusi yer tutur. Azərbaycan mədəniyyət və elm xadimlərinin şəxsi fondları, XX əsrin sonlarında Qarabağ münaqişəsi ilə bağlı sənədlər və 44 günlük Vətən müharibəsinin materialları qorunub saxlanılır. Sonda qeyd edim ki, əməkdaşlarımız ölkəmizin tarixi yaddaşının gələcək nəsillərə ən etibarlı mənbə kimi çatdırılması üçün işlərinə məsuliyyətlə yanaşırlar.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Xankəndidə və Laçında "ANİMAFİLM" festivalları keçirilir

**Bu gün Xankəndi və Laçın şəhərlərində "ANİMAFİLM Xankəndidə" və "ANİMAFİLM Laçında" festivalları keçirilir. 8-ci "ANİMAFİLM" Beynəlxalq Animasiya Festivalının tərkib hissəsi olan festivallar Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə Azərbaycan Animasiya Assosiasiyası tərəfindən həyata keçirilən "Yeni animasiya məhsulunun hazırlanması və ustad dərsləri" layihəsi çərçivəsində baş tutacaq.**




Bu barədə AZƏRTAC-a Azərbaycan Animasiya Assosiasiyasının sədri, ANİMAFİLM Beynəlxalq Animasiya Festivalının direktoru, rejissor və prodüser Rəşid Ağamalıyev məlumat verib.

O bildirib ki, layihə çərçivəsində Xalq şairi Vaqif Səmədoğlunun uşaqlar üçün yazdığı eyniadlı poemanın motivləri əsasında çəkilmiş "Bum-bum" qısametrajlı animasiya filminin təqdimatı və animasiya filminin ərsəyə gəlməsində keçilən yollar haqqında ustad dərsləri təşkil olunacaq.

"Biz çox sevinirik ki, "Bum-bum"u və yeni animasiya məhsulunun necə hazırlandığı barədə ustad dərslərini məhz Qarabağda, gündən-günə gözəlləşən, dirçələn, özünəməxsus ənənələrini bərpa edən Xankəndi və Laçın şəhərlərində tamaşaçılarımıza təqdim edirik. 8-ci "ANİMAFİLM" Beynəlxalq Animasiya Festivalı çərçivəsində regionlarda təşkil olunan "ANİMAFİLM Xankəndidə" və "ANİMAFİLM Laçında" festivalları bu gün Xankəndi şəhərində, 1 nömrəli körpələr evi-uşaq bağçasında və Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsinin dəstəyi ilə Laçın şəhərində Bakı Abadlıq Xidmətinin, "Hoçazfilm" studiyasının "LACINEMA" Laçın Kino Mərkəzində keçiriləcək", - deyə R.Ağamalıyev diqqətə çatdırıb.

O qeyd edib ki, tamaşaçılar əvvəlcə "Hədis", "Tarix", "Həmişəyaşıl", "Narqız", "Pulun dili", "Soyuz Qraviton", "Yer və Ay", "Siçan və Pişik", "Yulaf dönərgə" animasiya filmlərini izləyəcəklər.

Qeyd edək ki, təqdim olunan filmlər arasında "Hədis" ölkəmizi onun hüdudlarından kənarda 50-yə yaxın beynəlxalq festivalda uğurla təmsil edərək çoxsaylı mükafatlar qazandırıb, "Narqız" isə TÜRKSOY-un xüsusi mükafatı sahibidir.

# Londondakı "Acapella Academy" incəsənət mərkəzinin fəaliyyəti genişlənir

**Londonda Azərbaycanın qədim və zəngin musiqi mədəniyyətini təbliğ edən, onun incəliklərini həm yerli əhaliyə, həm də soydaşlarımıza öyrədən "Acapella Academy" adlı incəsənət mərkəzi fəaliyyət göstərir.**




Mərkəzin təsisçiləri azərbaycanlı musiqiçilər Səadət və Rasim Fərziyevlərdir.

Diasporla İş üzrə Dövlət Komitəsindən bildirilib ki, mərkəzin fəaliyyəti ilə yaxından tanışlıq və gələcək əməkdaşlıq planlarının müzakirəsi üçün qurumun şöbə müdiri Səlhət Abbasova "Acapella Academy"də olub.

Görüş zamanı mərkəzdə musiqi nəzəriyyəsi, müxtəlif alətlərdə ifa, vokal, balet, müasir rəqs, rəsm və şahmat dərslərinin keçirildiyi qeyd olunub. Həmçinin gələcəkdə kamança dərslərinin və Azərbaycan rəqslərinin tədrisinin təşkilinin də planlaşdırıldığı barədə məlumat verilib. Mərkəzin hər yaşdan olanlara inklüziv mühitdə özünüinkişaf və yaradıcılıq imkanı yaratdığı diqqətə çatdırılıb. Mərkəzin idarəçiliyinin və fəaliyyət prinsiplərinin gələcək nəsillərə düzgün şəkildə ötürülərək qorunacağı bildirilib.

Şöbə müdiri xaricdə yaşayan soydaşlarımızın mədəniyyət və incəsənət sahəsindəki fəaliyyətinin təqdir edildiyini söyləyib, komitənin diaspor nümayəndələri ilə əlaqələrin möhkəmləndirilməsinə və peşəkar şəbəkələşmənin genişləndirilməsinə daim dəstək göstərdiyini vurğulayıb.

"Acapella Academy" ilə birgə layihələr üzrə əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparılıb və mərkəzə komitə adından milli suvenirlər hədiyyə edilib.

# "Küldə şərqi deyənlər" sənədli filminin premyerası keçiriləcək



Azərbaycan Kinematoqrafçılar İttifaqının İdarə Heyətinin üzvü, rejissor, jurnalist Kamran Qasımovun cari ilin yanvarında Cənubi Kaliforniyada dəhşətli meşə yanğınlarından bəhs edən "Küldə şərqi deyənlər" ("Singers in the ashers") sənədli filminin təqdimatı olub. Filmin müəllifi Kamran Qasımov ekran işi barədə məlumat verib: "Bu ekran işi film-reportaj janrıdır. Ümumilikdə 18 gün yanğınsöndürənlərlə birlikdə oldum. Tüstünün həddindən artıq təhlükəli olması səbəbindən bəzi yaxın ərazilərə buraxılmırdım, lakin külə çevrilmiş sahələrə daxil olmuşdum. Yaşanan böyük faciəyə baxmayaraq, insanlarla ünsiyyət zamanı onların nikbin ruhunu, bir-birinə dəstəyini və mübarizə əzmini hiss edirdim. Ekran əsərinin xronometrajı 28 dəqiqədir. Hazırladığım filmin 2026-cı ilin yanvarında Los-Ancelesdə premyerasının keçirilməsi planlaşdırılır".

BEYNƏLXALQ HƏYAT

# ECOWAS Qvineya-Bisauda hərbi çevrilişi qınayır





Qərbi Afrika Dövlətlərinin İqtisadi Birliyinin (ECOWAS) hazırkı sədri, Syerra-Leone Prezidenti Julius Maada Bio Qvineya-Bisauda hərbi çevrilişi qətiyyətlə pisləyib.

Noyabrın 28-də Prezident Bio "X" sosial media hesabında yazıb: "Bu gün mən ECOWAS Vasitəçilik və Təhlükəsizlik Şurasının virtual iclasına sədrlik etdim, burada dövlət və hökumət başçıları Qvineya-Bisaudakı siyasi böhranı müzakirə etdilər." O bildirib ki, Prezident Umaru Sissoko Embalonun və seçki orqanlarının üzvlərinin qanunsuz saxlanılması ECOWAS Təsis Müqaviləsinin prinsiplərini pozur: "Cavabımız qəti, prinsipial və tariximizə uyğun olacaq".

Afrika Birliyi Komissiyasının sədri Mahamud Əli Yusuf da Qvineya-Bisauda hərbi çevrilişi və Prezident Embalonun və digər siyasi liderlərin həbsini pisləyib və bütün saxlanılanların dərhal azad edilməsini tələb edib.

Xəbər verildiyi kimi, noyabrın 27-də təxminən 2,1 milyon əhalisi olan Qvineya-Bisauda özlərini "Asayişin bərpası üzrə ali hərbi komandanlıq" adlandıran bir qrup hərbçi dövlət televiziyasında hakimiyyəti ələ keçirdiklərini elan ediblər. Onlar müəyyən siyasətçilərin və "bədnam narkobaron"un ölkədəki sabitliyi pozmaq cəhdlərini səbəb gətiriblər.

Bu arada Prezident Umaru Sissoko Embalonun mobil telefon vasitəsilə xarici mediaya verdiyi açıqlamalar diqqəti cəlb edib. Afrika məsələləri üzrə ixtisaslaşmış Fransanın "Jeune Afrique" nəşri Embalo ilə telefon danışığı barədə məlumat paylaşıb. Bu zəng zamanı prezident ofisində həbsdə saxlanıldığı və vəziyyətinin qənaətbəxş olduğunu bildirib.

Daha sonra Fransanın "France 24" televiziya kanalı Embalonun telefonla dediyi sözləri yayımlayıb. "Ordu məni çevrilişlə devirdi. Daha ətraflı məlumat verə bilmərəm, əks halda telefonumu əlimdən alacaqlar. Hazırda Baş Qərargahın binasındayam", - deyə devrilmiş dövlət başçısı bildirib. Bir neçə xarici jurnalist də sosial media hesablarında yazıblar ki, Embalo səhər söhbətində gecəni Baş Qərargah binasında keçirdiyini təsdiqləyib.

Qvineya-Bisauda dövlət çevrilişinə noyabrın 23-də keçirilən prezident və parlament seçkiləri səbəb olub. Rəsmi nəticələr açıqlanmamışdan əvvəl hazırkı Prezident Umaru Sissoko Embalo, seçki qərargahının hesablamasına görə, səslərin 65 faizini topladığını açıqlayıb. Onun əsas rəqibi, müstəqil namizəd Fernando Diaş Koşta da özünü qalib elan edib.

Embalo əsas müxalifət lideri Dominquş Simoynş Pereyranın namizədliyinin qeydiyyatına mane olmaqda ittiham olunub.

Ölkənin ən böyük partiyalarından biri olan Qvineya və Kabo-Verdenin Müstəqilliyi uğrunda Afrika Partiyasının (PAIGC) lideri Pereyra seçki siyahısına düşə bilmədikdən sonra Diaş da Koştanı dəstəklədiyini açıqlayıb.

2019-cu ildə Qvineya-Bisauda keçirilən prezident seçkilərində həm Embalo, həm də Pereyra özlərini qalib elan ediblər və bu, bir neçə ay davam edən siyasi böhrana səbəb olub. Qərbi Afrikada yerləşən və 1974-cü ildə Portuqaliyanın müstəmləkəçilyindən xilas olan Qvineya-Bisau indiyədək ən azı 12 çevriliş və ya çevriliş cəhdi yaşayıb.

Cənubdan Qvineya və şimaldan Seneqal ilə həmsərhəd olan Qvineya-Bisau dünyanın ən kasıb ölkələrindən biridir. Atlantik okeanın sahilindəki bu kiçik ölkə Latın Amerikası narkotiklərinin Avropaya daşınmasında əsas rol oynayır. Coğrafi mövqeyi və qanunlarda boşluqlarına görə Qvineya-Bisau narkotik qaçaqmalçıları üçün çox əlverişli bir yoldur və bu səbəbdən onu həm də "narkodövlət" adlandırırlar. Cənubi Amerikadan birbaşa Qvineya-Bisauya və ya qonşu ölkələrə göndərilən narkotiklər burada paylanır və daha sonra ABŞ-yə və Avropaya ötürülür.

# Fransa gənc könüllüləri orduya cağırır

**Fransa Ordusunun Baş Qərargah rəisi Fabyen Mandon cəmiyyəti Rusiya ilə qarşıdurmaya hazır olmağa çağırıb. Prezident Emmanuel Makron isə könüllü hərbi xidməti tətbiq edib.**



Qərb və Rusiya arasında mümkün qarşıdurma halında Fransa hansı qurbanları verə bilər? Yalnız maliyyə xərclərini düşünənlər Baş Qərargahın yeni rəisinin dediklərindən təəccüblənibləр. Bu günlər mer qarşısında çıxış edərkən o, Rusiyanın 2030-cu ilə qədər Qərblə qarşıdurmaya hazırlaşdığını bəyan edib: "Əgər ölkəmiz uşaqlarını itirməyə, iqtisadi cəhətdən əziyyət çəkməyə və ya hər şeyi öz adı ilə çağırmağa hazır olmadığı üçün zəifliyini sübut edərsə, biz təhlükədəyik".

Generalın qurban verməyə hazırlıq çağırışı müxalifətdəki bəzi şəxslər arasında qəzəbə səbəb olub. Lakin Mandonun açıqlaması sadəcə, Parisdə uzun müddətdir müzakirə olunan məsələləri ümumiləşdirir. Prezident Emmanuel Makron 1945-ci ildən bəri Fransa üçün ən böyük təhlükə barədə xəbərdarlıq edib. Siyasətçilər bu onilliyin əvvəlində Avropada "böyük, yüksək intensivlikli müharibə" riskini getdikcə daha çox elan edirlər. 2025-ci ilin yayında qəbul edilən yeni təhlükəsizlik strategiyasında da Fransanın yeni bir dövrə qədəm qoyduğu bildirilir.

Ekspertlər razılaşırlar ki, Fransa Silahlı Qüvvələri hələ intensiv döyüşə kifayət qədər hazır deyil - şəxsi heyət və avadanlıq yoxdur. Odur ki, dövlət borcuna baxmayaraq, Fransa müdafiə xərclərini əhəmiyyətli dərəcədə artırmaq qərarına gəlib. 2017-ci ildə müdafiə xərcləri təxminən 30 milyard avro olduğu halda, 2027-ci ilə qədər bu rəqəmin 67 milyard avronu keçəcəyi gözlənilir.

Vəsait yalnız silahlara xərclənməyəcək. Peşəkar ordunun sayını artırmaq üçün planlar hazırlanır. Xatırladaq ki, Fransa ordusunda hazırda təxminən 200000 şəxsi heyət var. Ehtiyatda olanların sayı artıq 2014-cü ildəki 28 mindən 2025-ci ildə 47 minə çatıb. 2035-ci ilə qədər isə bu rəqəmin 105 minə çatacağı gözlənilir. Lakin Makron siyasi və təşkilati səbəblərə görə məcburi hərbi xidmətin qaytarılmasını istisna edir. Fransa peşəkar ordusu olan ölkə kimi qalacaq.

Noyabrın 27-də Prezident Makron 2026-cı ildə başlaması planlaşdırılan yeni pullu könüllü hərbi xidmət layihəsini elan edib. Plana əsasən, ilk 3000 gənc bir neçə ay ərzində təlimə başlaya bilər. 2030-cu ilə qədər 10 min, 2035-ci ilə qədər isə 50 min könüllünün qeydiyyatdan keçəcəyi gözlənilir.

Xidmət pullu olacaq (ayda 900-1000 avro), 10 ay davam edəcək və 18 yaş və bundan yuxarı Fransa vətəndaşlarını əhatə edəcək. Müxtəlif sosial qrupların nümayəndələri üçün birgə hərbi təlim sosial birliyi və milli kimliyi gücləndirmək məqsədi daşıyır. Hərbi bacarıqlarla yanaşı, gənclərə intizam, komanda ruhu və vətənpərvərlik aşılanacaq.

Təlimdən sonra könüllülər yalnız ölkə daxilində xidmət edəcəklər. Məsələn, şəhərlərdə patrul xidməti aparan peşəkar əsgərlərə kömək edə bilərlər. Xidmətlərini başa vurduqdan sonra onlar ehtiyatda olan əsgərlər olacaqlar ki, bu da ordunun səfərbərlik potensialını gücləndirəcək.

Büdcə mübahisələrindən fərqli olaraq, könüllü xidmət ideyası parlamentdə geniş dəstək alıb. Mühafizəkar senator Sedrik Perrin qeyd edib ki, əgər 50000 könüllüdən 10 faizi orduda qalsa, bu, 5000 təlim keçmiş kişidən ibarət ehtiyat yaradacaq. Sağçı millətçi lider Cordan Bardella da layihəni dəstəkləyib və bunu 1997-ci ildə ləğv olunan hərbi xidmətin bərpası istiqamətində addım hesab edib. Amma solçular bu planlara daha ehtiyatla reaksiya veriblər.

Könüllü xidmətin yaradılması Makronun Ukraynadakı müharibədən əvvəl də prioritetlərindən biri idi. 2019-cu ildə 15-17 yaşlılar üçün "Universal Milli Xidmət Proqramı" (SNU) başladıldı. Bu, hərbi təlim və ictimai xidmətdə iştirakı birləşdirən qısamüddətli bir proqram kimi düşünülmüşdü. Lakin layihə səmərəsiz oldu - yüz minlərlə iştirakçıdan yalnız 40 mini iştirak etdi və proqramın maliyyələşdirilməsi tədricən azaldı. Nəticədə Baş nazir Sebastyan Lekornu 2026-cı ildə SNU-nun bağlanacağını elan etdi.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

**"SFK Trading Lojistik ve Ticaret Anonim Şirketi"nin Azərbaycan Respublikasındakı filialına məxsus möhür itdiyi üçün etibarsız sayılır.**


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Azərbaycan Asiyanın ən yaxşı mədəni və tarixi turizm ölkəsi seçilib

Malayziya və ümumilikdə Asiya regionunun tanınmış nəşrlərindən olan "Top 10 of Asia" və "Top 10 of Malaysia" jurnallarının apardığı sorğunun nəticələrinə əsasən, Azərbaycan "Asiyanın ən yaxşı mədəni və tarixi turizm ölkəsi" nominasiyası üzrə qalib olub.

AZƏRTAC xəbər verir ki, adıçəkilən jurnalları nəşr etdirən "RHA Media" təşkilatının paytaxt Kuala-Lumpur şəhərində keçirdiyi "TOP ASIA Corporate Ball 2025" adlı illik toplantı çərçivəsində xüsusi mükafat Azərbaycanın Malayziyadakı səfiri İrfan Davudova təqdim olunub. Mindən çox qonağın qatıldığı tədbirdə Malayziya və region ölkələrindən yüksəkvəzifəli dövlət rəsmiləri, ictimai xadimlər, diplomatik korpus təmsilçiləri, aparıcı şirkətlərin rəhbərləri, ekspertlər, bloqçular və media nümayəndələri iştirak ediblər.

Təşkilatçılar ölkəmiz tərəfindən son illər turizm sahəsində həyata keçirilən genişmiqyaslı layihələri, turizm infrastrukturunun inkişaf etdirilməsi və beynəlxalq səviyyədə artan marağı nəzərə alaraq, Azərbaycanın Asiyanın aparıcı turizm istiqamətlərindən biri kimi seçildiyini vurğulayıblar.

Azərbaycanın layiq görüldüyü mükafat ölkəmizin zəngin tarixi irsinin, mədəni müxtəlifliyinin və dünya səviyyəsində tanınan turizm potensialının yüksək qiymətləndirilməsinin növbəti bariz nümunəsidir.

Qeyd edək ki, "Top 10 of Asia" və "Top 10 of Malaysia" nəşrləri Asiya regionu üzrə aylıq 400 mindən çox hədəf oxucu kütləsinə malikdir.


## Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 01.12.2025-ci il tarixi saat 23:00-dan etibarən 02.12.2025-ci il tarixi gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra xidmətlərdən tam normal əsaslarla istifadə edilməsi imkanı təmin ediləcəkdir.


## B İ L D İ R İ Ş

"Azərenerji" ASC tərəfindən 21.10.2025-ci il tarixdə "Xudafərin və Qız Qalası Su-Elektrik stansiyalarının layihələndirilərək tikintisi" işlərinin satın alınması məqsədilə elan edilmiş müsabiqənin müddəti podratçıların sorğusuna əsasən aşağıda qeyd olunan müddətlərə uzadılır.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri, tender təklifi və bank təminatını ikiqat zərfdə **27 yanvar 2026-cı il saat 12:00-a** qədər Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanına "Ümumi şöbə"yə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri **27 yanvar 2026-cı il saat 16:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iclasda iştirak edə bilərlər.

***"Azərenerji" ASC-nin Satınalma Komissiyası***

# Bilmək istəyirəm

***Hündürmərtəbəli binada yaşayırıq. Bələdiyyə əmlak vergisinin ödənilməsi barədə bildiriş göndərib. Bu, qanunidirmi? Əgər qanunla ödəməliyiksə, bilmək istəyirəm ki, əmlak vergisinə görə güzəşt varmı və varsa, kimlərə şamil olunur? Mən təqaüddəyəm və müharibə veteranıyam. Yaşadığımız mənzil həyat yoldaşımın mülkiyyətindədir. Əgər müharibə veteranlarına, ya da pensiyaçılara güzəşt varsa, bu halda ailə üzvlərinə şamil edilirmi, yoxsa ev mütləq öz adıma olmalıdır?***

*Mübariz KAZIMOV,*
*Bakı şəhəri*

✓ - Sualınıza cavab olaraq bildiririk ki, bələdiyyənin əmlak vergisi bildirişi (tədiyyə bildirişi) göndərməsi Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən qanunidir, çünki çoxmənzilli binanın yaşayış sahəsinin mülkiyyətçiləri əmlak vergisi ödəmək öhdəliyinə malikdirlər və bu, qanunvericiliklə nəzərdə tutulub. Əmlak vergisinə görə güzəştlər əsasən mülkiyyətçinin statusuna görə tətbiq edilir. Güzəştin şamil olunduğu şəxslərin siyahısı Vergi Məcəlləsinin 199-cu maddəsində təsbit olunmuşdur. Belə ki, həmin maddəyə görə, pensiyaçılar və müharibə veteranları üçün müəyyən güzəştlər mövcuddur (əmlak vergisinin məbləği 30 manat azaldılmaqla), lakin bu güzəştlər yalnız onların özlərinə, yəni mənzil onların mülkiyyətində olduqda tətbiq edilir. Əgər mənzil həyat yoldaşınızın mülkiyyətindədirsə, güzəşt yalnız onun statusuna əsasən tətbiq oluna bilər, pensiyaçı və ya müharibə veteranı statusunuz mənzil sizin adınıza rəsmiləşdirilmədiyi halda güzəşt hüququ vermir. Yəni güzəşt hüququ üçün mənzil mütləq güzəşt hüququ olan şəxsin öz adına olmalıdır. Bundan başqa, şəxs bir neçə müxtəlif meyarlarla güzəştli kateqoriyaya düşə bilər, lakin bu halda o kateqoriyalardan yalnız birinə istinad edilir.

***Evimi təmir etdirmək istəyirəm. Deyirlər, ev tikdirərkən, təmir etdirərkən, ümumiyyətlə, muzdla kiməsə hər hansı sifarişi icra etdirərkən ustalarla xidməti müqavilə bağlanılmalıdır. Bilmək istəyirəm, fiziki şəxslərin, yəni ev, sifariş sahiblərinin xidməti müqavilə bağlanılmasa, hüquqi məsuliyyəti nədən ibarətdir? Eləcə də bu müqavilənin olub-olmamasını yoxlamaq konkret olaraq hansı hökumət orqanının səlahiyyətindədir?***

*Bahadur SƏFİZADƏ,*
*Quba rayonu*

✓ - Bildiririk ki, evini təmir etdirmək istəyən fiziki şəxs ustalarla xidməti müqavilə (mülki-hüquqi müqavilə) bağlamadığı halda bu, avtomatik olaraq hüquqi məsuliyyətə səbəb olmur. Yalnız əmək münasibətləri yaranarsa və əmək müqaviləsi bağlanmazsa, inzibati məsuliyyət tətbiq edilə bilər. Müqavilənin olub-olmamasına nəzarət və yoxlama Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin səlahiyyətindədir. Praktik olaraq ev sahiblərinə ustalarla yazılı müqavilə bağlamaq tövsiyə olunur ki, gələcəkdə hüquqi mübahisələrdə sübut kimi istifadə olunsun. Əgər münasibət mülki-hüquqi xarakter daşıyırsa, əmək müqaviləsi bağlanmamasına görə cərimə və ya digər sanksiya tətbiq edilmir.

**Sualları cavablandırdı:**
**Fərhad NƏCƏFOV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4071
Sifariş 2390

Qiyməti 60 qəpik